Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 117 (8140) CÜMƏ AXŞAMI, 30 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Daim xalqla birlikdə











Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Dənizkənarı Milli Parkında gəzintiyə çıxıblar.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Dənizkənarı Milli Parkda istirahət edən sakinlərlə və şəhərimizin qonaqları ilə görüşüblər.













## Azərbaycanın reallaşdırdığı layihələr bir çox ölkələrin də enerji təhlükəsizliyini təmin edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın "ITE Group Plc" şirkətinin baş məsləhətçisi **Endryu VUD** çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident.

Xanımlar və cənablar.

Bakıda keçirilən 26-cı sərginin Təşkilat Komitəsinin adından danışmaqdan məmnunam. Bizim burada keçirdiyimiz sərgi və konfrans ilk tədbirdən indiyədək əldə olunmuş möhtəşəm nailiyyəti nümayiş etdirir. Bir çoxları kimi hər dəfə Bakıya gələndə təkcə neft və qaz sənayesindəki inkişaf deyil, - sözsüz ki, bu inkişaf nəhəngdir, - həm də bütün ölkədəki böyük inkişaf məndə dərin təəssürat yaradır. Biz bu gözəl sərginin təşkilinə göstərdiyi köməyə görə SOCAR və Energetika Nazirliyinə minnətdarıq. Düşünürəm ki, bu il buraya gələn şirkətlərin dörddəbirinin yeni olması sərginin uğurunun göstəricisidir. Sizin hamınıza böyük uğur və səmərəli fəaliyyət arzulayıram. Çıxış üçün cənab Prezidenti tribunaya dəvət edirəm.

❖ ❖ ❖

Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.

*Bax: səh. 2*

## Bakıda futbol coşqusu

### Azərbaycan Prezidenti İlham Əliyev UEFA Avropa Liqasının final oyununa baxıb

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.



AZƏRTAC xəbər verir ki, Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

*Ardı 5-ci səh.*

## XXVI Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransının iştirakçılarına

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi Bakı şəhərində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı və ölkələrinizin tərəqqisi naminə gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Artıq böyük nüfuza malik ənənəvi tədbiriniz təşkil olunduğu ilk vaxtlardan bəri keçən müddətdə ölkəmizin neft-qaz sənayesinin başlıca istiqamətlərinin və strateji prinsiplərinin beynəlxalq aləmə çatdırılmasında aparıcı platformaya çevrilmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və gerçəkləşdirilmiş neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi"nin 25-ci ildönümünə təsadüf etməsi builki sərgi və konfransın əhəmiyyətini daha da artırır.

Bu il ölkəmizin neft sənayesi tarixində daha bir hadisə ilə əlamətdardır. Yetmiş il əvvəl, 1949-cu ildə məhz Bakıda əfsanəvi Neft Daşlarında ilk dəfə olaraq açıq dənizdə neft hasilatına başlanılması ilə dünya neftçıxarma sənayesi yeni dövrə qədəm qoymuşdur.

İndi Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr arasında layiqli yer tutur. Sürətli sosial-iqtisadi yüksəliş dövrünü yaşayan respublikamızın dinamik inkişafı nəticəsində əldə etdiyimiz nailiyyətlər milli iqtisadiyyatı şaxələndirməklə bütün sahələrdə, o cümlədən qeyri-neft sektorunda əsaslı irəliləyişlərə gətirib çıxarmışdır.

Ölkəmiz bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirməklə yanaşı, xarici sərmayədarlar üçün də əlverişli şərait yaratmışıq. Dünya neft sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan, həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir.

Ötən il "Cənub qaz dəhlizi" layihəsinin ilk hissəsinin rəsmi açılış mərasimi olmuş, daha sonra TANAP - Transanadolu qaz kəmərinin istifadəyə verilməsi ilə bağlı təntənəli mərasim keçirilmişdir. Layihənin icrası müstəqillik illərində enerji strategiyamızın ən yaddaqalan uğurlarındandır. TANAP eləcə də ölkəmizin iqtisadi qüdrətini və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolunu aydın şəkildə nümayiş etdirdi. Əminəm ki, yaxın zamanda "Trans-Adriatik" boru kəməri (TAP) layihəsinin tamamlanması ilə böyük infrastruktur layihəsi "Cənub qaz dəhlizi" də icra edilmiş olacaqdır. Bu isə bizə imkan yaradacaqdır ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına şaxələndirilmiş yolla qısa və təhlükəsiz şəkildə çatdırılsın.

İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və konfransınız aktual mövzulu dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*



## "Müstəqillik, suverenlik, öz taleyimizi təyin etmək imkanı vətənimizin inkişafı üçün başlıca şərtdir"

### Birinci vitse-prezident Mehriban Əliyeva 28 May - Respublika Günü münasibətilə xalqımızı təbrik edib

"Əziz həmvətənlər, Sizi Respublika Günü münasibətilə təbrik edirəm. 101 il əvvəl bu gün Azərbaycan Xalq Cümhuriyyəti - müsəlman aləmində ilk demokratik respublika elan olunub. Azərbaycanın çoxəsrlik tarixə malik dövlətçilik ideyaları yeni, mütərəqqi formada dirçəlib. Azərbaycan Xalq Cümhuriyyətinin qısa, lakin parlaq taleyi bizim milli mənlik şüurumuzda dərin iz qoyub. Onun ideyaları, onun irsi bizim müasir dövlətçiliyimizin tarixi və mənəvi təməlini təşkil edib. Müstəqillik, suverenlik, öz taleyimizi təyin etmək imkanı vətənimizin inkişafı üçün başlıca şərtdir. Bu gün biz Respublika Gününü güclü və müstəqil Azərbaycanda qarşılayırıq. Sizin hamınıza səadət, xoş günlər və sevgi, vətənimizə isə firavanlıq, rifah, sülh və tərəqqi diləyirəm".

## "Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır"

**Hörmətli cənab Prezident!**

Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.



Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. "Cənub qaz dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir.

Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolunu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır.

Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir.

Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram.

*Səmimiyyətlə,*

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

# Azərbaycanın reallaşdırdığı layihələr bir çox

## Prezident İlham Əliyevin nitqi






- Hörmətli xanımlar və cənablar.

Əziz dostlar.

Bu gün Xəzər Neft-Qaz Sərgisi öz işinə başlayır. Bu münasibətlə sizi təbrik edirəm. Bu, çox əlamətdar hadisədir. Bu sərgi dünya miqyasında çox önəmli beynəlxalq tədbirlərdən biridir.

Bu sərgi 26-cı dəfədir keçirilir və sərgiyə maraq azalmır. Çünki bu il sərgidə 30-dan çox ölkədən 300-ə yaxın şirkət iştirak edir və bu, çox gözəl göstəricidir. İyirmi altı il ərzində sərgi dünyanın neft şirkətlərinin diqqətini cəlb edir. Bu, onu göstərir ki, Azərbaycanın neft-qaz resursları bu gün və gələcəkdə xarici şirkətlər üçün böyük maraq kəsb edəcək.

Mən birinci sərgini xüsusilə qeyd etmək istərdim. 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox önəmli rol oynadı. Mən bunu nəzərə alaraq sərginin iştirakçılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çünki onların bu qərarı, Bakıda bu sərginin keçirilməsi və ondan sonra uzun illər ərzində bizimlə əməkdaşlıq etmələri, əlbəttə ki, təqdirəlayiq bir haldır.

1994-cü ildə ilk sərgi keçiriləndə ölkəmizdə vəziyyət tam fərqli idi. Azərbaycan çox ağır iqtisadi vəziyyətdə idi, siyasi müstəvidə sabitlik təzə-təzə bərpa edilmişdi. Çünki müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi, siyasi böhran demək olar ki, ölkəmizin inkişafına böyük zərbə vurmuşdu, ölkəmizin inkişafı ilə bağlı aydın təsəvvür yox idi. Əlbəttə, zəngin neft-qaz resurslarına malik olan ölkə üçün yeganə çıxış yolu sabitliyin bərpası və neft resurslarından səmərəli istifadə edilməsi idi ki, sərmayə qoyuluşu gəlsin və ölkəmizin iqtisadi potensialı artsın. 1994-cü ildə sərgidən yaranan mənfəət, o cümlədən siyasi mənfəət bu gün də bizə imkan verir ki, həm neft-qaz sektorumuzu, eyni zamanda, ümumiyyətlə, ölkəmizi inkişaf etdirək.

Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərilmişdir. 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" neft yataqları üzrə imzalanmış kontrakt demək olar ki, bizim inkişafımıza çox böyük təkan verdi. Təsadüfi deyil ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona "Əsrin kontraktı" adı verilmişdir. "Əsrin kontraktı"nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlamışdır və eyni zamanda, ondan sonra digər kontraktlar da imzalandı. "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni bu, o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək.

Onu da bildirməliyəm ki, sərginin "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış Sazişə də çox böyük dəstəyi olmuşdur. Çünki o Saziş məhz 1996-cı ildə keçirilmiş sərgi zamanı imzalanmışdır. O vaxt "Şahdəniz" yatağına xarici investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Çünki xarici şirkətlərin əsas hissəsi neft yataqlarına daha böyük maraq göstərirdi. Çünki mənfəət baxımından, əlbəttə ki, bu, daha cəlbedicidir. Qaz yataqlarına isə maraq o qədər də böyük deyildi. O vaxt bütövlükdə qaz amili enerji təhlükəsizliyi baxımından o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Buna görə "Şahdəniz" yatağı üzrə imzalanmış kontraktın da ölkəmiz üçün çox böyük faydası oldu və bu gün biz bunun xeyrini görürük. Çünki bu gün "Şahdəniz"dən çıxarılan qaz həm daxili bazara göndərilir, eyni zamanda, bizim ixrac potensialımızı artırır. "Şahdəniz" bu gün "Cənub qaz dəhlizi"nin resurs bazasıdır. Məhz "Şahdəniz" yatağının mövcudluğuna, yatağın işlənilməsinə görə bu gün nəhəng "Cənub qaz dəhlizi" layihəsi icra edilir.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları üzrə imzalanmış kontraktlar tarixi əhəmiyyət daşıyır. Ondan sonra da kontraktlar imzalanmışdır. Onların bəzilərinə xitam verildi. Çünki biz beynəlxalq təcrübədə də kifayət qədər tez-tez bu vəziyyətlə rastlaşırıq ki, qazma işləri aparılır, amma kifayət qədər mənbə aşkar olunmur. Amma yenə də deyirəm, "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" bizim neft-qaz sektorumuzun əsas hissəsini təşkil edir.

Əlbəttə ki, növbəti mərhələdə neft-qaz kəmərlərinin tikintisi məsələsi gündəliyə çıxmışdır və bu məsələ də uğurla həll olundu. Hesab edirəm ki, bu da tarixi layihədir. 2006-2007-ci illərdə nəhəng neft-qaz kəmərlərinin istifadəyə verilməsindən sonra Azərbaycanın böyük ixrac imkanları olmuşdur və Xəzər dənizindən çıxarılan neft-qaz həm daxili bazara, həm də ki, xarici bazarlara göndərilməyə başlanılmışdır.

"Əsrin kontraktı"nın əhəmiyyəti, eyni zamanda, onda idi ki, ilk dəfə olaraq Xəzər dənizinə xarici neft şirkətləri dəvət olundu və onlar Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi ilə məşğul olmağa başladılar. İxrac neft-qaz kəmərlərinin tikintisindən sonra, əlbəttə ki, Azərbaycan yeni mərhələyə qədəm qoydu və digər yataqlar üzrə danışıqlar aparılmağa başlanmışdır. Onların bir neçəsi artıq qüvvədədir və hesab edirəm ki, yaxın illərdə biz yeni yataqlardan enerji resurslarımızı hasil edəcəyik.

"Cənub qaz dəhlizi"nin reallaşması tarixi hadisədir. Bu, nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi"nin reallaşması üçün bir çox önəmli addımlar atılmışdır və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Çünki əgər genişmiqyaslı beynəlxalq əməkdaşlıq olmasaydı, bu nəhəng layihəni icra etmək mümkün olmazdı. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi "Cənub qaz dəhlizi"nin önəmli hissəsidir. Keçən il - düz bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılmışdır. Bildiyiniz kimi, "Cənub qaz dəhlizi" dörd hissədən ibarətdir. Onlardan üçü artıq reallaşıb, dördüncü layihə də uğurla icra edilir. Keçən il TANAP-ın istifadəyə verilməsindən sonra Azərbaycan öz qaz resurslarını xarici bazarlara daha böyük həcmdə ixrac etməyə başlamışdır. Beləliklə, "Cənub qaz dəhlizi"nin reallaşması üçün çox önəmli şərait yaradılmış və addımlar atılmışdır.

Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə BP şirkətini qeyd etmək istərdim. Çünki BP şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var. Çünki qeyd etdiyim kimi, təkcə "Azəri-Çıraq-Günəşli" yatağı üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.

Biz bu layihələri, əlbəttə ki, o cümlədən xarici maliyyə resurslarının hesabına icra etdik. Həm öz vəsaitimizi qoyduq, eyni zamanda, beynəlxalq maliyyə qurumlarından kredit şəklində vəsait aldıq. Bu münasibətlə bu qurumların Azərbaycana dəstəyi haqqında danışmaq istərdim. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı - dünyanın bu aparıcı maliyyə qurumları "Cənub qaz dəhlizi"nin reallaşmasına öz maliyyə vəsaitini ayırıb və beləliklə, layihənin icrası üçün çox önəmli dəstək vermiş olublar. Eyni zamanda, bu kreditlərin ayrılması Azərbaycanın uğurlu gələcəyinə inamın təzahürüdür.

Biz bu layihənin həyata keçirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq aparırıq. 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub qaz dəhlizi" ilə əlaqədar Birgə Bəyannamə qəbul edilmişdir. Bizim təşəbbüsümüzlə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçirilir. Bu ilin fevral ayında 5-ci toplantı keçirilmişdir. Bu toplantılarda həm görülmüş işlərə yekun vurulur, eyni zamanda, ən önəmlisi odur ki, görüləcək işlər haqqında danışılır. Əlbəttə, biz əminik ki, bu nəhəng layihənin uğurla icra edilməsinə nail olacağıq. Çünki bu gün həm beynəlxalq əməkdaşlıq baxımından, həm də maliyyə resursları baxımından bu layihənin reallaşması üçün heç bir problem qalmır.

Mən bir qədər əvvəl beynəlxalq əməkdaşlıq haqqında fikirlərimi bildirdim. Bir daha demək istəyirəm, çünki belə nəhəng layihələri biz ancaq beynəlxalq əməkdaşlıq çərçivəsində həll edə bilərik. Çünki əgər o olmasa, o layihələri icra etmək mümkün olmaz. Neft-qaz kəmərləri, investisiya qoyuluşu, beynəlxalq maliyyə qurumlarının iştirakı və əlbəttə ki, birgə səylərimiz nəticəsində biz buna nail ola bilmişik. Hesab edirəm ki, Azərbaycan bu məsələ ilə bağlı istədiyinə tam nail ola bildi.

Sirr deyil ki, bu gün enerji təhlükəsizliyi məsələləri böyük əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Bu baxımdan Azərbaycan tərəfindən reallaşan və bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizin, həm də bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla ixrac edilir. Enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi məsələləri bu gün çox böyük əhəmiyyət daşıyan məsələlərdir. Ölkəmizin bu sahədəki rolu qiymətləndirilir. Azərbaycan bu məsələlərlə bağlı ardıcıl və uğurlu siyasət aparır.

Ölkə iqtisadiyyatı üçün bu layihələrin çox böyük əhəmiyyəti var. Çünki təsəvvür edin, əgər 1994-cü ildə "Əsrin kontraktı" imzalanmasaydı və Azərbaycan öz zəngin neft-qaz resurslarını dünya bazarlarına ixrac etməsəydi, bizim iqtisadi vəziyyətimiz tam fərqli ola bilərdi. Ona görə bu layihələr ölkə iqtisadiyyatına çox böyük təkan vermişdir. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması, kadr hazırlığı üçün yeni imkanlar yaradılmışdır. Bu gün Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərdə və neft-qaz əməliyyatlarında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşlarıdır. Gözəl təlim və təhsil almış gənc Azərbaycan mütəxəssisləri bu gün ölkəmiz üçün çox böyük işlər görürlər. Kadr hazırlığı, biznes mühitinin yaxşılaşdırılması, beynəlxalq əməkdaşlıq - bütün bunlar bu layihələrin nəticəsində mümkün olmuşdur və ölkəmizə böyük fayda vermişdir.

Dövlət Neft Fondunun yaradılması və Dövlət Neft Fondunun xətti ilə ən vacib məsələlərin həlli - bu da uğurlu neft siyasətimizin nəticəsində olmuşdur. Yüzdən çox köçkün şəhərciyi Dövlət Neft Fondunun xətti ilə inşa edilmişdir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və infrastruktur layihələrinə investisiya qoyuluşu da məhz bu layihələrlə bağlıdır. Biz son illər ərzində əsas infrastruktur layihələrimizi icra etdik və bu istiqamətdə işlər davam etdirilir. Həm yol tikintisi, həm qazlaşdırma, həm də elektrik enerjisi ilə bağlı olan məsələlər Azərbaycanda uğurla icra edilir. Qazlaşdırma 95 faizə çatıb. Əgər kifayət qədər qaz resurslarımız olmasaydı, bu, mümkün olmazdı. Yəni bu layihələrin icrası və ümumiyyətlə, Azərbaycanın əsası Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının icrası tamamilə yeni bir vəziyyət yaratmış və ölkəmiz sürətlə inkişaf etməyə başlamışdır. Biz neftdən əldə edilən gəlirləri qeyri-neft sektorunun inkişafına, insan kapitalına qoymağa başlamışıq. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağının tikilməsi, yeniləşən infrastruktur, sosial layihələrin, vətəndaşların sosial problemlərinin həlli - bütün bunların təməlində bizim uğurlu neft siyasətimiz dayanır. Bu gün isə ölkə qarşısında duran əsas vəzifə neft-qaz amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə də önəmli addımlar atılır. Dünya Bankının son hesabatında biznes mühitinə görə Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni bu, onu göstərir ki, biz bu gün iqtisadiyyatın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atırıq. Eyni zamanda, bilməliyik ki, neft-qaz sektoru bundan sonra da ölkə iqtisadiyyatında çox önəmli rol oynayacaqdır.

Mən bu gün Azərbaycan neftçilərinin əməyini qeyd etmək istərdim. Azərbaycanda neftçi peşəsi həmişə böyük hörmətə malik olub, bu gün də bu, belədir. Azərbaycan neftçiləri ölkəmizin uğurlu inkişafı üçün çox böyük işlər görürlər, qəhrəmanlıq göstərirlər, ağır şəraitdə, dənizdə ölkəmizin qüdrətini artırırlar.

Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. 1994-cü ildə başlanmış və uğurla davam etdirilən neft-qaz siyasətimiz bu gün Azərbaycanın reallıqlarını şərtləndirən əsas amillərdən biridir. Bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Biz regional inkişaf proqramını uğurla icra edirik. Əlbəttə, bundan sonra da çalışmalıyıq ki, büdcəmizi daha çox qeyri-neft sektorunun hesabına təmin edək və buna yaxınlaşırıq. Ancaq onu da bilməliyik ki, neft-qaz sektoru bizim üçün prioritet sektor olaraq qalacaqdır.

Mən sərginin keçirilməsi münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Sərginin təşkilatçılarına təşəkkürümü bildirmək istəyirəm. Sərgiyə uğurlar arzulayıram. Sağ olun.

---

Sonra ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunda dövlət katibi köməkçisinin birinci müavini **Kent LOQSDON** çıxış etdi:



- Sabahınız xeyir Prezident Əliyev.

Baş nazir Məmmədov, energetika naziri Şahbazov.

Nazirlər, səfirlər, xanımlar və cənablar.

Artıq 26-cı ildir ki, keçirilən bu tədbirdə Azərbaycanın qlobal enerji bazarına verdiyi töhfələri qiymətləndirmək üçün ölkəyə yenidən qayıtmaq məndə məmnunluq hissi oyadır. Əlbəttə ki, Azərbaycan "Cənub qaz dəhlizi" layihəsi üzrə sabit tərəqqiyə nail olub. Bu layihə Avropanın enerji təhlükəsizliyini artıracaq, Azərbaycan və tranzit ölkələr üçün yeni və etibarlı uzunmüddətli gəlir mənbəyi olacaqdır. Həmçinin Şərqi Aralıq dənizi regionundan, Mərkəzi Asiyadan və Avropa enerji bazarından olan digər ölkələrdən yeni təchizatçıların qoşulması ilə bu layihəni genişləndirmək də olar. Mən Prezident Əliyevi və onun qeyd etdiyi kimi, gərgin əməyi sayəsində bu əlamətdar nailiyyətin arxasında duran bütün ölkələri və şirkətləri təbrik edirəm.

Amerika Birləşmiş Ştatları 10 il bundan əvvəl layihə ilə bağlı təşəbbüs irəli sürüləndə ona güclü dəstək göstərmişdir. Biz bu layihənin Avropanın enerji təchizatının şaxələndirilməsində mühüm rol oynaya biləcəyini və eyni zamanda, Xəzər regionuna daha böyük iqtisadi əməkdaşlığın faydalarını gətirə biləcəyini anlayırıq. Bu layihənin genişləndirilməsi üçün birlikdə çalışdığımız müddətdə və gələcək illərdə ona güclü dəstək olmağa davam edəcəyik. Biz Azərbaycanın enerji resurslarının inkişafını və dünya bazarlarına çıxışını dəstəkləyirik. Hökumətimizin ən yüksək dairələrində Azərbaycanın suverenliyinə və müstəqilliyinə dəstəyimizi nümayiş etdirmək üçün indi ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri İlham Əliyevə ünvanladığı məktubu oxumaq istəyirəm.

Kent Loqsdon Prezident Donald Trampın məktubunu oxudu (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).

❖ ❖ ❖

Daha sonra Böyük Britaniyanın beynəlxalq ticarət üzrə dövlət katibi **Liam FOKSUN** videomüraciəti təqdim olundu. Videomüraciətdə deyilir:



- Zati-aliləri Prezident Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Sizin hamınızı Londondan salamlamaqdan çox məmnunam və mən şəxsən sizinlə birgə ola bilmədiyimə görə çox təəssüflənirəm.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin 25-ci ildönümünü qeyd etdiyimiz bir vaxtda bugünkü tədbir ölkələrimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Bu, həmçinin Böyük Britaniyanın Azərbaycana ilk investisiya yatırmasının təcəssümüdür. Bu investisiya ölkənin öz enerji müstəqilliyini təmin edən müasir və mütərəqqi dövlətə çevrilməsinə kömək edib. Neft və qaz sənayesi Böyük Britaniyanın Azərbaycanla ticarət əlaqələrində təməl daşı olaraq qalır. "Əsrin müqaviləsi" imzalanandan indiyədək biz birlikdə böyük mənfəət əldə etmişik. Onun müddətinin 2050-ci ilədək uzadılması bizim paylaşdığımız etimadın və BP-nin rəhbərlik etdiyi konsorsiumla Azərbaycan hökuməti arasında qarşılıqlı faydalı əməkdaşlığın sübutudur.

# ölkələrin də enerji təhlükəsizliyini təmin edir
















Əməkdaşlığımızın dərinləşməsi hər iki ölkəyə yalnız əlavə iqtisadi mənfəət gətirə bilər. Biz birlikdə uğurlu tərəfdaşlıq və gələcək üçün möhkəm təməl yaratmışıq. Böyük Britaniyanın Azərbaycana investisiya yatırması təkcə dollar gəlirləri demək deyil, həm də Azərbaycanın yerli neft və qaz ehtiyatlarının, bacarıqların və dünya standartlarına cavab verən infrastrukturun inkişafına investisiya yatırılması deməkdir. Bu, müstəqil respublikanın dünyada öz yolu ilə getməsi üçün ehtiyatları təmin etməsi deməkdir.

Mən, həmçinin Azərbaycanın Avropa enerji təhlükəsizliyinə verdiyi əhəmiyyətli töhfəni vurğulamaq istərdim. Ötən ilin mayında uğurlu açılışı olmuş "Cənub qaz dəhlizi" tezliklə Azərbaycan qazını Avropa bazarlarına çatdıraraq təbii qaz üçün təhlükəsiz ixrac marşrutu yaradacaq və regionun digər ölkələri üçün mükəmməl nümunə olacaq. Əlbəttə ki, xüsusilə Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi siyasətini yürütdüyü bir zamanda bizim güclü və məhsuldar əlaqələrimiz enerji sahəsinin hüdudlarını aşaraq bir çox sahələri əhatə edir. Böyük Britaniya mümkün olduğu qədər Azərbaycana şaxələndirmə ilə bağlı kömək etmək üçün öz təcrübəsini paylaşmağa hazırdır və mən bunun qarşıdakı illərdə daha da güclənməsini səbirsizliklə gözləyirəm.

Mən builki Xəzər Neft və Qaz sərgisi və konfransında hər kəsə uğurlar arzulamaq istərdim və tezliklə şəxsən iştirak etməyimi səbirsizliklə gözləyirəm.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış oldu.

Sərgidə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR geniş təmsil olunur. SOCAR-ın stendində neft emalı və neft-kimya, STAR neft emalı zavodu, karbamid zavodu, SOCAR Polimer zavodu, "Cənub qaz dəhlizi" və perspektiv layihələr barədə məlumat verilir.

Dövlət başçısına burada SOCAR-ın neft-qaz-kimya kompleksi layihəsi haqqında məlumat verildi. Layihənin əsas məqsədi ölkə əhalisini təmizlənmiş təbii qazla təmin etmək və neft-kimya məhsullarını istehsal etməkdir. Qaradağ rayonunun ərazisində reallaşdırılacaq bu layihə ildə 10 milyard kubmetr qaz emalı, 600 min ton polietilen, 130 min ton propilen istehsal etməyə imkan verəcək. Burada inşaat mərhələsində təqribən 15 min nəfər, istismar dövründə isə 2000 nəfər çalışacaq. Məhsulların Türkiyə,







Avropa, Çin və digər ölkələrə ixracı nəzərdə tutulur. Zavodların 2023-cü ildə istismara verilməsi planlaşdırılır.

Bu il Neft Daşlarının 70 illiyi tamam olur. Azərbaycan neft sənayesində Neft Daşları yatağının çox mühüm yeri var. İlk dəfə burada açıq dənizdə neft və qaz hasilatına, estakada üsulu ilə yataq istismarına başlanılıb, yataqlara suvurma üsulundan istifadə olunub. Neft Daşları yatağında 70 il ərzində 175 milyon tondan çox neft, 13,5 milyard kubmetr qaz hasil edilib, 1928 quyu qazılıb. Ötən il bu yataqdan 945 min ton neft və 81,2 milyon kubmetr səmt qazı hasil olunub. Hesablamalara görə, Neft Daşlarında çıxarıla bilən 18,9 milyon ton neft ehtiyatı var.

Stenddə "Əsrin müqaviləsi"nin 25 illiyi ilə bağlı guşə yaradılıb. Ulu öndər Heydər Əliyevin qətiyyəti və iradəsi sayəsində imzalanan müqavilə ölkəmizin həyatında çox mühüm tarixi hadisəyə çevrildi. Bu il aprelin 1-nə olan məlumata əsasən, Azərbaycanın payına 279 milyon ton mənfəət nefti düşür. "Azəri-Çıraq-Günəşli" saziş sahəsindən bu il aprelin 1-nə qədər 481,1 milyon ton neft və 156,2 milyard kubmetr qaz hasil edilib. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri vasitəsilə 382,9 milyon ton neft ixrac olunub.

Prezident İlham Əliyev BP-Azərbaycanın stendində də oldu. Dövlət başçısına burada AÇG-nin 25 illiyi ilə bağlı uğurlar və növbəti 25 illik plan barədə məlumat verildi. BP-Azərbaycan ölkənin və Cənubi Xəzər regionunun aparıcı əməliyyatçısı kimi fəaliyyət göstərir. Bu müddətdə BP təhlükəsiz və səmərəli əməliyyatlar həyata keçirərək ölkənin bir sıra mühüm neft-qaz layihələrini uğurla təhvil verib. Bu layihələrə "Azəri-Çıraq-Dərinsulu Günəşli" neft yatağı, "Şahdəniz" qaz və kondensat yatağı, üç ixrac boru kəməri, həmçinin dayazsulu "Abşeron" və "Şəfəq-Asiman" və D-230 geoloji-kəşfiyyat strukturları daxildir. İndiyədək BP tərəfdaşları ilə birgə Azərbaycanın neft-qaz layihələrinə 72 milyard dollardan artıq sərmayə qoyub. BP-nin Azərbaycanda 2900-a yaxın ixtisaslı işçisi var. Onların 90 faizi Azərbaycan vətəndaşlarıdır.

İtaliyanın SAİPEM şirkəti də sərgidə iştirak edir. Şirkət energetika və infrastruktur sektorlarında iri layihələrin mühəndisliyi, qazma və tikinti işləri sahəsində böyük təcrübəyə malikdir. SAİPEM ən yüksək texnologiyaları tətbiq edir. Şirkət 60-dan çox ölkədə fəaliyyət göstərir.

Belarusun dövlət neft-kimya konserni olan Belnefttechim də sərgidə təmsil olunur. Şirkət iqtisadi potensialına görə dünya bazarında öz yerini tutub. Müəssisə neftin kəşfiyyatı, hasilatı, daşınması və emalı, eləcə də neft məhsullarının satışı üzrə bütün prosesləri ehtiva edir. Konsernin həyata keçirdiyi fəaliyyətin ən mühüm istiqamətlərindən biri də neft məhsulları, kimyəvi liflər və iplik istehsalıdır.

İtaliyanın "Maire Tecnimont" şirkəti dünyanın aparıcı şirkətlərindən biridir. Mühəndislik, satınalma və tikinti işlərini həyata keçirən və texnologiyaların hazırlanması üzrə energetika, neft-qaz, neft-kimya, habelə infrastruktur layihələrində dünyanın aparıcı müəssisələrindən biri olan bu şirkətin 40 ölkədə nümayəndəliyi var. Şirkət Azərbaycanda həm də SOCAR-ın neft-kimya sənayesində reallaşdırdığı "SOCAR Polymer" layihəsinə podratçı qismində cəlb edilib.

Dövlət başçısı Fransanın TOTAL şirkətinin stendinə də baxdı. Şirkət Azərbaycanda kəşfiyyat-istehsalat fəaliyyətinə 1996-cı ildən başlayıb. 2012-ci ildə TOTAL Xəzər dənizinin dərinliklərində Abşeron bloku ilə əlaqədar böyük bir kəşf edib. 2018-ci ildə TOTAL və SOCAR Abşeron yatağının operatoru olan birgə əməliyyat şirkəti yaradıblar.

Norveçin "Equinor" beynəlxalq energetika şirkəti "Azəri-Çıraq-Günəşli" yatağına sərmayə qoymaqla yanaşı, Azərbaycanda digər investisiya imkanlarını da nəzərdən keçirir. Azərbaycana sərmayə qoyan ilk xarici neft şirkətlərindən biri kimi "Equinor" şirkəti ölkəmizdə uzun müddətdir fəaliyyət göstərir. Şirkətlə "Qarabağ" yatağı, "Əşrəfi-Dan Ulduzu-Aypara" sahəsi üzrə əməkdaşlıqla yanaşı, bərpaolunan enerji sahəsinin inkişafında birgə layihələrin həyata keçirilməsi də prioritet istiqamətlərdəndir.

Ukraynanın "İnterpipe" şirkəti neft-qaz, elektrik istehsalı, mexanika və konstruksiya sahələrində istifadə üçün nəzərdə tutulmuş polad boruların qlobal miqyaslı istehsalçısıdır. Şirkətin məhsulları Ukrayna, MDB, Avropa, ABŞ və Yaxın Şərq regionlarında yerləşən kommersiya ofisləri vasitəsilə dünyanın 80 ölkəsinə ixrac edilir.

ABŞ-ın "Hallibörton" şirkətinin əsası 1919-cu ildə qoyulub. Şirkət enerji sənayesi üzrə dünyanın ən böyük istehsal və xidmət təchizatçılarından biridir. 80-dən çox ölkədə fəaliyyət göstərən şirkət öz müştərilərinə yataqların istismarı ilə bağlı xidmətlər təklif edir.

Rusiyanın 10 ən böyük neft-qaz şirkətlərindən biri olan "Russneft" də sərgidə təmsil olunur. "Russneft"in hazırkı biznes modeli hasilata yönəlib. Şirkət Rusiyanın bir regionunda, eləcə də MDB ölkələrində, o cümlədən Azərbaycanda perspektivli layihələri uğurla həyata keçirir. "Russneft" müasir texnologiya və avadanlıqlar sayəsində neft-qaz hasilatı üzrə nəhəng layihələrin işlənib hazırlanması və həyata keçirilməsi baxımından böyük potensiala malikdir.

"Caspian Drilling Company" şirkətinin əsas məqsədi qabaqcıl dəniz qazma operatoru olmaqla, ən yüksək səviyyədə quyu mühəndisliyi, kompleks layihə idarəetməsi və qazma xidmətləri göstərməkdir. Şirkət fəaliyyətində texniki cəhətdən müasir avadanlıqdan istifadə edir. "Caspian Drilling Company" yerli statusa malik olmaqla, beynəlxalq standartlara uyğun fəaliyyət göstərir.

Azərbaycan şirkəti olan "Vertex" də sərgidə xidmətlərini təklif edir. Şirkətin əsas iş fəaliyyəti elektrik və şəbəkə xətlərinin çəkilməsi, elektrik avadanlığı istehsalı və quraşdırılması, metal məmulatlarının istehsalı, qaynaq və boruquraşdırıcı işlər, modul tipli binaların hazırlanmasıdır.

Özbəkistanın "Uzbekneftegaz" şirkəti 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər qurumları birləşdirən müasir korporasiyadır. Holdinqin hazırkı strukturu istehsal və texnologiyanın bütün mərhələlərini əhatə edən qarşılıqlı əlaqəli layihələri səmərəli idarə etməyə imkan verir.

ABŞ-ın "Schlumberger" şirkəti neft və qaz sahəsində neft yataqlarının xarakterizə edilməsi, quyuların qazılması, hasilat və emal üzrə dünyanın qabaqcıl texnologiya təchizatçısıdır. Şirkət yataqların kəşfiyyat-qazma işində, boru kəmərinin və hidokarbonların bərpasında xidmətlərini təklif edir. Avadanlıq və xidmətlərin ən geniş çeşidini sənayedə təmin edən bu qurum fəaliyyətində innovativ həllərə üstünlük verir.

NİGAZ milli sənaye qrupu bir neçə şirkəti özündə birləşdirir. Şirkət fəaliyyətini yüksək texnologiyalara əsasən qurub. Bu qrup neft emalı, neft-kimya müəssisələri və digər aidiyyəti qurumlara qarşı kibertəhlükəsizliklə bağlı həlləri təklif edir.

Çinin HUAWEI şirkəti də sərgidə təmsil olunur. İnformasiya və kommunikasiya texnologiyaları infrastrukturunun və smart cihazların qabaqcıl dünya təchizatçılarından olan HUAWEI dörd əsas sahədə inteqrasiya edilmiş həlləri təqdim edir. Bunlara telekommunikasiya şəbəkələri, informasiya texnologiyaları, smart cihazlar və bulud xidmətləri daxildir.

İngiltərənin "Worley" şirkəti layihələndirmə, təchizat və tikinti sahələrində müvafiq təcrübə, habelə geniş çeşiddə əməliyyat, texniki xidmət, konsaltinq və məsləhət xidmətlərini təqdim edir. Şirkət karbohidrogen, mineral, metal, kimyəvi maddələr və infrastruktur sektorlarında yeni aktivlər yaradıb.

Sərgidə Almaniya 15 şirkətlə təmsil olunur. Bu ölkənin İqtisadiyyat Nazirliyi və Alman maşınqayırma şirkətləri Assosiasiyasının dəstəyi ilə burada orta və kiçik şirkətlərin məhsulları təqdim edilir. Bu şirkətlər qazma, nasos, təhlükəsizlik texnikası, kəşfiyyat və hasilat üzrə ixtisaslaşan qurumlardır.

Prezident İlham Əliyev Türkiyənin TPAO şirkətinin stendində də oldu. Qeyri-ənənəvi kəşfiyyat, təbii qazın saxlanması, dərin su qatlarında kəşfiyyat, boru kəməri ilə daşımalarda iştirak edən şirkət Yaxın Şərq, Afrika və Xəzər regionu kimi bölgələrdə öz biznes portfelini genişləndirməkdədir. TPAO "Şahdəniz"də 19, Cənubi Qafqaz Boru Kəmərində 19, "Azəri-Çıraq-Günəşli"də 5,73, "Bakı-Tbilisi-Ceyhan"da 6,53 faiz paya malikdir.

Tanınmış beynəlxalq platforma kimi nüfuz qazanan və bölgəmizin neft-qaz sənayesinin mühüm tədbiri olan bu sərgi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə etmək üçün mühüm platforma hesab edilir. Sərgidə iştirak edən şirkətlər neft hasilatı və enerji resurslarının daşınması, neft-qaz saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıq, xidmət və innovativ texnologiyaların geniş çeşidini, platforma və üzən qazma qurğularını, boruların çəkilməsi və boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi, eləcə də servis xidmətlərini təqdim edir.

Sonda dövlət başçısı sərgi və konfransın xatirə kitabını imzaladı.

# Aleksandr Çeferin Bakıda özünü çox rahat hiss edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı İlham Əliyev Aleksandr Çeferin və UEFA Avropa İcraiyyə Komitəsinin üzvləri ilə əvvəlki görüşünü xatırlayaraq yenidən nümayəndə heyətinin Bakıya səfərindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Avropa Futbol Assosiasiyaları Birliyinin prezidenti Aleksandr Çeferin Bakıda UEFA Avropa Liqasının final oyununun keçirilməsi üçün yüksək səviyyədə hazırlıq işlərinin görüldüyünü qeyd etdi. O, Bakının çox gözəl şəhər olduğunu, müasir inkişafı və tarixi ənənələri özündə birləşdirdiyini vurğuladı, onların paytaxtımızda özlərini çox rahat hiss etdiklərini dedi. UEFA-nın prezidenti Aleksandr Çeferin Avropa Futbol Assosiasiyaları Birliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edərək yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Güclü tərəfdaşlıq əlaqələrin göstəricisidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı, ilk növbədə, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın göndərdiyi məktuba görə minnətdarlığını bildirdi, bunu güclü tərəfdaşlıq əlaqələrimizin göstəricisi kimi dəyərləndirdi və son bir neçə gündə ABŞ Prezidenti tərəfindən iki məktubun ünvanlanmasını yüksək qiymətləndirdi.

Qəbula görə minnətdarlığını bildirən Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdon Bakıda keçirilən XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransında iştirakdan məmnunluqlarını bildirdi və bu mühüm tədbirin 26-cı ildönümü münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev Azərbaycanda keçirilən XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının əhəmiyyətinə toxundu, tədbirin uzun illərdir ki, dünyanın aparıcı şirkətlərini cəlb etdiyini vurğulayaraq Amerika Birləşmiş Ştatlarının burada geniş şəkildə təmsil olunmasının önəmini qeyd etdi.

Söhbət zamanı "Cənub qaz dəhlizi" layihəsinin icrası, energetika, bərpa olunan enerji mənbələri, biznes sahəsində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, energetika sektorunda institusional islahatların sürətləndirilməsi, bu sahədəki fəaliyyətin beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi, sahənin inkişafına özəl, o cümlədən xarici investisiyaların cəlb edilməsi və rəqabət mühitinin formalaşdırılması məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla:

1.1. energetika sektorunun inkişafının əsas prioritetləri və hədəfləri müəyyən edilməklə "Azərbaycan Respublikasının energetika sektorunun uzunmüddətli inkişaf Strategiyası"nın layihəsini on iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. elektroenergetika sektorunda rəqabətə əsaslanan liberal bazar modelinə mərhələli keçidlə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. ölkənin elektroenergetika sisteminin səmərəliliyinin artırılması məqsədi ilə bu sahəyə özəl investisiyaların cəlb edilməsi barədə təkliflərini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırmaqla altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. bərpa olunan enerji mənbələrindən istifadənin təşviq edilməsi, bu sahədə əlverişli investisiya mühitinin yaradılması və özəl sahibkarlıq fəaliyyətinin dəstəklənməsi tədbirlərinə dair təkliflərini hazırlayıb dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.5. ölkədə qaz və istilik təchizatı sistemlərinin səmərəliliyini artırmaq, istehlakçıların tələbatının etibarlı şəkildə ödənilməsini təmin etmək üçün bu sahələrdə islahatların aparılması ilə bağlı təkliflərini altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.6. bu Sərəncamdan irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədi ilə tanınmış beynəlxalq məsləhətçi şirkətlərin cəlb olunması üçün maliyyə təminatı məsələlərinin həllinə dair təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Energetika Nazirliyinin təklifləri əsasında:

2.1.1. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında", "Energetika və kommunal xidmətlər sahələrində tənzimləyici haqqında" Azərbaycan Respublikası qanunlarının layihələrini, habelə "Energetika haqqında" və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası qanunlarının yeni layihələrini hazırlayıb on iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. bu Sərəncamdan irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədi ilə tanınmış beynəlxalq məsləhətçi şirkətlərin cəlb olunması üçün maliyyə təminatı məsələlərini həll etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*

# M.D.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Maqsud Davud oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2019-cu il*

# Birinci vitse-prezident Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mayın 29-da "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüblər. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşildi Bakıda görməkdən məmnunluğunu bildirdi. Xatırladaq ki, bu ilin mart ayında Parisə səfəri çərçivəsində Mehriban Əliyeva David dö Rotşild ilə görüşü zamanı onu Bakıya dəvət etmişdi. Həmin səfər zamanı Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında strateji əməkdaşlıq haqqında saziş imzalanmışdı.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu dedi.

Söhbət zamanı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# "Azərbaycanın 7 möcüzəsi" televiziya layihəsinə start verilib

Mayın 28-də İçərişəhərdə IDEA İctimai Birliyi və "Nature and History Production"ın birgə dəstəyi ilə start verilən "Azərbaycanın 7 möcüzəsi" adlı yeni televiziya layihəsinin təqdimat mərasimi olub.











AZƏRTAC xəbər verir ki, Azərbaycanda ilk olan "Azərbaycanın 7 möcüzəsi" layihəsinin məqsədi cəmiyyətdə vətənpərvərlik hisslərini artırmaq, milli-mədəni və tarixi irsimizi qorumaq, Azərbaycan tarixinin mübahisəli və təhrif edilmiş faktlarını dövrün tarixi abidələri fonunda öyrənərək araşdırmaq, ölkəmizin ərazisində yerləşən tarixi, mədəni və təbii obyektlərin tanıdılmasına, qorunmasına və bərpa edilməsinə diqqət yönəltməkdir.

Həmçinin "Azərbaycanın 7 möcüzəsi" layihəsi ölkə daxilində və xaricində Azərbaycanın tarixi, mədəni və təbii incilərini tanıtmaqla yerli və xarici turizmin, eləcə də həmin ərazilərdəki infrastrukturun inkişafına təkan verməyi öz qarşısına məqsəd qoyub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, ictimai-siyasi xadimlərin, xarici səfirliklərin nümayəndələrinin, elm adamlarının, tanınmış mədəniyyət və incəsənət ustalarının, eləcə də digər peşə sahiblərinin qonaq olduğu tədbir çox maraqlı anlarla yadda qaldı. Xüsusi olaraq hazırlanan, layihənin mahiyyətini əks etdirən məkanın dekorasiyasında tariximizi əks etdirən atributlar, mənəvi dəyərlərimizi ifadə edən geyimlər xüsusi diqqət çəkdi. Bunlardan əlavə, məkanın interyerində hazırlanan qala maketi və üzərində insan təsvirlərinin əks olunduğu iri qaya daşları qonaqları məkana daxil olarkən tam fərqli hisslərə bürüyüb, keçmişə kökləyib.

Tədbirdə çıxış edən "Nature and History Production"ın rəhbəri Hikmət Nağdəliyev, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev layihə haqqında öz fikirlərini bölüşdülər.

Təqdimatın sonunda "www.yeddi.az" saytında "Azərbaycanın 7 möcüzəsi" layihəsinin səsverməsinə start verilib.

Tədbirə dəvət olunan qonaqlar daha sonra qədim musiqi alətlərindən ibarət ansamblın çıxışlarını dinləyiblər.

# Bakıda futbol coşqusu

*Əvvəli 1-ci səh.*

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutdu.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazanıblar.

Final oyununun möhtəşəm açılış mərasimində ingiltərəli DJ, bəstəkar və remikser Conas Blu Bakı Olimpiya Stadionuna toplaşan azarkeşlərə unudulmaz anlar yaşatdı. O, möhtəşəm mərasimdə 150 yerli rəqqasla birlikdə səhnəyə çıxdı.

Şərq ilə Qərbin qovuşduğu Bakıda təşkil olunan bu möhtəşəm mərasimdə Conas Blunun bənzərsiz ifası azarkeşlərin coşqulu alqışları ilə qarşılandı.

Əsrarəngiz xüsusi effektlər "Odlar Yurdu" üzərində səmanı işıqlandırdığı zaman DJ Blu özünün ən böyük hitlərinin miksini ifa etdi. Bu, tamaşaçılara müsbət enerji verməklə final oyununda mübarizə aparacaq hər iki komandaya da ehtiramın ifadəsi oldu.

Mərasimin ən yaddaqalan hissəsi Conas Blunun bənzərsiz ifasının sədaları altında "Çelsi" və "Arsenal" komandalarının nəhəng formalarının arenaya gətirilməsi oldu.

Açılış mərasimindən sonra turnirin kuboku arenaya gətirildi. Daha sonra "Arsenal" və "Çelsi" komandalarının futbolçuları meydana çıxdılar.

"Çelsi"nin fransalı hücumçusu Oliviye Jiru isə vurduğu qol sayəsində UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün ən məhsuldar futbolçusu olub. O, cari mövsümdə bu turnirdə 11 dəfə fərqlənib.

Final matçından sonra qaliblərin təntənəli mükafatlandırılması mərasimi keçirildi.




Qalib komandaya kuboku UEFA prezidenti Aleksandr Çeferin təqdim etdi.

Bununla da "Çelsi" 2012-2013-cü il mövsümündən sonra ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazandı. "Arsenal" isə ikinci dəfə UEFA Avropa Liqasının finalında məğlub oldu.

Qeyd edək ki, bu oyunla peşəkar futbolda 851-ci dəfə meydana çıxan "Arsenal"ın çexiyalı qapıçısı Petr Çex final görüşündən sonra karyerasını başa vurub.

Daha bir maraqlı məqam ondan ibarətdir ki, final qarşılaşması ilə əlaqədar tamaşaçı tutumu 70 min yerə çatdırılan Bakı Olimpiya Stadionu bu baxımdan UEFA Avropa Liqasının tarixində 20 illik rekordu yeniləyib. Bakı Olimpiya Stadionu bu göstərici üzrə UEFA Avropa Liqasının final matçına evsahibliyi edən stadionlar arasında ən çox tamaşaçı tutumuna malik arena olub. Belə ki, 1999-cu ildə "Parma" və "Marsel" komandaları Moskvanın 62 min tamaşaçı tutumuna malik "Lujniki" stadionunda üz-üzə gəliblər.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunub. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda ötən il dekabrın 22-dən bu il yanvarın 7-dək "UEFA Avropa Liqası Muzeyi" fəaliyyət göstərib.

Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start verilib. Martın 22-23-də Sevilya, martın 29-30-da Berlin, aprelin 5-6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olan kubok mayın 19-da Gəncədə, 21-də isə Cocuq Mərcanlıda nümayiş olunduqdan sonra Bakıya gətirilib.

UEFA Avropa Liqasının final qarşılaşması çərçivəsində keçirilən tədbirlərdən biri də martın 3-də "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma olub. Həmin oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza (Deku), Hamit Altıntop, Nihat Kahveci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçirilən final oyununun səfiri Vəli Qasımovun iştirakı ilə "Bakı 2019: Ulduzlar Finalı"nda "Qərb Ulduzları" və "Şərq Ulduzları" komandaları qarşılaşıblar.

UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya Stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycanın son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına - I Avropa, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə evsahibliyi etməsi Azərbaycanın idman dövləti olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara evsahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun, bu il iyulun 20-28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun göstəricisidir. İdmançılarımızın Olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq var. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.












# Qol yağışı

## "Çelsi" - "Arsenal" 4-1

*__Qollar:__ Oliviye Jiru, 49, Pedro, 60, Azar, 65 (pen.), 72 - İvobi, 69*

*__Baş hakim:__ Canluka Rokki (İtaliya)*

*Bakı Olimpiya Stadionu.*

***Mayın 29-da Azərbaycan daha bir əlamətdar idman hadisəsinin şahidi oldu. Paytaxtımız Avropanın nüfuzlu klub turnirlərindən UEFA Avropa Liqasının finalına evsahibliyi etdi. Həlledici qarşılaşmada İngiltərənin iki nəhəng komandası "Çelsi" və "Arsenal" komandaları üz-üzə gəldilər. Başqa sözlə, Bakıda London derbisi oynanıldı.***

***Qarşılaşmanın təhlilinə keçməzdən öncə vurğulayaq ki, paytaxtımızda əsl futbol bayramı yaşandı. Finalın təşkili Avropadan Bakıya gələn media təmsilçiləri, hər iki klubun azarkeşləri arasında böyük rəğbətlə qarşılandı, UEFA rəhbərliyinin qəlbində xoş hisslər oyatdı.***

Müxtəlif ölkələrin media orqanları final matçının təşkilini və gedişini şərh edir, komandalar və rəhbərlərinin, futbol mütəxəssislərinin rəylərini öyrənirdi. Mütəxəssislərin ümumi fikri belədir ki, Bakının evsahibliyi etdiyi Avroliqanın finalı qitənin həyatında tarixi futbol hadisəsi olaraq ən yüksək səviyyədə təşkil edildi, komandaların ədalətli mübarizəsi üçün hər cür şərait yaradıldı, möhtəşəm qarşılaşmaya evsahibliyi edən Azərbaycan hər cür təqdirə layiqdir.

Qeyd edək ki, matçdan öncə "Çelsi" rəqibindən fərqli, gələn mövsüm UEFA Çempionlar Liqasına vəsiqə qazandığından, "Arsenal" üçün Avropa Liqasının qalibi olmaq ikiqat əhəmiyyət kəsb edirdi. Çünki Unay Emerinin yetirmələri daxili çempionatı 5-ci pillədə başa vurduqlarından yalnız bu yolla növbəti mövsüm qitənin bir nömrəli klub turnirində iştirak hüququ qazanacaqdı. Eyni zamanda "Arsenal"ın ispaniyalı baş məşqçisi Emeri həm də tarixə düşə bilərdi. Belə ki, "Sevilya" (İspaniya) ilə 3 dəfə Avropa Liqasının qalibi olan mütəxəssis Bakıdan eyni nailiyyətlə ayrılsaydı, turnirin dördqat qalibi olmaqla yeni rekorda imza atacaqdı.

Hər iki komanda oyuna itkilərlə çıxmışdı. "Çelsi"də Ruben Loftus-Çek, Kallum Hadson-Odoi, Antonio Rüdiger və Etan Ampadu, "Arsenal"da isə Aaron Remsi, Denis Suares, Ektor Bellerin və Rob Holdinq komandalarına kömək edə bilmədilər.

Görüşün italiyalı baş hakimi Canluka Rokkinin start fitindən sonra komandalar oyuna ehtiyatlı başladılar. İlk 20 dəqiqə hücuma qoşulmaqda çətinlik çəkdilər. Meydançanın mərkəzində tətbiq edilən təzyiq top saxlamaqda və oyun qurmaqda hər iki tərəfə ciddi maneələr törətdi. Bir sözlə, tərəflərin oyuna daha sürətli başlayan, topa sahib olaraq, qısa ötürmələrlə rəqibin cərimə meydançası içərisinə daxil olmaq istəkləri alınmadı. Çünki hər iki komanda kollektiv oyun nümayiş etdirərək meydanın hər yerində mübarizə apararaq bir-birilərinə boş zona buraxmırdılar.

Lakin 25-ci dəqiqədən sonra tərəflər tədricən bu oyun üslubundan imtina etməyə başladılar. 28-ci dəqiqədə "Arsenal"ın hücumçusu Aleksandr Lyakezettin komanda yoldaşı Obameyanqın ideal hava ötürməsini başla dəqiq tamamlamasına son anda müdafiəçi mane oldu. Hücumu davam etdirən Qranit Xakanın qüvvətli zərbəsindən sonra top qapının azacıq üstündən keçdi. 34-cü dəqiqədə "Çelsi"nin heyətində Emersonun yaxın məsafədən vurduğu zərbəni qapıçı Petr Çex çətinliklə də olsa dəf edə bildi. Bunun ardınca komanda növbəti dəfə hesabı açmağa yaxın oldu. Oliviye Jirunun zərbəsindən sonra yenə də çexiyalı qapıçı komandasını qoldan xilas etdi.

Fasilədən sonra isə Bakı Olimpiya Stadionu qol yağışına şahid oldu. Oyunda üstünlüyü ələ alan "Çelsi" 49-cu dəqiqədə Jirunun baş zərbəsi ilə vurduğu qolla hesabı açdı. Qoldan sonra hesabı bərabərləşdirmək üçün irəli atılan "Arsenal"ın müdafiə xəttində ciddi boşluqlar yarandı. Bundan istifadə edən "Çelsi" 60-cı dəqiqədə Pedronun vurduğu qolla hesab arasındakı fərqi 2 topa çatdırdı.

"Arsenal" buraxdığı qolların şokundan özünə gəlməmiş 64-cü dəqiqədə Jiruya qarşı cərimə meydançası içərisində edilən kobudluğa görə qapısına 11 metrlik cərimə zərbəsi təyin edildi. Zərbəni dəqiq yerinə yetirən Azar hesabı 3:0-a çatdırdı. Bundan sonra irəli atılan "Arsenal" 69-cu dəqiqədə İvobinin qolu sayəsində hesab arasındakı fərqi azaltdı. Qoldan cəmi 3 dəqiqə sonra Azar vurduğu qolla "Çelsi"nin matçdakı üstünlüyünü 3 topa çatdırdı. Bundan sonra tərəflərin səylərinə baxmayaraq, görüşdə başqa qol olmadı.

Beləliklə, London derbisində 4:1 hesabı ilə qələbə qazanan "Arsenal" UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün qalibi oldu.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi, eləcə də rifah və xoşbəxtlik arzularımı çatdırıram.

Əmin ola bilərsiniz ki, Azərbaycan, Fransa və Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsini, xüsusilə Sizin və Birinci vitse-prezidentin, bildiyim qədər, yaxından diqqət yetirdiyiniz səhiyyə və ətraf mühit sahələrində qarşıya çıxan çətinliklərin aradan qaldırılması istiqamətində birgə təşəbbüslərimizin daha çox olmasını görmək arzusundayam.

Həmçinin icazə verin, Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə ədalətli və davamlı həllinə dair Fransanın qətiyyətli, tam və qərəzsiz öhdəliyini bir daha vurğulayım.

Cənab Prezident, məmnuniyyətlə Bakıda tezliklə yenidən görüşəcəyimizə ümid edir, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

---

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının müstəqilliyinin ildönümü münasibətilə zati-alinizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm. İran İslam Respublikası və Azərbaycan Respublikası iki qonşu dövlət kimi qədim ortaq tarixi, mədəni və dini dəyərlərə söykənərək Azərbaycan Respublikasının müstəqilliyindən sonra yüksəksəviyyəli əlaqələr və mehriban qonşuluq münasibətləri nümayiş etdirir, müxtəlif sahələrdə əməkdaşlığı dərinləşdirmək və genişləndirməklə iki xalqın rifahını və firavanlığını artırmağa, regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə töhfə verməyə qərarlıdırlar.

Qüdrətli Allahdan zati-alinizə cansağlığı və müvəffəqiyyət, Azərbaycan Respublikasının şərəfli xalqına səadət diləyirəm.

*Hörmətlə,*

***Həsən RUHANİ,***
***İran İslam Respublikasının Prezidenti***

---

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Sizdən Birləşmiş Ərəb Əmirlikləri xalqının bu bayram münasibətilə böyük fərəh hissi keçirdiyini dost xalqınıza çatdırmağınızı xahiş edirəm.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və davamlı uğurlar, dost Azərbaycan xalqına rifah və tərəqqi arzu edirəm.

Cənab Prezident, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Xəlifə bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

---

Hörmətli cənab Prezident!

Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını öz adımdan və Polşa xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycanı Polşa ilə tarixi əlaqələr, əməkdaşlıq, anlaşma və dostluq münasibətləri bağlayır. Polşa ilə Azərbaycan arasında həm siyasi, həm iqtisadi əlaqələrin daha da intensivləşəcəyinə ümid edirəm. Bizim əlaqələrimiz böyük potensiala malikdir. Ümidvaram ki, bu potensial gələcəkdə daha da inkişaf edəcək və reallaşacaqdır.

Möhtərəm cənab Prezident, ölkənizə və bütün Azərbaycan vətəndaşlarına uğur, sülh və hərtərəfli inkişaf arzu edirəm.

*Dərin hörmətlə,*

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Sizi Respublika Günü münasibətilə gürcü xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Məmnunluq hissi ilə vurğulamaq istərdim ki, Gürcüstan Azərbaycan Respublikası ilə dost münasibətlərin inkişafına böyük əhəmiyyət verir. Ümid edirəm ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq xalqlarımızın rifahı naminə gələcəkdə daha da inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Gürcüstanın Müstəqilliyi Günü münasibətilə göndərdiyiniz təbrikə görə Sizə öz minnətdarlığımı bildirirəm.

Zati-aliləri, bir daha Sizə ən dərin ehtiramımı ifadə edir və Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Müasir Azərbaycan dinamik inkişaf edən dövlət, etibarlı iqtisadi tərəfdaşdır.

Sanballı ictimai-siyasi dəyişikliklər, istehsal sektorunun əsaslı surətdə modernləşdirilməsi, ölkənizin beynəlxalq aləmdə nüfuzunun artması Sizin həyata keçirdiyiniz və ölkənin iqtisadi qüdrətinin, əhalinin səmərəli sosial müdafiəsinin təmin edilməsinə, müstəqil xarici siyasət yürüdülməsinə yönəlmiş kursun düzgün olduğunu əyani şəkildə təsdiq edir.

Əminəm ki, razılaşmaların praktiki reallaşması və Sizin dəstəyinizlə həyata keçirilən birgə layihələr ölkələrimizin potensialının daha da artırılmasına, Belarus və Azərbaycan xalqları arasında dostluq və qarşılıqlı yardım ənənələrinin möhkəmlənməsinə şərait yaradacaq.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və qarşıya qoyduğunuz məqsədlərə nail olmağınızı, qardaş Azərbaycanın əhalisinə isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə öz adımdan və Latviya xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq münasibətləri gələcək illərdə inkişaf edəcək, xalqlarımıza rifah və xoşbəxtlik gətirəcəkdir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Raymonds VEYONİS,***
***Latviya Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Möhtərəm cənab Prezident, əziz dostum.

Sizi Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təbrik edir, ölkənizin və xalqınızın rifahı naminə səmimi arzularımı çatdırıram.

Qarşılıqlı hörmət və anlaşmaya söykənən Serbiya-Azərbaycan münasibətlərini yüksək qiymətləndirir və əlaqələrimizin inkişafına verdiyim töhfələrdən məmnunluq duyuram. Əminəm ki, Sizin Serbiyaya gözlənilən səfəriniz xalqlarımızın rifahı naminə əməkdaşlıq əlaqələrimizin hərtərəfli güclənməsinə təkan verəcəkdir.

Azərbaycanın əldə etdiyi nailiyyətlərdən fərəhlənir və əminliklə bildirirəm ki, Sizin güclü liderliyiniz, qətiyyətli iradəniz, fədakar işiniz sayəsində ölkəniz bütün məqsədlərinə nail olacaqdır.

Ölkənizin Serbiyanın ərazi bütövlüyünə və suverenliyinə ardıcıl dəstəyinə və Kosovo məsələsində mövqeyinə görə minnətdarlığımı ifadə edirəm. Həmçinin Serbiya BMT-nin bütün üzv dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü prinsipiallıqla tanıyır, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün göstərilən səyləri dəstəkləyir.

Möhtərəm cənab Prezident, tezliklə Sizin səfərinizə ümid edir və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə öz adımdan və Xorvatiya Respublikasının vətəndaşları adından ən səmimi təbriklərimi çatdırır, dövlətinizə və vətəndaşlarınıza firavanlıq arzulayıram.

Xorvatiya Respublikası Azərbaycan Respublikası ilə dostluq və tərəfdaşlıq əlaqələrini yüksək dəyərləndirir. Mən əminəm ki, bizim bir çox sahələrdə sıx əlaqələrimiz və əməkdaşlığımız xalqlarımız arasındakı dostluğun və qarşılıqlı anlaşmanın daha da inkişaf etməsinə və güclənməsinə töhfə verəcəkdir.

İkitərəfli əməkdaşlığımızın və tərəfdaşlığımızın gücləndirilməsinə əlavə stimul vermiş Xorvatiyaya rəsmi səfərinizi məmnunluqla xatırlayıram. Nümayəndə heyətlərimiz arasındakı danışıqlar və müzakirələr zamanı vurğuladığımız kimi, Xorvatiya Respublikası ilə Azərbaycan Respublikası arasında energetika və iqtisadiyyatdan tutmuş mədəniyyət, elm, texnologiya və təhsilə qədər bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək üçün böyük imkanlar vardır. Ümidvaram ki, qarşıdakı illərdə Xorvatiya və Azərbaycan şirkətləri arasındakı əməkdaşlıq daha da inkişaf edəcəkdir.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***Kolinda Qrabar-KİTAROVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi, bütün Azərbaycan xalqına firavanlıq arzularımı çatdırmaq istərdim.

Bu xoş fürsətdən istifadə edərək əminliyimi bildirirəm ki, Rumıniya ilə Azərbaycan arasında möhkəm təməl üzərində qurulmuş strateji tərəfdaşlıq daha da genişlənəcək və dərinləşəcək.

Cənab Prezident, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Klaus Verner İOHANNİS,***
***Rumıniyanın Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və ölkənizin vətəndaşlarına İsveçrə Federal Şurası və İsveçrə xalqı adından ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Bu xoş fürsətdən istifadə edərək ali dövləti fəaliyyətinizdə Sizə yeni uğurlar, ölkənizə və xalqınıza daha parlaq gələcək arzu edirəm.

Bu il yanvarın 23-də Davos şəhərindəki görüşümüzü məmnuniyyətlə xatırlayıram. Həmin görüş zamanı ölkələrimiz arasındakı möhkəm dostluq münasibətlərini yenidən nəzərdən keçirmək imkanımız oldu. İsveçrə Konfederasiyası Azərbaycan Respublikası ilə sıx münasibətlərin qorunub saxlanılmasına sadiqliyini və bu istiqamətdə aparılan uğurlu fəaliyyətin hər iki dövlətin mənafeyi naminə davam edəcəyinə ümidvar olduğunu bildirir.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Ueli MAURER,***
***İsveçrə Konfederasiyasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, xahiş edirəm, Sizə yüksək ehtiramımı qəbul edin.

***Sauli NIİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

28 May - Respublika Günü münasibətilə Sizi Monteneqro xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edir, dost Azərbaycan xalqına və ölkənizə davamlı inkişaf və rifah arzulayıram.

Monteneqro ölkənizlə olan dostluq münasibətlərindən qürur duyur. Biz bu münasibətləri xalqlarımızın yaxınlaşması və ikitərəfli əlaqələrin daha da gücləndirilməsi üçün möhkəm təməl hesab edirik. Əminəm ki, möhkəm tərəfdaşlıq qurmağa yönəlmiş birgə səylərimiz Azərbaycan və Monteneqro arasında mövcud dialoqun möhkəmlənməsinə, eləcə də demokratiya və azadlıq kimi ümumbəşəri dəyərlərin təşviqi, iqtisadi inkişaf və vətəndaşlarımızın yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edən əməkdaşlığın genişlənməsinə davamlı stimul verəcək.

Müdrik rəhbərliyinizlə sabitliyini qoruyan dost Azərbaycanın hərtərəfli inkişaf yolunda yeni uğurlar qazanacağına əminəm.

Fürsətdən istifadə edərək yaxın gələcəkdə - qarşılıqlı razılaşdırılmış bir vaxtda Sizi Monteneqroya səfərə dəvət edirəm.

Ən dərin ehtiramımı və dost salamlarımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

---

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və qardaş Azərbaycan xalqına Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımızı və təbriklərimizi çatdırırıq.

Bu xoş fürsətdən istifadə edərək zati-aliləri, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqına davamlı tərəqqi və rifah, həmçinin ölkələrimizin ikitərəfli əlaqələrinin gələcək illərdə daha da inkişaf etməsini arzulayıram.

*Sizə ən yüksək ehtiramla,*

***Əlahəzrət şeyx Təmim bin Həməd Al TANİ,***
***Qətər Dövlətinin Əmiri***

---

Zati-aliləri!

Əziz Qardaşım!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırır, Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə Sizin rəhbərliyinizlə tərəqqi və firavanlıq arzu edirəm.

Bu xoş fürsətdən istifadə edərək xalqlarımız arasındakı möhkəm qardaşlıq əlaqələrinə, eləcə də ölkələrimiz arasındakı sıx əməkdaşlığa çox böyük dəyər verdiyimi bir daha qeyd etmək istəyirəm.

*Hörmətlə,*

***VI MOHAMMED,***
***Mərakeşin Kralı***

---

Hörmətli Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə və bütün Azərbaycan xalqına Vyetnam Hökuməti və xalqı adından ən xoş təbriklərimi çatdırmaq istəyirəm.

Cənab Prezident, Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın regionda və dünyada rolunun artmasından və mövqeyinin möhkəmlənməsindən, xalqınızın qazandığı böyük sosial-iqtisadi uğurlardan məmnunluq hissi keçiririk.

Vyetnam xalqlarımızın maraqları naminə ölkələrimizin liderləri və xalqları tərəfindən uzun illər ərzində yaradılmış və inkişaf etdirilmiş səmərəli əlaqələrimizi bütün sahələrdə hər zaman təqdir edərək gücləndirmək niyyətindədir.

Son zamanlar Vyetnam-Azərbaycan əməkdaşlığının nəticələrini yüksək qiymətləndirirəm. Mən tam əminəm ki, ölkələrimizin liderlərinin güclü siyasi iradəsi və birgə səyləri sayəsində Vyetnamla Azərbaycan arasındakı dostluq münasibətləri və əməkdaşlıq ölkələrimizin inkişafına, bölgədə və dünyada sülhə, sabitliyə və rifaha əhəmiyyətli dərəcədə töhfə verməklə səmərəli şəkildə genişləndiriləcəkdir.

Mən Azərbaycanın daim firavan olmasını arzulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Nquyen Fu ÇONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi salamlarımı və təbriklərimi çatdırıram.

Əminəm ki, müxtəlif sahələrdə qarşılıqlı əlaqələrimiz və əməkdaşlığımız gələcək illərdə birgə səylərimizlə daha da güclənəcək, xalqlarımıza fayda gətirəcəkdir.

Sizə və Azərbaycan xalqına xoşbəxtlik arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Coko VİDODO,***
***İndoneziya Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, ölkənizin hökumətinə və xalqına Şri-Lanka hökuməti və xalqı adından səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Səmimi-qəlbdən ümid edirəm ki, ölkələrimiz arasında mövcud olan dostluq və sıx əməkdaşlıq münasibətləri xalqlarımızın qarşılıqlı mənafeyi naminə gələcək illərdə daha da möhkəmlənəcək.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, şəxsi rifah, Azərbaycan Respublikasının xalqına isə davamlı tərəqqi və firavanlıq arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Maytripala SİRİSENA,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi, Azərbaycan xalqını Keniya Hökuməti və xalqı adından səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

Bu əlamətdar gündə ölkələrimiz arasında mövcud olan xoş və səmimi münasibətləri qeyd etmək istərdim. İkitərəfli münasibətlərin inkişafına, xüsusilə təhsil, ticarət və iqtisadi sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə yönəlmiş səyləri yüksək qiymətləndirirəm.

Xalqlarımızın qarşılıqlı mənafeyi naminə ölkələrimiz arasında daha yaxın birgə fəaliyyətin həyata keçirilməsini arzu edirəm.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı rifah arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Uhuru KENYATTA,***
***Keniya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə, Sizin şəxsinizdə hökumətinizə və qardaş Azərbaycan xalqına Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm. Bu bayramın Sizə, ölkənizə və xalqınıza daha çox tərəqqi, rifah bəxş etməsini diləyirəm. Ölkələrimizi və xalqlarımızı birləşdirən güclü həmrəylik və qardaşlıq əlaqələrimizlə fəxr edirəm. Ölkələrimiz və xalqlarımızın qarşılıqlı maraq və mənafeləri üçün bu əlaqələri inkişaf etdirmək, yeni üfüqlər açmaq və qarşılıqlı əməkdaşlıq yollarını gücləndirmək hər zaman bizim diqqət mərkəzimizdə olacaqdır.

Xahiş edirəm, ən xoş təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti,***
***Fələstin Azadlıq Təşkilatı İcraiyyə komitəsinin sədri***

---

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə müdrik rəhbərliyinizlə davamlı tərəqqi və rifah arzu edirəm.

*Dərin hörmət və ehtiramla,*

***Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti,***
***Baş naziri və Dubayın hökmdarı***

---

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və dost xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə müdrik rəhbərliyinizlə davamlı inkişaf və rifah arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Əbu-Dabinin vəliəhdi, Silahlı Qüvvələrin***
***Ali Baş Komandanının müavini***

---

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi salamlarımı və təbriklərimi çatdırmaqdan məmnunluq hissi duyuram.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Ən yüksək ehtiramla,*

***Abdullah bin Həməd Al TANİ,***
***Qətər Dövləti Əmirinin müavini***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Bu gün Azərbaycan inkişaf və quruculuq yolunda inamla irəliləyir, öz iqtisadi və turizm potensialını fəal surətdə reallaşdırır, ən yüksəksəviyyəli beynəlxalq tədbirləri uğurla keçirir.

Həyatın bir sıra sahələrində sanballı nəticələr əldə etmiş respublikanız öz zəngin və bənzərsiz mədəniyyətini qoruyub saxlayır, xalqlarımızın çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrini zənginləşdirir.

Dağıstan ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsinə böyük şəxsi töhfənizə görə Sizə təşəkkür edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq, Azərbaycan xalqına isə sülh, rifah və tərəqqi arzularımı qəbul edin.

*Dərin hörmətlə,*

***Vladimir VASİLYEV,***
***Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu əlamətdar gündə Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, bolluq, sülh və firavanlıq, Sizin gözəl diyarınıza isə daha böyük iqtisadi tərəqqi, yaxşı ənənələrin qorunub saxlanılmasını və zənginləşdirilməsini, mədəni-mənəvi inkişaf arzu edirəm.

Azərbaycan Respublikasının rifahı naminə bütün işlərinizdə və təşəbbüslərinizdə Sizə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Yunusbek YEVKUROV,***
***Rusiya Federasiyasının İnquş Respublikasının rəhbəri***

---

Çox hörmətli cənab Prezident!

İcazə verin, Respublika Günü münasibətilə şəxsən Sizi və bütün qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edim.

Müasir Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Sizin müdrik rəhbərliyiniz və parlaq diplomatik istedadınız sayəsində respublika regional səviyyədə öz liderliyini ildən-ilə möhkəmləndirir, beynəlxalq arenada mövqeyini yüksəldir. Multikulturalizm nümunəsi olan Azərbaycan dünyada vəziyyətin sabitləşməsində mühüm rol oynayır. Bu baxımdan, ölkənizin Rusiya ilə strateji xarakter daşıyan və xalqlarımızın bütün tarixi ərzində planlı şəkildə inkişaf edən qədim dostluq əlaqələrini xüsusi qeyd etmək istərdim.

Bu əlamətdar gündə şəxsən Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və tükənməz enerji, səmərəli dövləti fəaliyyətinizdə yeni parlaq uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı,***
***Rusiya-Azərbaycan Parlamentlərarası***
***Dostluq Qrupunun rəhbəri***

---

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, Sizi milli bayramınız - Respublika Günü münasibətilə ürəkdən təbrik edim, ali dövləti fəaliyyətinizdə, Azərbaycanın hərtərəfli inkişafı və rifahı naminə işlərinizdə uğurlar diləyim.

*Dərin hörmətlə,*

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

---

Zati-aliləri cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Katibliyi adından və şəxsən öz adımdan böyük məmnuniyyət hissi ilə ən səmimi təbriklərimi çatdırıram.

Bir əsr bundan əvvəl mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Şərqdə və türk dünyasında demokratik dəyərlərə söykənən ilk respublikanın yaradılması ilə əlamətdar olmuşdur. Cümhuriyyətin yaradılması Azərbaycan xalqının müstəqillik əzmini nümayiş etdirərək onun həyatında yeni bir mərhələ və mühüm tarixi hadisə olmuşdur. Yeni tarixi şəraitdə dövlət müstəqilliyinin bərpasından sonra müasir Azərbaycanın memarı Heydər Əliyevin rəhbərliyi ilə respublika öz müstəqilliyini və suverenliyini möhkəmləndirməyə nail olmuş, dövlətçiliyin qorunması üçün qətiyyətli addımlar atılmışdır. Hazırda ulu öndərin davamçısı zati-alinizin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və ardıcıl siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz yerini tutmuş və ölkədə demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilməkdədir.

Təşkilatımıza daim göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı ifadə edir və inanıram ki, Sizin hərtərəfli dəstək və töhfələriniz sayəsində türkdilli ölkələr arasında əməkdaşlıq genişlənərək daha da inkişaf edəcəkdir.

Eləcə də qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ən xoş arzularımı və təbriklərimi qəbul etməyinizi zati-alinizdən xahiş edir və bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına sülh, sabitlik, tərəqqi və rifah arzu edirəm.

*Yüksək hörmət və ehtiramla,*

***Altınbek MAMAYUSUPOV,***
***Türkdilli Ölkələrin Parlament Assambleyasının Baş katibi***

---

Möhtərəm cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Katibliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə Şərqdə Türk və İslam dünyasının ilk demokratik respublikasının qurulması Azərbaycan xalqının şanlı tarixində dönüş nöqtəsi olmaqla yanaşı, digər xalqlar üçün də örnək olmuşdur.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası zati-alinizin Türk Şurasının fəaliyyətinə verdiyi dəstəyi və yardımı yüksək qiymətləndirir. Əmin ola bilərsiniz ki, Türk Şurası Azərbaycan Respublikası ilə digər türkdilli dövlətlər arasında çoxtərəfli əlaqələri daha da inkişaf etdirəcək, bölgəmizdə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün bundan sonra da səy göstərəcəkdir.

Fürsətdən istifadə edərək bu tarixi və əlamətdar gün münasibətilə zati-alinizə ən xoş arzularımı çatdırır, Azərbaycan xalqına isə rifah, firavanlıq və xoşbəxtlik diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

***Bağdad AMREYEV,***
***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi***

---

Möhtərəm cənab Prezident!

Azərbaycanımızın 28 May - Respublika Günü münasibətilə Sizi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından ürəkdən təbrik edirəm.

Bu gün biz türk dünyasının ayrılmaz parçası olan Azərbaycanın bütün sahələrdə böyük inkişafına, Sizin rəhbərliyinizlə ölkənin bütün şəhər və bölgələrində, o cümlədən Dağlıq Qarabağdakı torpaqların geri qaytarılacağının rəmzi olan Cocuq Mərcanlıda xalqın rifahı naminə aparılan quruculuq işlərinə sevinir və bununla fəxr edirik.

İnanıram ki, türkdilli ölkələr arasında mövcud olan əməkdaşlıq Sizin hərtərəfli dəstəyiniz sayəsində daha da inkişaf edəcək və güclənəcəkdir. Sizin təşəbbüsünüzlə yaradılan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu bir beynəlxalq təşkilat kimi hər zaman ortaq dəyərlərimizin qorunması və dünyada təbliğ olunması istiqamətində səylərini davam etdirəcəkdir.

Fürsətdən istifadə edərək zati-alinizə cansağlığı, Azərbaycanın inkişafı və tərəqqisi naminə fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan hər il mayın 28-də öz tarixində ən parlaq və əlamətdar günlərdən birini - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması gününü qeyd edir.

Ölkəniz sosial-iqtisadi, elmi-texniki və mədəni inkişaf yolunda inamla irəliləyir. Sizin müdrik siyasətiniz, uzaqgörənliyiniz və geniş təfəkkürünüz sayəsində bu gün Azərbaycan Respublikası dünya arenasında nüfuzu ilbəil artan, dinamik inkişaf edən dövlətdir.

Bu bayram günündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, sülh, firavanlıq və Azərbaycan Respublikasının rifahı naminə bundan sonrakı fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Əlişir USMANOV,***
***Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti***

---

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkəti kollektivinin və şəxsən mənim ən səmimi təbriklərimi qəbul edin.

Möhtərəm cənab Prezident, icazə verin, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ruh yüksəkliyi, ali dövləti fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan Respublikasının xalqına isə firavanlıq, sülh və rifah arzularımı bildirim. Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti Azərbaycanın həyatını və orada baş verən hadisələri bundan sonra da maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaqdır.

*Səmimi hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

# Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illiyi və Respublika Günü Romada da qeyd olunub

Azərbaycanın İtaliyadakı səfirliyi tərəfindən Romada 28 May - Respublika Günü və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi münasibətilə rəsmi ziyafət təşkil olunub.



AZƏRTAC xəbər verir ki, tədbirdə İtaliyanın dövlət rəsmiləri, xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Emanuela Del Re, dövlət idarəçiliyi üzrə dövlət katibi Mattia Fantinati, Deputatlar Palatası sədrinin müavini Ettore Rosato, Xarici İşlər Nazirliyinin baş katibi Elisabetta Belloni, İtaliya Respublikası Prezidentinin Katibliyinin rəhbəri Simone Querrini, İtaliya Respublikası Prezidentinin diplomatik müşaviri Emanuela D'Alessandra, İtaliya Respublikası Prezidentinin informasiya məsələləri üzrə müşaviri Canfranko Astori, Senatın xarici əlaqələr daimi komissiyasının sədri Vito Petroçelli, Senatın ədliyyə daimi komissiyasının sədri Andrea Ostellari də daxil olmaqla çoxsaylı parlamentarilər, dövlət qurumlarının rəhbər şəxsləri, ölkədə akkreditə olunan diplomatik korpusun üzvləri, kütləvi informasiya vasitələrinin təmsilçiləri, İtaliyanın işgüzar, elmi, akademik, mədəniyyət, incəsənət dairələrinin nümayəndələri, o cümlədən məşhur müğənni Albano Karrisi, Oskar mükafatçısı, rejissor və ssenarist Cianni Kuaranta və tanınmış maestro Alvise Kasellati iştirak ediblər.

Tədbirə İtaliyada səfərdə olan Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də qatılıb.

Əvvəlcə İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən ölkəmizin İtaliyadakı səfiri Məmməd Əhmədzadə 28 May-Respublika Gününün Azərbaycan tarixindəki önəmini vurğulayıb, bu il bu bayramla Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyinin birgə qeyd olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Müstəqillik illərində ölkəmizin əldə etdiyi nailiyyətlərdən, xarici siyasətin uğurlarından bəhs edən diplomat Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın mövcud olduğunu bildirib. Qeyd edib ki, son illərdə həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadiyyat, xüsusilə də enerji sahəsində əməkdaşlığın genişlənməsində xüsusi rol oynayıb. Bildirilib ki, bu günlərdə qədim Romanın Fori İmperiali ərazisində Azərbaycan hökumətinin dəstəyi ilə aparılan arxeoloji qazıntı işləri nəticəsində eramızın I-II əsrinə aid aşkarlanan önəmli tapıntı iki ölkə arasında mədəniyyət sahəsində sıx əlaqələrin mövcudluğunun göstəricisidir.

İtaliya hökuməti adından çıxış edən xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Emanuela Del Re müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixi önəmindən, İtaliya ilə qurduğu diplomatik təmaslardan danışıb. O, Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra iki ölkə arasında münasibətlərin daim inkişaf etdirildiyini, əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldildiyini deyib. Nazir müavini ötən il İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycana dövlət səfərinin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın İtaliyaya rəsmi səfərinin əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsi olduğunu bildirib.

Ölkələrimiz arasında geniş iqtisadi gündəliyin olduğunu vurğulayan Emanuela Del Re İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı, Azərbaycanın isə İtaliyanın ən böyük xam neft və ikinci ən böyük enerji təchizatçısı olduğunu deyib. O, "Cənub qaz dəhlizi"nin bir hissəsi olan Transadriatik boru kəmərinin strateji önəmini və enerji təhlükəsizliyinin təmin olunmasındakı əhəmiyyətini xüsusi vurğulayıb.

Nazir müavini Azərbaycan və İtaliya arasında mədəniyyət sahəsində də sıx mübadilələrin həyata keçirildiyini bildirərək Azərbaycan hökuməti tərəfindən İtaliyanın maddi-mədəni irsinin qorunmasına göstərilən dəstəyi və bunun nəticələrini yüksək qiymətləndirib.

Ölkəmizin regional təhlükəsizlik və əməkdaşlıqdakı önəmli rolunu qeyd edən Emanuela Del Re Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də nizamlanmamasının narahatlıq doğurduğunu, münaqişənin yaratdığı ağır humanitar fəsadların təəssüfedici olduğunu, İtaliyanın ötən il ATƏT-in fəaliyyətdə olan sədri kimi danışıqlar prosesinə töhfə verməyə çalışdığını, problemin həllinin Ermənistan və Azərbaycan arasında dialoqdan keçdiyini və buna ölkəsinin töhfə verməyə hazır olduğunu söyləyib. Bir neçə il əvvəl Azərbaycanda səfərdə olduğunu, Azərbaycan mədəniyyətinə, ənənələrinə heyran olduğunu, özünü ölkəmizin yaxın dostu hesab etdiyini söyləyən nazir müavini Emanuela Del Re İtaliya hökuməti adından 28 May-Respublika Günü və diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi münasibətilə Azərbaycan xalqını və azərbaycanlı həmkarlarını təbrik edib.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin tarixindəki yeri, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra keçdiyi inkişaf yolu, ölkəmizin xarici siyasət istiqamətləri və prioritetləri, əldə olunmuş nailiyyətlərə toxunub. Şöbə müdiri Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə istinad edərək bildirib ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın iştirakı ilə həyata keçirilən beynəlxalq və regional enerji, nəqliyyat layihələrindən bəhs edən Hikmət Hacıyev ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən danışıb, həmçinin regional təhlükəsizliyə olan təhdidlərə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunub.

Ölkələrimiz arasında yaxın dostluq əlaqələrinin, yüksək səviyyəli siyasi dialoqun və sıx əməkdaşlığın mövcud olduğunu bildirən Hikmət Hacıyev İtaliyanı Azərbaycanın Avropa İttifaqında ən yaxın tərəfdaşlarından biri kimi səciyyələndirib. Şöbə müdiri ölkələrimiz arasında iqtisadiyyat, enerji və mədəniyyət sahələrində həyata keçirilən layihələrin, o cümlədən Transadriatik boru kəmərinin istifadəyə verilməsinin xalqlarımızı növbəti onilliklərdə bir-birinə daha da sıx bağlayacağını deyib.

Tədbirdə İtaliyanın məşhur Santa Çeçilia Musiqi Akademiyasının tələbəsi, çoxsaylı beynəlxalq müsabiqələrin qalibi, pianoçu Müşfiq Quliyevin ifasında Azərbaycan bəstəkarlarının musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

❖ ❖ ❖

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyaya səfəri çərçivəsində Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi münasibətilə Romada təşkil olunmuş elmi-akademik tədbirlərdə çıxış edib.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixinə nəzər salaraq həmin dövrdə atılmış mühüm addımlardan, ölkəmizin dövlət müstəqilliyini bərpa etdikdən sonra keçdiyi tarixi yol və inkişaf strategiyasından bəhs edib.

İtaliyanın beynəlxalq münasibətlər sahəsi üzrə ixtisaslaşmış aparıcı beyin mərkəzlərindən olan İtaliya Beynəlxalq Təşkilat Cəmiyyətində (SIOI - Societ Italiana per l'Organizzazione Internazionale) "Azərbaycanın xarici siyasəti: imkanlar və çağırışlar" adlı konfransında İtaliyanın sabiq xarici işlər naziri və SIOI-nin prezidenti Franko Frattini Azərbaycanın regionda sülh və sabitliyin qorunub saxlanılmasına verdiyi töhfələrdən, əldə etdiyi nailiyyətlərdən bəhs edib, ölkəmizin multikulturalizm nümunəsi kimi artan rolundan danışıb.

Azərbaycan ilə İtaliya arasında yüksək səviyyəli siyasi dialoq, strateji tərəfdaşlıqdan söz açan F.Frattini mövcud siyasi, iqtisadi, mədəni və digər sahələrdə çoxşaxəli əlaqələrə toxunub.

Tədbirdə çıxış edən Hikmət Hacıyev Azərbaycanın xarici siyasət istiqamətləri və prioritetləri, əldə olunmuş nailiyyətlər, ölkəmizin iştirakı ilə həyata keçirilən beynəlxalq və regional enerji və nəqliyyat layihələri və təşəbbüslərdən söz açaraq ölkəmizin regional səviyyədə siyasi dialoqa, iqtisadi inkişafa, əməkdaşlığa, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən danışıb. Çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan H.Hacıyev ölkəmizin prinsipial mövqeyini iştirakçıların diqqətinə çatdırıb.

Konfrans sual-cavabla davam etdirilib.

H.Hacıyev habelə İtaliyanın aparıcı universitetlərindən olan Roma Sapienza Universitetində Azərbaycanşünaslıq fəaliyyətinin rəhbəri, professor Daniel Pommierin müəllifi olduğu "Azərbaycanın beynəlxalq tarixi (1919-1920)" adlı kitabın təqdimat mərasimində də çıxış edərək, Azərbaycan diplomatiyasının keçdiyi tarixi yol, ölkəmizin xarici siyasətinin prioritetləri barədə məlumat verib.

Kitab Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) və Roma Sapienza Universitetinin birgə əməkdaşlığı nəticəsində ərsəyə gəlib və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə çap olunub. Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin 1919-1920-ci illəri əhatə edən xarici siyasəti, həmin dövr ərzində Azərbaycan nümayəndə heyətinin Paris Beynəlxalq Sülh Konfransında iştirakı və həmin illərdə Azərbaycan-İtaliya münasibətlərindən bəhs olunur.

Tədbirdə, eləcə də Roma Sapienza Fondunun sədri Antonello Biagini, universitetin professorları Giovanna Motta, Fabio Grassi və kitabın müəllifi Daniel Pommier Vincelli də çıxış ediblər.

❖ ❖ ❖

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyaya səfəri çərçivəsində İtaliya Respublikası Prezidentinin diplomatik müşaviri səfir Emanuela D'Alessandro, Baş nazirin diplomatik müşaviri səfir Pietro Benassi və Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin Siyasi Məsələlər və Təhlükəsizlik Baş Direktorluğunun rəhbəri səfir Sebastiano Kardi ilə görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, görüşlərdə iki ölkə arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq, ötən müddətdə həyata keçirilmiş yüksək səviyyəli qarşılıqlı səfərlərin ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmlənməsinə, əməkdaşlığın bütün istiqamətlərdə genişlənməsinə töhfə verdiyi bildirilib. Qarşılıqlı səfərlərin dinamikasının davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ilə İtaliya arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə səmərəli əməkdaşlığın mövcudluğundan, İtaliyanın Azərbaycanın ən böyük ticarət tərəfdaşı, ölkəmizin isə İtaliyanın ən böyük xam neft təchizatçısı olmasından söz açılaraq növbəti illərdə bu əlaqələrin daha da inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Habelə görüşlərdə "Cənub qaz dəhlizi"nin strateji əhəmiyyəti, bu dəhlizin tərkib hissəsi olan Transadriatik Boru Kəmərinin tikintisi ilə bağlı işlərin razılaşdırılmış qrafik üzrə vaxtında yekunlaşdırılmasının vacibliyi vurğulanaraq, bu boru kəmərinin istismara verilməsinin iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə əlavə töhfə verəcəyi qeyd olunub. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan Hikmət Hacıyev münaqişənin nizamlanması üzrə aparılan danışıqların cari vəziyyəti barədə məlumat verərək bu məsələdə ölkəmizin prinsipial mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Görüşlərdə habelə regional məsələlər, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı, bu xüsusda İtaliyanın töhfələri, ölkəmizin transmilli nəqliyyat dəhlizlərinin inkişafında rolu, Azərbaycan və İtaliya arasında humanitar sahədə əməkdaşlıq və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında da fikir mübadiləsi aparılıb.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN İYUN AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 10 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 18 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 24 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 4 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 3 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 13 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 12 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 24 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 27 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 11 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 19 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 20 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 7 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 20 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 3 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 4 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 21 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 11 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 24 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 7 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

**Telefonlar:** (012) 510-99-38, (012) 510-89-14, (012) 492-74-05

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# Heydər Əliyev Fondu növbəti iftar süfrələrini Ağdamda, Ağcabədidə və Goranboyda açıb







Heydər Əliyev Fondu ramazan ayı münasibətilə növbəti iftar süfrəsini mayın 27-də Ağdam rayonunun Quzanlı qəsəbəsində açıb.

AZƏRTAC xəbər verir ki, iftar süfrəsində rayon sakinləri - oruc tutanlar, din xadimləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri və imkansız ailədən olan insanlar, həmçinin "N" saylı hərbi hissənin əsgərləri iştirak edib.

İftar mərasimində çıxış edənlər ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan, dini mərasimlərin keçirilməsinə yaradılan şəraitdən, ramazan ayının əhəmiyyətindən danışıb, milli-mənəvi həmrəyliyin, saflıq və mərhəmət rəmzi olan bu ayda Allahdan xalqımıza əmin-amanlıq, işğal altında olan bütün torpaqlarımızın tezliklə azad olunmasını, o torpaqlarda da dini ayinlərin icra edilməsini və iftar süfrələrinin açılmasını diləyiblər.

Bildirilib ki, Azərbaycanda islam dəyərlərinə böyük hörmət bəslənilir. Həmrəylik, dostluq-qardaşlıq, sevgi və mərhəmət ayı hesab olunan ramazan ayı digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da sevinclə qeyd edilir. Təşkil olunan iftar süfrələri ölkəmizdə hökm sürən ənənəvi tolerantlığı və xalqımızın sıx birliyini nümayiş etdirir.

İftar mərasimində "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ramazan ayının fəzilətləri barədə söhbət açılıb.

❖ ❖ ❖

Heydər Əliyev Fondu ramazan ayı münasibətilə mayın 28-də Ağcabədidə və Goranboyda iftar süfrələri təşkil edib.

İftar süfrələrində oruc tutanlar, din xadimləri, şəhid ailələrinin üzvləri, Qarabağ müharibəsi əlilləri, məcburi köçkün və imkansız ailələrdən olan şəxslər iştirak ediblər.

İftar mərasimlərində din xadimləri tərəfindən müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ramazan ayının fəzilətləri barədə söhbət açılıb. Milli-mənəvi həmrəyliyin, saflıq və mərhəmətin rəmzi olan bu ayda xalqımıza əmin-amanlıq, ruzi-bərəkət arzulanıb.

Çıxışlarda Prezident İlham Əliyevin rəhbərliyi və birinci xanım Mehriban Əliyevanın dəstəyi ilə ölkəmizdə görülən işlərdən, milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğıdan, dini mərasimlərin keçirilməsinə yaradılan şəraitdən, bütün dünyaya nümunə olacaq tolerantlıq mühitindən danışılıb. Birlik və sabitliyin hökm sürdüyü ölkəmizdə bütün din və təriqətlərin nümayəndələrinin dostluq-qardaşlıq şəraitində yaşadıqları, dini məbədlərin təmir və bərpa olunduğu, islami və milli-mənəvi dəyərlərin qorunduğu diqqətə çatdırılıb. Bildirilib ki, mübarək ramazan günlərində iftar süfrəsinin təşkil edilməsi də cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsidir.

Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən ramazan ayı ərzində bir sıra rayonlarda iftar süfrələri təşkil olunur.

# Ermənistan ordusu sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Kəngərli, Mərzili, Füzuli rayonunun Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## İnkişafın yeni hədəfləri

# Elm və təhsil: gələcəyə aparan yol

Müasir dövrdə müstəqil Azərbaycan dövləti enerji sahəsində böyük layihələri həyata keçirərək dünya xəritəsində özünə layiq yer tutdu. Enerji sektoru ilə bərabər Azərbaycanda digər istiqamətlərin inkişafına da xüsusi diqqət verilir. Bu gün ölkəmizin qarşısında daha yüksək inkişaf səviyyəsinə nail olmaq vəzifəsi durur. Bunun üçün mühüm məsələlərdən biri digər sahələrlə bərabər elm və təhsilin inkişafıdır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən yaradılmış və Prezident İlham Əliyev tərəfindən yeni nəfəs gətirilərək uğurla həyata keçirilən müstəqil Azərbaycanın dövlət siyasətinin kökündə elmi prinsiplər öz yerini tapmışdır. Bu prinsiplər akademik Ramiz Mehdiyevin bir çox əsərlərində öz əksini tapmış, geniş izah olunmuş və göstərilmişdir ki, hər bir dövlətin uğurlu dövlət siyasəti elmi prinsiplərə söykənməlidir.

Prezident İlham Əliyevin irəli sürdüyü "Neft kapitalını insan kapitalına çevirək" tezisinin uğurla həyata keçirilməsi üçün "...elmdə, təhsildə və intellektual fəaliyyətin bütün sahələrində əhəmiyyətli dönüşə nail olunması və əldə edilmiş biliklərin əsasında ölkənin iqtisadiyyatının gücləndirilməsi zəruridir".

## Elmi inkişafın əsasları və maliyyələşməsi

Müasir dünyada elm əsasən dövlət büdcəsindən maliyyələşir. Amma son illər dünyanın böyük korporasiyaları APPLE, MERCEDES, SONY, SAMSUNG, HUAWEY və digərləri elm sahəsinə böyük yatırımlar edərək ciddi qazanc əldə edirlər və istedadlı gənclər üçün elm, təhsil sahəsində xüsusi təqaüdlər və mükafatlar təsis etmişlər.

Bu gün informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru dünyanın ən çox gəlir gətirən sahəsidir və onun həcmi 5,5 trln. ABŞ dolları miqyasında qiymətləndirilir. Artıq bu sahə enerji və bank sektorunu geridə qoyub. Son illər sürətlə inkişaf edən Sinqapur, Finlandiya, Danimarka, Çin və digər aparıcı ölkələrin iqtisadiyyatında İKT sektoru xüsusi yer tutur və ona ciddi diqqət verilir. Bu sahənin əsaslarını elmi nəaliyyətlər və keyfiyyətli təhsil təşkil edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Azərbaycanda 2013-cü ili "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan etmişdi.

ABŞ-ın qurucularından biri olan Abraham Linkoln demişdi: "Dövlətin vəzifəsi yalnız varlığını sürdürmək deyil". O hesab edirdi ki, "...yeni və faydalı kəşflər üçün düha ocağının alovlanmasını təmin edən yeni mənəvi yanacaq əlavə olunmalıdır". Təbii ki, belə bir yanacaq kimi elm nəzərdə tutulurdu və dövlət əhəmiyyətli layihələr məhz Milli Elmlər Akademiyaları vasitəsilə həyata keçirilməlidir. Məhz onun təşəbbüsü ilə 1863-cü ildə Amerikanın Milli Elmlər Akademiyası təsis edilmişdi və bu gün ABŞ-ın inkişafında xüsusi rol oynayır. Hazırda çox ölkələrdə aktiv fəaliyyət göstərən elmlər akademiyaları mövcuddur. Gündən-günə möhkəmlənən Rusiya Elmlər Akademiyası, Ukrayna Milli Elmlər Akademiyası, Çinin inkişafında xüsusi rol oynamış Çin Xalq Respublikası Elmlər Akademiyası, Fransa Elmlər Akademiyası (Ölməzlər Akademiyası) və başqalarını misal göstərmək olar. 1666-cı ildə yaranan Fransa Elmlər Akademiyası yarandığı gündən dövlətin himayəsindədir. Bir müddət öncə Almaniyada Milli Elmlər Akademiyası təsis edildi. Amerika Milli Elmlər Akademiyasını "millətin elm, texnika və tibb sahəsində müşaviri-məsləhətçisi" adlandırırlar. Bu qurum kifayət qədər elmi nüfuzu olan təşkilat hesab edilir və dövlət büdcəsindən maliyyələşir. Həmin maliyyə akademiya tərəfindən elmi mərkəzlərə qrant şəklində paylanır.

Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) növbəti illik iclası keçirildi. Son illər AMEA-nın fəaliyyətində böyük müsbət dəyişikliklər baş verir. AMEA-nın Prezidenti, akademik Akif Əlizadənin hesabatında bu dəyişikliklər haqda və son illərdə akademiyanın əldə etdiyi uğurlara və qarşıda duran mühüm məsələlərə geniş yer ayrıldı. Azərbaycanda elmin qarşısında böyük hədəflər durur və öncə elm dövlətin inkişafına xidmət etməlidir. Dövlət büdcəsindən maliyyələşən AMEA ona ayrılan vəsaitə uyğun olaraq bir çox dövlət əhəmiyyətli layihələri həyata keçirməlidir. Belə qayda bu gün bir çox inkişaf etmiş ölkələrdə müşahidə olunur. Dövlət proqramlarının həyata keçirilməsi üçün qrant formasında maliyyə ayrılır.

Bir neçə il bundan əvvəl ABŞ-da yaşayan dünyanın aparıcı alimlərinin birindən soruşdum: "ABŞ-da alimlər sadəcə istədikləri mövzularlamı məşğul olurlar?" Cavab belə oldu: "Əgər Amerikada hər bir alim sadəcə istədiyi mövzu ilə məşğul olsaydı, o zaman ABŞ dünyanın ən qüdrətli ölkəsi olmazdı". Hər bir aparıcı alim orada əsasən dövlət əhəmiyyətli layihələri həyata keçirir və dövlət belə proqramlara qrantlar ayırır. ABŞ-ın xüsusi Elmi Doktrinası var və o doktrinaya uyğun olaraq elm dövlətə xidmət edir.

*Bu gün Azərbaycanda Elmi Doktrinanın yaradılmasına ehtiyac var.* Doktrina dövlət əhəmiyyətli proqramların həyata keçirilməsinə və dövlət üçün əhəmiyyətli olan yeni sahələrin inkişafına yönəldilməlidir. Dövlət elmin hər bir sahəsinə deyil, onun inkişafına yönəldilən yeni perspektiv sahələrə vəsait ayırmalıdır. Belə siyasət dünyanın inkişaf etmiş ölkələrində müşahidə olunur. Məsələn, riyazi iqtisadiyyat, maliyyə riyaziyyatı, İKT-nin ölkəmiz üçün vacib olan və digər istiqamətlərə xüsusi diqqət ayrılmalıdır. Müasir zamanda ölkəmiz üçün əhəmiyyətli olan sahələr - hərbi məsələlər, enerji sahəsi, kənd təsərrüfatı və turizmdir.

Elmin əsas sifarişçisi dövlətdir. Lakin dövlətin elmə ayırdığı vəsait ciddi nəzarət altında olmalıdır. Elmi-tədqiqat işi fərdi xarakter daşımamalıdır. Sovet dönəmində belə bir fikir səslənirdi: "Elmi iş dövlət vəsaiti hesabına şəxsi mənəvi tələbatın qarşılanmasıdır". O zamanlar keçdi. İndi elm dövlətə və cəmiyyətə konkret gəlir gətirməlidir. Vəsaitin bir hissəsi tanınmış alimlərin fundamental tədqiqatlarına yönəldilməlidir. Bir çox tədqiqatların fikir sərbəstliyi tələb etməsinə baxmayaraq elmi investisiyaların sərhədləri dəqiq müəyyən edilməlidir. Vəsaitin hansı hissəsinin tətbiqi elm sahələrinə, hansının isə gələcəkdə effektiv istifadə oluna biləcək fundamental araşdırmalara yönəldilməsi sərhədləri dəqiq bilinməlidir.

Elmin siyasiləşməsi və ideologiyaya tabe edilməsi cəmiyyətin inkişafına əngəldir. Buna əyani misal keçmiş SSRİ-də iqtisadiyyat elminin siyasiləşməsidir ki, onun acı nəticələrini bu gün də MDB məkanında müşahidə etməkdəyik. Elmin siyasiləşməsi o qədər təhlükəlidir ki, o, elmin və siyasi quruluşun dayaqlarının çürüməsi və ölkənin iqtisadi inkişafının əngəllənməsi kimi fəsadlar törədir. Bu siyasiləşmə hətta yaradıcılıq prosesinə məhvedici təsir edir və yaradıcılığı idarə işi halına gətirir. Elmin siyasətləşdirilməsinə, məmurluğa tabe edilməsinə yol vermək olmaz. Bu elmin məhv olmasına aparan yoldur. *Elmi siyasiləşdirmək yerinə siyasəti elmi təməllər üzərində qurmaq məqsədimiz olmalıdır.*

Məsələn, SSRİ-də iqtisadiyyat humanitar elmlərə aid edilirdi və siyasi sifarişləri yerinə yetirirdi. Ona görə SSRİ-də minlərlə yüksək elmi dərəcəli iqtisadçının olduğuna baxmayaraq onların heç biri nüfuzlu elmi mükafat qazana bilmədilər. Yalnız bir nəfər, akademik Leonid Kantoroviç iqtisadiyyat üzrə Nobel mükafatına layiq görüldü. Akademik L.Kantoroviç isə ixtisasca riyaziyyatçı idi. Son illər iqtisadiyyat sahəsində Nobel mükafatları adətən iqtisadiyyatda riyazi metodlardan geniş istifadə etmiş alimlərə verilir.

İqtisadiyyat heç zaman humanitar elm olmamışdır. Bu elmin əsasında, xüsusən, indiki zamanda geniş və dərin riyazi aparat və informasiya texnologiyaları metodları durur. Bu səbəbdən Azərbaycanda elmin strukturunda iqtisadiyyat elmini humanitar elmlər çərçivəsindən çıxarıb təbiət elmləri sırasına daxil etmək məqsədəuyğun olardı.

*2000-ci ildə Davos forumunda XXİ əsrin şüarı - İnformatika və İqtisadiyyat elan olundu. Azərbaycan Milli Elmlər Akademiyasında İnformatika və İqtisadiyyat bölməsinin yaradılması məqsədəuyğun olardı.* Bu, ölkəmizdə həm iqtisadiyyatın, həm də müxtəlif sahələrin inkişafına təkan verərdi.

Elmin inkişafının təməl şərtlərindən biri onun maliyyəsidir. ABŞ-ın keçmiş Prezidenti B.Obama Amerika Milli Elmlər Akademiyasında çıxışında qeyd edib ki, Amerikanın ən gözəl illəri elmə yüksək kapital qoyuluşu ilə yadda qalmışdır. Çıxışının sonunda Prezident demişdir: "Bu gün mən aşağıdakı vəzifələri əsas hədəfimiz kimi nəzərdə tuturam. Biz ümumi daxili məhsulun 3 faizini elmi tədqiqatlara ayıracağıq; kapitalı fundamental və tətbiqi araşdırmalara yönəldəcəyik; xüsusi innovasiyaların işlənib hazırlanması üçün yeni həvəsləndirici mühit yaradacağıq; energetika və tibb sahələrində yeni nailiyyətlərin əldə olunmasını təşviq edəcəyik; riyaziyyat və təbiət elmləri sahəsində təhsilin keyfiyyətini yüksəldəcəyik. Bu, Amerikanın bütün tarixində elmi-texniki tərəqqi yolunda ən böyük töhfə olacaqdır".

Bu gün ABŞ-da elmə ayrılan vəsait 500 mlrd. dolları keçir (bir alimin fəaliyyətinə 330 min dollar) və bu vəsaitin böyük hissəsi Amerika Milli Elmlər Akademiyası tərəfindən alimlərə qrant şəklində ayrılır.

Azərbaycanda elmi araşdırmalara ayrılan vəsait büdcənin 0,54 faizini, ÜDM-in 0,16 faizini təşkil edir. Düşünürəm ki, elmin maliyyələşməsinə münasibət kökündən dəyişməlidir. Əlbəttə, bu o demək deyil ki, birdən-birə elmə ayrılan vəsaiti kəskin artırmaq lazımdır. "Mənə pul verin, mən hər şeyi düzəldərəm" prinsipi elmdə işləməz!

Elmə məsrəfi artırmaq sözsüz ki, lazımdır, amma bunu addım-addım və effektiv surətdə həyata keçirmək vacibdir. Bu gün Azərbaycanda ali məktəblərdə və AMEA-da çalışan professorların maaşları arasında ciddi (ən azı iki dəfə) fərq var. Bunun əsasında ali məktəblərdə çalışan müəllimlərə ödənişli tələbələrin ödədiyi vəsaitlərdən əlavələr durur. Belə vəziyyət AMEA-da çalışan aparıcı alimlərin ali məktəblərə axınına səbəb olur. Bu məsələnin həlli yollarından biri AMEA-da çalışan alimlər üçün dövlət əhəmiyyətli qrantların artırılması ilə həll oluna bilər.

Elmə ayrılan vəsaitin bir hissəsi qrant şəklində, ölkə üçün birinci dərəcəli əhəmiyyəti olan, Elmi Doktrinaya uyğun prioritet sahələrə və bununla yanaşı, beynəlxalq məlumat bazalarına (SCİ, SSCİ, SCOPUS və s.) daxil olan jurnallarda nəşr olunan məqalələrin aid olduğu sahələrə yönəldilməlidir. Eyni zamanda elə sahələr dəstəklənməlidir ki, onların nümayəndələri dünyanın aparıcı elm mərkəzlərinə dəvətlər alır, həmin mərkəzlərdə tədqiqatlar aparır, məruzələr edir və bununla, Azərbaycan elminin beynəlxalq elmlə əlaqələrini möhkəmləndirir.

Bir elm sahəsinə aid olan elmi nəticələrin ardıcıl olaraq aparıcı elmi jurnallarda yayımlanması və həmin sahənin təmsilçilərinin aparıcı elmi mərkəzlərə tez-tez dəvətlər alması həmin elm sahəsinin Azərbaycanda təşəkkül tapmasına və dünya elmində tanınmasına dəlalət edir və buna görə də onun inkişafını stimullaşdırmaq zəruridir. Əgər hər hansı elmi əməkdaş aktiv elmi fəaliyyətdən uzaqlaşmışsa, onun elmi istiqamətinin maliyyələşdirilməsi məsələsi nəzərdən keçirilməlidir. Eyni zamanda təqaüd yaşına çatmış alimlərin təcrübəsindən istifadə olunmaqda davam etməli və onların əməyi elmə verdikləri töhfələrə görə dövlət tərəfindən müxtəlif mükafatlar, təqaüdlər və s. şəklində qiymətləndirilməlidir.

Xüsusi diqqət beynəlxalq qrantların alınmasına verilməlidir. Dünyanın aparıcı alimləri ilə birgə tədqiqatlara qrantlar ayrılması üzərində düşünmək də məqsədəuyğundur. Bu münasibət bizim alimlərə beynəlxalq elmi-tədqiqatlara inteqrasiya və elmi nəticələrin praktik tətbiqi üçün beynəlxalq təcrübədən faydalanmaq imkanı verərdi. Məsələn, Amerika Mülki Tədqiqatlar Fondunun vaxtı ilə Azərbaycan daxil olmaqla MDB məkanında birgə tədqiqatların aparılmasına qrantlar ayırması təcrübəsi faydalı olardı. Avropa Birliyi nəzdində müxtəlif qrantlardan faydalanmaq məqsədəuyğun olardı (Horizon və d.). AB nəzdində İnnovasiya Şurasının qurulmasına 2 mlrd. avro ayrılıb və 2021-2027-ci illərdə bu fonddan yeni elmi istiqamətlərin inkişafına böyük vəsaitlər yönələcək. Bu istiqamətdə AMEA-nın və ümumiyyətcə bizim alimlərimizin fəaliyyəti ciddi sürətdə artırılmalıdır.

XX əsrin ikinci yarısı və XXI əsrin əvvəlində elmi tədqiqat artıq kollektiv anlayışa çevrilmişdir. Bunun parlaq sübutu Nobel və digər mükafatların əksər hallarda müxtəlif ölkələrdən olan alimlər qruplarına verilməsidir. Yüksək texnologiyaların sayəsində müxtəlif ölkələrdə yaşayan bir qrup alim öz ölkələrində qalaraq eyni elmi mövzu üzərində birgə çalışa bilirlər. Beləliklə, müxtəlif ölkələrdə yerləşən elmi mərkəzlərlə və ayrı-ayrı alimlərlə əlaqə yaratmaq zərurəti ortaya çıxır. Bu, həm dünya elminə inteqrasiya olunmağa, həm də yüksək beynəlxalq səviyyəyə uyğun elmi araşdırmalar aparmağa imkan verərdi. Amma bunlara baxmayaraq tanınmış elmi mərkəzlərin mühitində fəaliyyət göstərmək, bu mühitdən yararlanmaq öz aktuallığını bu gün də itirməyib.

Tanınmış elmi mərkəzlərin - Harvard, Oksford, Stanford, Kembric, Massaçusets Texnologiya İnstitutu və digərlərinin elmi mühitlərinin yaradılmasına illər yox, on illər deyil, bəlkədə yüz illər sərf olunmuşdur. Belə mərkəzlərdə çalışmaq, onların ab-havasını anlamaq hər bir alim üçün böyük şərəfdir. Bu gün Qərb ölkələrində Sabbatikal adlanan bir anlayış var. Buna uyğun olaraq hər bir alim 5 ildə bir dəfə tanınmış elmi mərkəzlərə ezam oluna və bir müddət orada çalışa bilər. Bunun üçün mərkəzin icazəsi və təşkilatdan ezam kifayətdir (ezamiyyət üçün vəsait verilmir, sadəcə alimin maaşı saxlanılır). Təbii ki, Azərbaycan alimlərinin bugünkü aldığı maaşla bunu həyata keçirmək mümkün deyil. Ona görə AMEA-nın Prezidentinin Fondunda belə vəsaitin yaradılması məqsədəuyğun olardı və alimlərimizin adı gedən elmi mühitdən bəhrələnməsi öz müsbət nəticəsini verərdi.

Digər imkan İtaliyada yerləşən Ümumdünya Elmlər Akademiyasının (The World Academy of Sciences - TWAS) vasitəsilə ola bilər. Əvvəlcə AMEA Ümumdünya Akademiyasının nəzdində olan Beynəlxalq Akademiyalar Assosiasiyasının üzvü olmalıdır. Bunun üçün zəruri şərt AMEA-nın Nizamnaməsinin ingilis dilinə tərcümə edilib Akademiyanın saytında yerləşdirilməsi və müraciət edilməsidir. Belə əməkdaşlıq AMEA-da çalışan alimlər üçün ən azı Ümumdünya Akademiyasının təşkil etdiyi elmi forumlarda iştirak və ayrılan qrantlardan bəhrələnmək imkanı olardı. Ümumdünya Elmlər Akademiyası belə forumlarda iştirak etmək üçün xüsusi vəsait ayırır və Azərbaycan alimlərinin belə tədbirlərdə iştirakı həm elmin inkişafına təkan olardı, eyni zamanda AMEA-nın beynəlxalq əlaqələrinin inkişafına kömək edərdi. Eyni zamanda, Ümumdünya Akademiyası magistr və PhD pillələrində təhsil alan tələbələrə də bu mərkəzdə fəaliyyət göstərməyə vəsait ayırır.

## Elmi nəticələrin qiymətləndirilməsi və stimullaşdırılması

Elmi tədqiqatların effektliliyini yüksəltmək üçün elmi nəticələrin keyfiyyətinin qiymətləndirilməsinin informasiya sistemi yaradılmalıdır. Vaxtı ilə AMEA-nın İdarəetmə Sistemləri İnstitutu və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə belə informasiya sisteminin ilkin variantı yaradılmışdır. Belə informasiya sistemi dövlət qrantlarının paylanmasında, müxtəlif elmi mükafatların və təltiflərin verilməsində, AMEA-nın müxtəlif bölmələri üzrə aktiv elmi əməkdaşların ortaya çıxarılmasında və onların mükafatlandırılmasında və digər işlərdə istifadə oluna bilər. Bu, elmdə sağlam rəqabətə gətirər, elmi tədqiqatların öncül (prioritet) istiqamətlərini müəyyən edər və dövlət vəsaitinin elmi araşdırmalara daha şüurlu yönəldilməsinə imkan verərdi.

Universitetlərin reytinqinin təyin edilməsi üçün Azərbaycanda da analoji sistemin yaradılması məqsədəuyğundur. Elm, texnika, ədəbiyyat və mədəniyyət sahələrində Azərbaycan dövlət mükafatının təsis olunmasını məmnuniyyətlə qeyd etmək istərdik. Gənc alimlərə də elm və texnika sahəsində dövlət mükafatının verilməsi ənənəsini dirçəltmək məqsədəuyğundur.

Vacib məsələlərdən biri SCİ məlumatlar bazasına daxil olan jurnallarda alimlərimizin məqalələrinin nəşr olunmasıdır. Yuxarıdan verilmiş heç bir göstərişlə bu məsələ həll olunmaz. İlk növbədə, alimlərin səmərəli çalışmasına lazımi şərait yaradılmalıdır. Yeni eksperimental elmi araşdırmalar üçün müasir avadanlığın varlığı təmin olunmalıdır. Nəzəri tədqiqatlar üçün isə aparıcı elmi jurnallara və ya heç olmasa, onların elektron variantına giriş imkanı əldə edilməlidir. Bu məsələ AMEA-da qismən öz həllini tapmışdır. Dövlət qrantlarının ayrılması zamanı müasir avadanlığın alınması məsələsi xüsusi maddə ilə göstərilməlidir.

## İnternet və elmi müəssisələrin saytları

Müasir zamanda hər bir təşkilatın fəaliyyəti haqqında məlumat internet vasitəsilə onun saytından alınır. AMEA-nın saytı digər təşkilatlar üçün nümunə olmalıdır. AMEA-nın saytında dəyişikliklərin edilməsi zəruridir. Bəzi məlumatlar, açığını desək, SSRİ-nin 50-60-cı illərini xatırladır.

Məsələn, AMEA-nın üzvləri haqqında olan məlumatlarda fəlsəfə doktoru (namizədlik) və elmlər doktoru dissertasiyalarının mövzusu və müdafiə ilinin və dissertasiyaların indeksinin göstərilməsi hər kəsi təəccübləndirir. Belə məlumatlar məmurluqdan başqa heç bir elmi informasiya daşımır və qısa zamanda aradan qaldırılmalıdır. AMEA-nın üzvləri haqqında olan məlumatda hansı ali məktəbin məzunudur, hansı elmi mərkəzlərdə dissertasiyalarını müdafiə edib və aldığı əsas nəticələr göstərilməlidir. Eyni zamanda, hansı elmi mərkəzlərlə əməkdaşlıq edilir, hansılarına dəvət olunub və əsas elmi nəşrlərinin siyahısı verilə bilər.

Dünyanın bütün tanınmış elmi mərkəzlərinin saytları məhz bu prinsiplər üzərində qurulub və biz də buna riayət etməliyik. Saytın müsbət tərəfi ondan ibarətdir ki, AMEA-da baş verən hadisələr və yeniliklər saytda vaxtında yerləşdirilir. Elm TV proqramının yaradılması təqdirəlayiqdir və düşünürük ki, bu proqram daha geniş şəkildə məktəb şagirdlərinə və ali məktəblərin tələbələrinə yönəldilməlidir.

## Təhsilin problemləri

Ali məktəblərin əsas məqsədi keyfiyyətli təhsil vermək, beynəlxalq təhsil sisteminə inteqrasiya olunmaq və dünya universitetləri reytinqində mümkün qədər yüksək ranqa nail olmaqdır. Etiraf etmək lazımdır ki, Azərbaycanın təhsil sistemində müəyyən irəliləyiş var. Bununla bərabər, təcili həllini tələb edən çox sayda problemlər də qalmaqdadır.

Acı təəssüflə qeyd etmək lazımdır ki, dünyanın 500 universitetinin reytinq siyahısında Azərbaycanın heç bir ali məktəbinin adı yoxdur. Hətta keçmiş sovet respublikalarının xüsusiyyətlərini nəzərə alaraq tərtib olunmuş 400 ali məktəb siyahısında MDB məkanında fəaliyyət göstərən 60 ali məktəbin adı göstərilir, Azərbaycandan isə bir ali məktəbin belə adı həmin siyahıya düşməyib. Sonuncu siyahıda Qazaxıstanın, Litvanın, Latviyanın, Estoniyanın ali məktəblərinin adları var. Bu bizi ciddi düşündürməlidir.

Elm və təhsil sahəsində inqilabi dəyişikliklər ziyandan başqa bir şey vermir. Burada hər bir dəyişiklik təkamül xarakteri daşımalıdır. Vaxtilə heç bir hazırlıq tədbiri görmədən, tələsik olaraq Azərbaycanda bakalavr+magistr sistemi həyata keçirildi. Zaman göstərdi ki, bu sistem özünü lazımi qədər doğrultmadı, çünki bu keçiddə aspirantura (doktorantura) ilə bağlı heç bir dəyişiklik olmadı. Biz beynəlxalq təhsil sisteminin sadəcə bir parçasını qəbul edib digər hissəsinə nəzər yetirmədik. Bu da öz mənfi tərəfini indi göstərməkdədir. Təhlil göstərir ki, Azərbaycanda aspiranturanı (doktorantura) bitirən şəxslərin elmi səviyyəsi ürəkaçıcı deyil. Bu gün aspirantura (doktorantura) pilləsində çalışan səxslər üçün elmi rəhbərin təklifi ilə imtahanların sayı ciddi sayda artırılmalıdır, 5-6 imtahan olmalıdır.

Yeni fənlər üzrə dərslər verilməlidir və gələcəkdə bu artıq bir qanuna cevrilməlidir. Belə yanaşma iddiaçıların elmi səviyyəsinə və aldığı nəticələrin daha dərin olmasına yardım edərdi. Bu Qərb ölkələrində mövcuddur və öz bəhrəsini illər boyu göstərmişdir. Hətta SSRİ-nin aparıcı elmi mərkəzlərində belə yanaşma həyata keçirilirdi. Eyni zamanda, bu yanaşma yeni dərslərin verilməsini tələb edib müəllimlərin həm dərs yükünü, həm də elmin müasir sahələrinə qovuşmağa imkan yaradacaqdır.

Digər məsələ şagirdlərin müxtəlif fənlərdən dünya olimpiadalarında iştirakıdır. Bu məsələnin effektiv olması üçün bir çox ölkələrdə olduğu kimi, bacarıqlı, milli komandaya namizədlər üçün ildə bir neçə dəfə (10-12 günlük) xüsusi seminarlar (kamplar) təşkil olunmalıdır. Belə seminarlar Azərbaycanın müxtəlif səfalı bölgələrində, istirahət mərkəzlərində keçirilə bilər və bu sahədə tanınmış mütəxəssislər prosesə cəlb oluna bilər. Məsələn, qardaş Türkiyədə riyaziyyat üzrə Milli komandanı dünya olimpiadalarına hazırlayan üzvlərinin böyük hissəsi azərbaycanlılardır. Bu şəxslərin imkanlarından istifadə etmək məqsədəuyğun olardı.

## Ali Attestasiya Komissiyası

Bu qurumda ciddi islahatlar keçirilməlidir. Yuxarıda qeyd olunduğu kimi, bu sahədə inqilabi deyil, addım-addım, tədrici xarakterli dəyişikliklər baş verməlidir. Əvvəlcə süründürməçilik, məmur maneələri aradan qaldırılmalıdır. AAK-ın ciddi nəzarəti altında bir neçə pilot elmi müdafiə şuraları yaradılmalıdır. Belə ki, bir pilot şurası BDU-da, digəri (ola bilsin bir neçəsi) AMEA-da, göstəriciləri ən yüksək olan institutlarda yaradıla bilər. Pilot şuralarında müdafiə olunan fəlsəfə doktorları dissertasiyalarına (müdafiə uğurlu olarsa) dərhal şuranın diplomları verilməlidir. Belə dəyişiklik AAK-ın üzərində olan böyük və ağır yükü aradan qaldıra bilər və gələcəkdə şuraların keyfiyyətini müqayisə etmək imkanı yaradar, hansı şuraların qalıb-qalmamaq məsələsini də həll edərdi. Elmlər doktoru dissertasiyalarının müdafiəsi üçün iddiaçı birbaşa şuraya müraciət etməlidir.

Koordinasiya şuralarının nəzdində bu sahənin bütün (elmlər doktoru) üzvlərindən ibarət olan seminarlar təşkil olunmalıdır. Hər bir elmlər doktoru dissertasiyası bu seminarda ciddi müzakirə olunduqdan sonra və seminarın qərarı ilə şuraya göndərilə bilər. Bu seminarlarda hər bir alim müzakirədə iştirak edə bilər. Belə yanaşma gözlənilmədən ortaya çıxan və qısa zamanda müdafiə olunub, təsdiq edilən doktorluq dissertasiyalarının müdafiəsinə son qoyardı. Gələcəkdə AAK-ın dissertasiyalar üzərində olan nəzarəti azalardı və bütün funksiyalar müdafiə şuralarına keçərdi. AAK-ın isə nəzarəti sadəcə müdafiə şuraları üzərində qalardı və AAK-ın hansı formada fəaliyyət etməsi məsələsi öz əksini tapardı. Belə qaydalar bütün inkişaf etmiş ölkələrdə mövcuddur. Əsas məqsəd məmurluğun elm üzərindən hökmünü götürməkdir.

Bu gün mövcud olan AAK-ın Ekspert Şuralarının üzvlərinin sayı ciddi sürətdə azaldılmalıdır. Ekspert şuraları əsasən hansı alimə dissertasiyanı göndərmək qərarını verməlidir. Bu alimlərin müdafiə şuralarında daha geniş istifadə etməsinə imkan yarardardı. Dissertasiyalar rəy üçün ancaq mütəxəssislərə göndərilməlidir və bu məsələdə ekspert şuralarının üzvləri olmayan mütəxəssislərindən də istifadə etmək lazımdır. SSRİ zamanı belə rəyçilərə "qara opponent" deyilərdi və bu sistem özünü tam doğrultmuşdu. Biz keçmişdə istifadə edilmiş, özünü doğrultmuş qaydalardan qorxmamalıyıq və yeri gələndə istifadə etməliyik. Müdafiə prosesində bu günə qədər istifadə olunmuş və məmur əngəlindən başqa bir şey verməmiş qaydalar aradan qaldırılmalıdır. Məsələn, ilk müzakirədə və ümumiyyətlə, müdafiə zamanı video çəkilişlərin aparılması aradan qaldırılmalıdır.

Hər bir elmi sahə üçün qaydalar xüsusi xarakter daşımalıdır. Məsələn, bu gün fəlsəfə doktoru (namizədlik) dissertasiyalarının müdafiəsi üçün 5 məqalənin çap olunması tələb olunur. Əgər eksperimental sahələrdə belə yanaşma məqbuldursa, riyaziyyat, nəzəri fizika və digər sahələrdə böyük problemə səbəb olur. Riyaziyyat və nəzəri fizika sahələrində adətən məqalələrdə bir, ən çox iki müəllif olur. Ona görə bu sahələrdə 5 məqalənin çap olunmasına ən azı 5-6 il tələb olunur. SSRİ zamanında bu sahələrdə dissertasiyaların müdafiəsi üçün sadəcə 2 məqalə tələb olunurdu və qeyd etmək lazımdır ki, o zaman müdafiə olunan dissertasiyaların keyfiyyəti bugünkü dissertasiyalardan müqayisəolunmaz qədər yüksək idi. Ona görə bəzi nəzəri sahələr üçün 2 məqalə ilə kifayətlənmək olardı, amma məqalələrdən biri ya İmpakt faktoru olan jurnallarda, ya da AAK-ın xüsusi qeyd etdiyi jurnallarda çap olunmalıdır. Belə sahələr üçün dissertasiyaların həcminə olan tələb (100 səhifə) məsələsinə də yenidən baxılıb bu həcm azaldılmalıdır.

## Himayəçilər şurası

Azərbaycanda ilk dəfə olaraq BDU-nun Himayəçilər şurası təsis edilib. Belə şuralar dünyanın aparıcı universitetlərində mövcuddur və ali məktəbin dünya universitetləri arasında olan reytinqinə ciddi nəzarət edir. Ali məktəblərin reytinqi dedikdə, bu məfhum bir çox digər vəziyyətləri ehtiva edir: müasir informasiya texnologiyalarının istifadə olunduğu tədrisin səviyyəsi, elmi avadanlıqla təchizat; yerinə yetirilmiş elmi işlərin və nəşr olunmuş məqalələrin səviyyəsi; beynəlxalq əlaqələr; ali məktəbin mövcud resursları; sözügedən ali məktəbin nüfuzlu mükafatlar laureatı olmuş müəllimləri və məzunlarının sayı və s.

Yerinə yetirilmiş elmi işin səviyyəsi yalnız bu mövzuda nəşr olunmuş məqalələrin sayı ilə deyil, daha çox bu məqalələrə edilən istinad qeydləri ilə müəyyən olunur. Ali məktəbin beynəlxalq nüfuzu onun saytına edilmiş müraciətlərin Google statistikasında göstərilən sayı ilə qiymətləndirilir. Sadaladığımız bütün göstəricilər üzrə ali məktəblərimizin qarşısında təcili həll olunmalı çox problemlər var. Önəmli məsələlərdən biri də BDU-nun yataqxanasının olmamasıdır. Bu məsələ qısa zamanda öz həllini tapmalıdır.

Bizim təhsilimizi geri salan bir zərərli göstərici də əlaçı tələbələrin süni surətdə şişirdilmiş sayıdır. Belə əlaçılar kimə gərəkdir? Tələbələr arasında bu əlaçılar zümrəsinin süni surətdə formalaşdırılması zərərdən başqa heç kimə heç nə gətirmir və eyni zamanda, bunun kökündə xoşagəlməyən hallar durur.

Başqa bir vacib məsələ isə ali məktəb müəllimlərinin yenidən hazırlanması məsələsidir. Bu məsələnin həlli üçün Qərb universitetlərinin təcrübəsində olduğu kimi, ali məktəb müəllimlərinin aparıcı ali məktəblərə tədrisin müasir metodlarının mənimsənilməsi üçün uzunmüddətli ezamiyyətini nəzərdə tutan, Sabbatical proqramı (əvvəldə qeyd olunub) deyilən proqram təşkil etməyi məqsədəuyğun hesab edirik. Burada başlanğıc üçün Rusiya ali məktəblərinin, daha sonra isə Qərb universitetlərinin təcrübəsindən istifadə etmək olar.

Ali məktəbin maliyyələşməsi vacib məsələlərdən biridir, daha dəqiq desək, vacib məsələ bir tələbənin birillik təhsilinə ayrılan vəsaitin miqdarıdır. Avropanın aparıcı ali məktəblərində hər tələbənin bir ildə təhsilinə ayrılan vəsaitin miqdarı 30 min ABŞ dollarıdır. Lakin onların da arasında elə yüksək ranqlıları var ki, orada bu rəqəm 100 min ABŞ dollarına qədər yüksəlir. Azərbaycanda bu rəqəm ortalama 1000-1200 ABŞ dolları civarındadır.

Avropa Birliyi ölkələrində təhsilə ayrılan vəsait orta hesabla ÜDM-in 1,1 faizini, ABŞ-da isə 2,3 faizini təşkil edir. Azərbaycanda bu rəqəm ÜDM-in 0,02 faizi qədərdir. Bu vəsaitlə çətin ki, yüksək səviyyəli mütəxəssis yetişdirmək mümkün olsun. Qısa zaman ərzində bu göstəricini ABŞ və ya Avropa səviyyəsinə çatdırmaq təbii ki, mümkün deyil, amma bir məqsəd kimi baxıla bilər!

Bu məsələnin həlli çox dərin təhlil və bir çox tədbirlərin tədricən və ehtiyatla həyata keçirilməsini tələb edir. Bu məbləğin mərhələlərlə optimal miqdara çatdırılması üçün dövlət proqramının işlənib hazırlanması məqsədəuyğundur. Bu mərhələlərdə ali məktəblərdəki çatışmazlıqlar daha qabarıq şəkildə görünəcək və onların aradan qaldırılması yollarını müəyyənləşdirmək daha rahat olacaqdır. Sadalanan məsələlər Himayəçilər şurasının nəzarətində olmalıdır.

Orta məktəblərdə 9+2 sxeminin tətbiqi ali məktəblərə axını bir qədər azaldacaqdır. Digər tərəfdən, biz hansı sahələrdə və nə qədər mütəxəssisin gərək olduğunu dəqiq müəyyənləşdirməli olacağıq. Bizə indi hazırlandığı qədər tibb mütəxəssislərinin, hüquqçuların, tarixçilərin və s. hazırlanması lazımdırmı? Mütəxəssislərin hazırlığını və onların miqdarını dəqiq tənzimləyən dövlət proqramı qəbul edilməlidir. Bu, tələbələrin təhsilinə ayrılan vəsaiti artırmağa imkan verərdi.

Azərbaycan Prezidenti dövlət dəstəyi ilə 5 min azərbaycanlı tələbənin təhsil almaq üçün xarici ölkələrdəki nüfuzlu universitetlərə göndərilməsi haqqında sərəncam verib. Bu əlamətdar sənəd Azərbaycanda nəinki təhsilə güclü impuls verəcək, eyni zamanda, ölkəmizdə informasiya texnologiyaları, iqtisadiyyat, beynəlxalq əlaqələr və s. kimi müasir elm sahələrinin möhkəm təməlini qoyacaqdır.

Prezidentin başqa bir sərəncamı ilə gənc tədqiqatçıların doktorluq dissertasiyaları hazırlaması üçün nüfuzlu beynəlxalq mərkəzlərə göndərilməsi məqsədilə dövlət vəsaiti ayrılmışdır.

Beləliklə, Azərbaycanda əsasını elm və təhsilin təşkil etdiyi inkişaf modelinin formalaşdığını təsbit etmək olar. Ona görə də Prezident sərəncamlarının effektiv surətdə həyata keçirilməsi üçün xaricdə təhsil alacaq tələbələrin seçilməsinin dövlət proqramı işlənib hazırlanmalı və bu proqramda üstün təhsil sahələri xüsusi göstərilməlidir.

Elmi menecment üzrə mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilməsi zəruridir və gələcəkdə bizim ali məktəblərdə də bu ixtisas üzrə kadrlar hazırlanmalıdır. Əgər keçmişdə ölkənin inkişaf səviyyəsi təbii sərvətlərin varlığı ilə müəyyən olunurdusa, hazırda bu səviyyə yüksək texnologiyaların tətbiqi ilə ölçülür. Hər kəsin bildiyi kimi, təbii sərvətləri ilə öyünə bilməyən Yaponiya, Finlandiya, Hollandiya və digər ölkələr dediklərimizə ən yaxşı sübutdur. Bu səbəbdən, mühəndis kadrlarının hazırlanmasına və xarici ölkələrə "engineering", "electronics", "computer science" və digər sahələr üzrə təhsil almağa göndəriləcək tələbələrin seçilməsinə xüsusi diqqət yetirilməlidir.

Xaricdə təhsil alan tələbələrin məlumat bankı yaradılmalı, onların bu və ya digər sahələrdə hansı şəkildə və sayda istifadə olunacağının optimal planı hazırlanmalıdır. Bu banka xarici universitetlərdə çalışan həmvətənlərimiz haqqında məlumatlar da daxil etmək, onlarla əlaqə saxlamaq lazımdır. Çünki onlar həmin universitetlərlə əlaqələrin qaydaya salınmasında mühüm rol oynaya bilərlər.

Bu gün müxtəlif universitetlər arasında birgə tədris proqramları həyata keçirilir və bunun nəticəsində iki diplom verilir: yerli və xarici universitetin diplomu. Belə proqram Azərbaycan Dövlət Neft və Sənaye Universitetində mövcuddur və digər universitetlərdə də həyata keçirilməsi məqsədəuyğun olardı. Biz bütün yükü dövlətin üzərinə qoymamalıyıq və ali məktəblərə bu sahədə sərbəstlik vermək olardı.

*Məlumdur ki, bir çox xarici universitetlərdə təhsil almaq üçün SAT, GMAT, A-level və s. kimi proqramlar əsasında xüsusi qəbul imtahanları verilməlidir. Ona görə də Dövlət İmtahan Mərkəzi nəzdində bu imtahanlara hazırlıq mərkəzi təşkil olunmalıdır. Bu tədbir bizim gənclərə nüfuzlu xarici universitetlərə qəbul olunmaq üçün müvəffəqiyyətlə qəbul imtahanı verərək təhsilə başlamasına daha yaxşı şərait yaradardı.*

**Asəf HACIYEV,**
**AMEA-nın həqiqi üzvü,**
**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi**

# Milli Məclisdə “Azərbaycan Avropa məkanında” adlı konfrans keçirilib

Mayın 29-da Milli Məclisdə “Azərbaycan Avropa məkanında” mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransda Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxış edərək Azərbaycanın Avropa ölkələri ilə əməkdaşlığa böyük önəm verdiyini söyləyib. O deyib ki, birgə evimiz olan Avropada münasibətlərimiz konstruktiv dialoq əsasında qurulmalıdır. Şərq və Qərb bir araya gələrək mövcud problemləri müzakirə etməlidir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söhbət açan Səməd Seyidov problemin həlli istiqamətində BMT Təhlükəsizlik Şurasının, AŞ PA-nın, ATƏT-in qəbul etdiyi qərarları diqqətə çatdırıb, həmçinin Xocalı soyqırımı barədə danışıb. Komitə sədri bildirib ki, Azərbaycanın qapıları dostlar üçün hər zaman açıqdır. Bu gün Avropada antisemitizm halları müşahidə olunur. Bizim ölkəmizdə isə yəhudilər həmişə sərbəst yaşayıblar. Sinaqoqlar, kilsələr fəaliyyət göstərir, hətta şəhərin mərkəzində yerləşən erməni kilsəsi hələ də qalmaqdadır. Azərbaycan xalqı tolerantlıq kimi dəyərlərə həmişə xüsusi diqqət yetirir. Bizim parlamentdə də rus, yəhudi, digər xalqların nümayəndələri təmsil olunurlar.

Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov konfransda 10-dan çox ölkənin nümayəndəsinin iştirak etdiyini söyləyib. “Biz hamımız dialoqun tərəfdarıyıq” deyən rusiyalı qonaq yaranmış problemlərin qarşılıqlı anlaşma yolu ilə həllinin vacibliyindən danışıb. O qeyd edib ki, Azərbaycan vacib geosiyasi regionda yerləşir və bu gün beynəlxalq dialoqun mərkəzi rolunu oynayır. Burada müntəzəm olaraq beynəlxalq forumlar keçirilir, müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında münasibətlərdən söhbət açılır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov çıxışında bildirib ki, bu gün Azərbaycan sürətlə inkişaf edir. Eyni zamanda, bizim Dağlıq Qarabağ münaqişəsi kimi ağrılı problemimiz mövcuddur. Ərazilərimizin 20 faizi Ermənistan tərəfindən işğal olunub. Azərbaycan polietnik bir dövlətdir, burada çoxsaylı xalqların nümayəndələri birgə yaşayır. Regiondakı digər ölkələrdə də polietnik cəmiyyətlər qurulub. Burada yeganə monoetnik ölkə Ermənistandır. Bu gün Ermənistanda bir nəfər də olsun azərbaycanlı yoxdur. Azərbaycanda və Türkiyədə isə minlərlə erməni yaşayır. Sovet İttifaqı vaxtında Ermənistanda mövcud olan bütün Azərbaycan memarlıq abidələri hazırda dağıdılıb.

Fuad Axundov Oleq Kuznetsovla birgə yazdıqları “Ermənistanda nasizmin qəhrəmanlaşdırılması təcrübəsi” adlı kitabı təqdim edib. Qeyd olunub ki, kitabda 2000-ci ildən başlayaraq nasistlərin qəhrəman kimi təqdim edilməsi ilə bağlı Ermənistanın dövlət siyasəti sənədlərlə təsdiq edilir. Ölkənin müxtəlif şəhərlərində nasist Njdeyə ucaldılmış abidələr, faşist Almaniyasına xidmət edən bu caninin törətdiyi cinayətlər barədə faktlar toplanıb. Prezident Administrasiyasının rəsmisi Azərbaycanın dünya dövlətləri ilə əməkdaşlıq etməyə hazır olduğunu deyib, beynəlxalq toplantılarda iştirak edərək ölkəmiz barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən danışıb.

Rusiyalı tarixçi Oleq Kuznetsov çıxışında deyib ki, bu gün dünyada nasizmlə mübarizə getdiyi halda, Ermənistanda nasizmin qəhrəmanlaşdırılması ilə bağlı bir kult yaranıb, bu, artıq dövlət ideologiyasına çevrilib. Bu, Avropa üçün bir problemdir. Ermənistanda milliyyətçi rejim mövcuddur. Biz buna qarşı ciddi mübarizə aparmalıyıq.

Tədbirdə Avropa Parlamentinin İngiltərədən, Fransadan, Rumıniyadan, Polşadan olan üzvləri Dağlıq Qarabağ münaqişəsi barədə öz fikirlərini səsləndiriblər. Problemin həlli ilə əlaqədar görülən işlərə, münaqişə zonasında son dövrdə baş verən hadisələrə münasibət bildiriblər. Onlar Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş soyqırımından danışıb, bu ərazinin Azərbaycanın ayrılmaz hissəsi olduğunu bildiriblər. Avropa Parlamentinin üzvləri mədəni irsin dağıdılması, etnik təmizləmə, itirilmiş əmlak məsələlərinin qabardılmasının vacib olduğunu vurğulayıblar.

Konfransda çıxış edənlər müstəqil Azərbaycanın iqtisadi, sosial, demoqrafik inkişafını təqdir ediblər. Qeyd edilib ki, bu gün Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən qat-qat çoxdur. Yəni, əgər məsələnin sülhlə həlli mümkün olmasa, Azərbaycan problemi müharibə yolu ilə həll etməyə qadirdir.

Görüşdə deputat Cavanşir Feyziyev ölkəmizlə Avropa İttifaqı arasında əməkdaşlıq barədə danışıb. Qeyd edilib ki, Avropa İttifaqı Azərbaycanın sərhədlərinin bütövlüyünü tanıyır, dövlətimizin suverenliyini dəstəklədiyini dəfələrlə nümayiş etdirib.

Toplantıda bir sıra aktual məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sonra mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Avropa Parlamentinin üzvləri Netan Gill (İngiltərə) və Emerik Şoprad (Fransa), Fransa Parlamentinin üzvü Jan-Lük Reyster, Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov, Azərbaycan Prezidenti Administrasiyasının sektor müdiri Fuad Axundov jurnalistləri maraqlandıran suallara cavab veriblər.

Avropalı parlamentarilər vurğulayıblar ki, Azərbaycan təhlükəsiz ölkədir, turist kimi gəlmək üçün çox gözəl diyardır. Azərbaycan xalqı burada məskunlaşmış müxtəlif xalqların və etnik qrupların nümayəndələri ilə dinc yanaşı yaşamağın ən gözəl nümunəsini yaradıb. Azərbaycanda yüksək səviyyədə olan tolerantlıq demokratiyanın təzahürlərindəndir.

Ölkəmizin iqtisadi inkişafından söz açan qonaqlar deyiblər ki, həm Bakıda, həm də bölgələrdə tərəqqi və sabitliyin şahidi olublar. Bir sıra ölkələrdən fərqli olaraq Azərbaycanda siyasi hakimiyyətə hörmət var. Bu, çox yaxşıdır. Azərbaycanın müstəqil siyasəti var, ölkə böyük güclərdən asılı deyil. Son illər Azərbaycan çox vacib, ciddi geosiyasi regiona, dialoq mərkəzinə çevrilib. Burada müntəzəm olaraq beynəlxalq forumlar keçirilir.

Qərbdə Azərbaycana qarşı lobbiçilik olduğunu etiraf edən avropalı parlamentarilər ölkəmizin dünyada hökm sürən çətin şəraitdə müstəqilliyini qoruyub saxlaya bilməsinə də heyranlıq ifadə ediblər.

❖ ❖ ❖

Konfrans iştirakçıları Milli Məclisin binası, deputatlar üçün yaradılmış şəraitlə yaxından tanış olublar.

# Azərbaycanla Ukraynanın gömrük xidmətləri blokçeyn texnologiyalarının tətbiqi üzrə pilot layihə hazırlayacaq



Mayın 29-da Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ölkəmizdə səfərdə olan Ukrayna Dövlət Fiskal Xidmətinin sədrinin vəzifələrini icra edən Aleksandr Vlasovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

DGK-nın Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, S.Mehdiyev iki ölkə arasında mövcud əlaqələrdən söhbət açıb və Azərbaycan-Ukrayna münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb.

Azərbaycan Gömrük Xidmətinin Ukrayna Dövlət Gömrük Xidməti ilə qarşılıqlı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu nəzərə çatdıran komitə sədri bu baxımdan mövcud potensialdan maksimum yararlanmağın vacibliyini bildirib.

S.Mehdiyev Prezident İlham Əliyev tərəfindən son illərdə gömrük sistemində aparılan innovativ islahatlar barədə qonaqlara məlumat verib və qeyd edib ki, tətbiq edilən yeniliklər ölkənin ixrac potensialını inkişaf etdirmək, gömrük prosedurlarını sadələşdirmək, şəffaflığı təmin etməklə yanaşı, beynəlxalq ticarətin də asan və sürətlə həyata keçirilməsinə münbit şərait yaradıb.

DGK-nın sədri Ukrayna və Azərbaycan gömrük orqanlarının informasiya texnologiyaları sahəsində əməkdaşlığından məmnunluqla söhbət açıb, uyğun qurumlar arasında məlumat mübadiləsinin uğurla həyata keçirildiyini bildirib. Görüşdə iki ölkənin gömrük xidmətlərinin blokçeyn texnologiyalarının tətbiqi sahəsində pilot layihə hazırlayaraq GUAM çərçivəsində reallaşdırılması barədə razılıq da əldə olunub.

A.Vlasov isə Azərbaycana səfər etməsindən və ölkəmizdə hərtərəfli inkişafdan, eləcə də gömrük işində əldə edilən uğurlardan məmnun qaldığını söyləyib. Ukraynanın Azərbaycanla bütün sahələrdə, o cümlədən gömrük işində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu bildirən qonaq Azərbaycan Gömrük Xidməti ilə təcrübə mübadiləsinin ümumi işə fayda verdiyini vurğulayıb.

# Azərbaycan Ümumdünya Turizm Təşkilatının aparıcı komitəsinə üzv qəbul edilib

Azərbaycan Ümumdünya Turizm Təşkilatının (UNWTO) 2019-2021-ci illər üzrə Assosiativ Üzvlük Müraciətlərinə Baxılması üzrə Komitəsinin üzvü seçilib.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, ölkəmizin 2019-2021-ci illər üzrə qeyd olunan komitəyə üzv olması barədə yekdilliklə qərarın qəbul olunması mayın 27-də Xorvatiyanın Zaqreb şəhərində işinə başlayan Ümumdünya Turizm Təşkilatının Avropa Komissiyasının 64-cü sessiyası çərçivəsində baş tutub.

Tədbirdə Azərbaycanın İspaniyadakı səfiri, eyni zamanda Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Anar Məhərrəmovun rəhbərlik etdiyi nümayəndə heyətində Dövlət Turizm Agentliyini Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Cəmilə Talıbzadə təmsil edib.

40-dan çox ölkənin nümayəndələrinin iştirak etdiyi sessiya gündəliyə uyğun olaraq işini mayın 30-dək davam etdirəcək.

Məlumat üçün bildirək ki, ÜDTT-nin əsas 6 komitəsindən biri olan Assosiativ Üzvlük Müraciətlərinə Baxılması üzrə Komitəsinə üzvlük seçimi hər iki ildən bir keçirilir.

Xatırladaq ki, iyunun 16-18 tarixlərində Bakıda Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyası keçiriləcək.

# Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Şuşadakı Yuxarı Gövhər ağa məscidi ilə bağlı bəyanat yayıb

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin sədri Tural Gəncəliyev Şuşadakı Yuxarı Gövhər ağa məscidi ilə bağlı bəyanatla çıxış edib. Bu barədə AZƏRTAC-a İctimai Birlikdən məlumat verilib.

Bəyanatda deyilir: “Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus zəngin mədəni, tarixi və dini irsin dağıdılması, gizlədilməsi və dəyişdirilməsi kimi fəaliyyətin mütəmadi şahidi oluruq. Biz erməni mediasına istinadən Şuşa şəhərinin Yuxarı Gövhər ağa məscidində aparılan “təmir-bərpa işləri” haqqında xəbərləri dərin narahatlıq hissi ilə izləyirik. İşğalçı Ermənistanın torpaqlarımızda etnik təmizləmə həyata keçirdikdən sonra beynəlxalq humanitar hüququn bütün norma və prinsiplərini kobudcasına pozaraq Şuşanın əsas simvollarından hesab edilən məsciddə qanunsuz “təmir-bərpa işləri” aparması və bu məqsədlə hansısa şirkətləri cəlb etməsi Azərbaycan xalqının mirasına qarşı yönəldilmiş vandallıq hərəkətlərinin davamı kimi başa düşülməlidir.

Hamıya məlumdur ki, Qarabağ xanı İbrahim xanın qızı Gövhər ağanın (Gövhərnisə bəyim) adını daşıyan Yuxarı Gövhər ağa məscidi Gövhərnisənin maddi dəstəyi ilə qoşa minarəli formada atası İbrahim xanın yararsız hala düşmüş məscidinin yerində şuşalı memar Səfixan Qarabaği tərəfindən 1883-cü ildə inşa edilib. İşğal olunmuş Şuşa şəhərində digər abidələr və dini ibadət ocaqları da eyni aqibətlə üzləşib. Şuşa sanatoriyasının ərazisindəki Rus kilsəsinin günbəzi dağıdılıb yenidən tikilərək obrazı dəyişdirilib və Rus kilsəsi yeni uydurma Kanaç jam adlandırılıb.

Ermənistan bu hərəkəti ilə təkcə irsimizi hədəfə almır, eyni zamanda, İran və Azərbaycan arasında mövcud olan dostluq əlaqələrinə xələl gətirir. Bu, bir daha Ermənistanın əsl xislətini nümayiş etdirir və destruktiv xarakterli hərəkətlərini ifşa edir. Yuxarı Gövhər ağa məscidinin “bərpa edilməsi” altında Ermənistanın hansı məkrli niyyətinin durduğunu qeyd olunanlar müstəvisində daha aydın görmək mümkündür. Bu, Ermənistanın onsuz da həssas olan regionda nə qədər təhlükəli oyun apardığını və dost ölkələrin arasını vurmaq kimi çirkin planlarının olduğunu göstərir.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistanın bu hərəkətlərinin qarşısının alınması və mədəni-tarixi irsimizə qarşı həyata keçirilən bu qanunsuz vandal hərəkətlərinin pislənilməsi məqsədilə Birləşmiş Millətlər Təşkilatının elm, təhsil və mədəniyyət üzrə ixtisaslaşmış qurumu olan UNESCO, digər beynəlxalq təşkilatlar və dünya ictimaiyyətinə müraciət edir. Ermənistanın işğal edilmiş ərazilərimizdə apardığı vandalizm hərəkətlərinə göz yummaq beynəlxalq humanitar hüquq üzrə ölkələrin öz üzərinə götürdükləri öhdəliklərə zidd olmaqla yanaşı, ümumbəşəri mədəni irsə qarşı etinasız münasibət kimi anlaşılandı. Əgər dünya ictimaiyyəti qeyd olunanlar müqabilində səssizliyini davam etdirərsə, bəşəriyyətə məxsus mədəni-tarixi irsin daha kəskin formada dağıdılması üçün destruktiv qüvvələrə şərait yaratmış olacaq”.

## *Siyasi şounun ikinci mərhələsi:*

# Ermənistan hərc-mərclik və xaos burulğanında

**İrəvanda ara yenidən qarışıb. Ümumi yurisdiksiya məhkəməsinin Robert Koçaryanı zaminə buraxmasına hökumət sərt reaksiya verib. Bu hadisənin baş verməsinə qədər hakimiyyət heç bir şey etməyib.**
**Lakin sonradan bunun həyati əhəmiyyətli məsələ olduğunu bəyan edərək radikal çağırışlar edib. Konkret olaraq Nikol Paşinyan insanları küçələrə çağırıb və məhkəmə binalarını mühasirəyə almağa səsləyib. Bu addım ölkədə əks-səda yaradıb. Bir sıra siyasi partiyalar, hüquqşünaslar və ekspertlər baş nazirin özünün qanunsuz davrandığını bəyan ediblər. Ombudsman bu barədə açıq və konkret danışıb. Prezident Armen Sarkisyan da dolayısı ilə konstitusiyaya əməl etməkdən və xalqın maraqlarını gözləməkdən bəhs edib. Bütün bunların siyasi və geosiyasi məzmunu üzərində geniş dayanmağa ehtiyac görürük.**

### Toqquşma: siyasi səhnədə qarşıdurma güclənir

Cənubi Qafqazın forpost ölkəsində yenidən böyük siyasi qalmaqal yaranıb. Keçmiş separatçı və “prezident” R.Koçaryanı mayın 19-da ümumi yurisdiksiya məhkəməsi zaminlik əsasında həbsdən azad edib. O, tamamilə azad olunmayıb, özü kimi iki erməni separatçı - Bako Saakyan (Dağlıq Qarabağdakı qanunsuz rejimin indiki başçısı) və Arkadi Qukasyan (kriminal rejimin keçmiş başçısı) hərəsinə 1000 ABŞ dolları verməklə zaminə buraxılıb. Hakimiyyət dərhal bu hadisəyə reaksiya verib.

Baş nazir N.Paşinyan bunu erməni dövlətçiliyinə xəyanət adlandıraraq insanları yenidən küçələrə çağırıb. Onun sözlərinə görə, Dağlıq Qarabağdakı ermənilər Ermənistandakı korrupsiya sistemindən daha çox zərər görüblər. Əvvəlki iqtidar Qarabağdakı əlaqələrindən istifadə edərək indiki Ermənistan hakimiyyəti haqqında yalan məlumatlar yayır. Hətta hərbi əməliyyatların başlaması üçün şantaj edirlər. Yəni məqsədləri Azərbaycanı hərbi əməliyyatlara təhrik etməkdir və torpaqların bir qismini azərbaycanlılara qaytarmaq planları mövcuddur. N.Paşinyan bununla bağlı konkret faktın olub-olmadığına dair isə heç nə deməyib. Əvəzində bir siyasi təklif irəli sürüb: parlamentdə Aprel müharibəsini təhqiq edən qrup yaradılsın. Bunun fonunda o, Qarabağdakı separatçıları ancaq Ermənistanın indiki hökumətinə inanmağa çağırıb.

Daha maraqlısı odur ki, N.Paşinyan məhkəmə binalarını mühasirəyə almaqdan bəhs edib. Bu çağırışa bəzi məlumatlara görə, 1000 nəfər reaksiya verib və məhkəmələrin ətrafına toplaşanlar olub. N.Paşinyan da onların yanına gedərək ölkədə inqilabın “ikinci və ən əsas mərhələsinin yetişdiyini” bəyan edib. Bu mərhələdə əsas vəzifə məhkəmə sistemini tamamilə yeniləşdirməkdən ibarət olmalıdır. Bunun üçün hətta konstitusiya islahatlarına və ümumxalq səsverməsinə belə gedilə bilər. Məhkəmələrə müstəqil qərarlar qəbul edən, korrupsiyadan kənar kadrlar gətirilməlidir. Yəni Ermənistanın məhkəmə sistemində köklü islahatlar aparılmalıdır.

Ermənistan hökumətinin bu addımı ölkə daxilində və beynəlxalq aləmdə birmənalı qarşılanmayıb. Bir qisim N.Paşinyanı müdafiə edib, digərləri isə onu hüququ pozmaqda ittiham ediblər. Məsələn, Ermənistanın siyasi partiyaları baş nazirin məhkəmə binalarını mühasirəyə almaqla bağlı çağırışını antikonstitusion adlandırıblar.

Maraqlıdır ki, N.Paşinyanın hərəkətini qınayanlar sırasında onun müttəfiqi sayılan “Çiçəklənən Ermənistan” partiyası da vardır. N.Paşinyanın keçmiş silahdaşı Edmon Marukyan isə məsləhət görüb ki, “Koçaryana hədiyyə etməsinlər”. Hədiyyə dedikdə, o, Avropa strukturlarına R.Koçaryanın məhkəmələrə hakimiyyətin təzyiq etməsi ilə bağlı müraciət etməyə imkan yaradılmasını nəzərdə tutub. Siyasi partiyalar bütün bunların ağır və gözlənilməz nəticələrinin ola biləcəyini ifadə ediblər. Erməni katolikosu II Qaregin də xalqa müraciət edərək birliyi qoruyub saxlamağa çağırıb.

Ombudsman Arman Tatoyan da baş nazirin davranışını hüquqazidd adlandırıb. Çünki qanuna görə, məhkəmələrin işinə heç kim qarışa bilməz. Eyni zamanda, qanun məhkəmələrin qanunverici və icra orqanlarından tam müstəqil olmasını nəzərdə tutur. N.Paşinyan isə küçədən məhkəmələrin fəaliyyətinə təsir edərək onun qərarını dəyişməsini tələb edir. Bu üsul yalnız çağırış statusunda qalmayıb - Ermənistan prokurorluğu məhkəmə qərarının dəyişdirilməsi üçün addım atacağını bəyan edib.

Ekspertlər prezident A.Sarkisyanın baş verənlərə münasibəti ilə maraqlanıblar. O, vətəndaşları qanuna əməl etməyə çağırsa da, baş nazirin davranışına qarşı açıq çıxış etməyib. Prezident Ermənistan hakimiyyətinin xalqın ümumi iradəsini ifadə etməli olduğundan və öz konstitusion məqsədlərinə xidmət etməli olduğundan bəhs edib. Bunlar o deməkdir ki, Ermənistan prezidenti N.Paşinyanın hərəkətlərində şəxsi maraqlara üstünlük verdiyini görür və bunun konstitusiyaya uyğun olmadığını deyir. Reallıqda isə Ermənistan hökuməti xalqın maraqlarını gözləməlidir ki, bu da N.Paşinyan hökumətinin fəaliyyətində görünmür.

### Hüquq və məsuliyyət: ermənilər iki ifratçılıq arasında

Başqa bir maraqlı fikri Modest Kolerov söyləyib. O deyib ki, N.Paşinyan “ən axmaq və sadəlövh adamlara” anladır ki, R.Koçaryanın işi siyasi mahiyyətlidir. Və bu prosesi ortaya atan da N.Paşinyandır. “Və Paşinyan açıqcasına, utanmadan, heç nə gizlətmədən bütün məhkəmə sisteminə təzyiq edir, öz şəxsi problemlərinə görə bütün məhkəmə sistemini dəyişmək məqsədi güdür”. O, fikirlərinə davam edərək bildirib ki, bununla N.Paşinyan “siyasi motivi olan məhkəmə diktaturası” yaradır və R.Koçaryanla hesablaşmaq istəyir (bax: “168 жам”: Своим призывом блокировать вход в здания судов Пашинян дал понять, что дело Кочаряна политическое и он лично руководит им - М.Колеров/ “Tert.am”, 21 may 2019).

Belə görünür ki, Ermənistanda növbəti dəfə siyasi böhran yaranıb. İndi N.Paşinyan hüquq mühafizə sistemində öz xeyrinə dəyişiklik etməyə çalışır. R.Koçaryanın həbsdən buraxılması prosesinə mane olmur, lakin ondan dərhal sonra hay-küy salır. Belə görünür ki, bu prosesi ona görə təşkil ediblər ki, Ermənistanda ikinci siyasi dalğa yaransın. Bununla N.Paşinyan, birincisi, növbəti dəfə sosial-iqtisadi çətinliklərin günahını əvvəlki iqtidarın boynuna qoymağa çalışır. Yəni, demək istəyir ki, “baxın, mən ədalətli olmağa, xalq üçün işləməyə çalışıram, islahatların aparılmasına cəhd edirəm, ancaq bu lənətə gəlmiş əvvəlki iqtidarlar bütün planları pozur”.

İkincisi, Dağlıq Qarabağ məsələsinin Ermənistanın xeyrinə həll edilməsinə mane olan əvvəlki iqtidarın “DQR”dəki adamlarıdır. Onlar xəyanətkardırlar. Çünki torpaqların bir hissəsini Azərbaycana güzəşt etmək istəyirlər. Deməli, münaqişə hazırda Dağlıq Qarabağda oturan separatçılar vəzifələrindən gedəndən sonra həll edilə bilər.

Üçüncüsü, N.Paşinyan göstərmək istəyir ki, Ermənistanda islahatların genişləndirilməsində maraqlıdır. Bununla o, beynəlxalq təşkilatlara, xüsusən də Avropa İttifaqına işarə etmiş olur. Çünki seçkidən dərhal sonra Aİ rəsmiləri Ermənistanda real islahatların aparılmasını görmək istədiklərini ifadə etmişdilər. İndi N.Paşinyan bu görüntünü yaradıb, Avropadan pul qoparmağa cəhd edir.

Beləliklə, Ermənistanda hansısa islahatların və ya inqilabın “ikinci və ən əsas mərhələsi”ndən söhbət gedə bilməz. Orada söhbət regional meyarlara görə formalaşmış siyasi qrupların daxili çəkişmələrindən gedir. Bu prosesdə dolayısı ilə Qərb və Rusiya da iştirak edir. Moskva R.Koçaryan vasitəsilə İrəvana anladır ki, istənilən zaman istədiyi addımı ata, hətta Ermənistan hökumətinin iradəsini heçə sayaraq həbsdən öz adamını azad etdirə bilər. Təbii ki, bu, N.Paşinyana böyük zərbədir və o, çaşqın haldadır. Bunu ekspertlər də müşahidə ediblər.

Belə görünür ki, N.Paşinyan hökumətinin legitimliyinə ciddi zərbə dəyib. Erməni cəmiyyətində isə qütbləşmə dərinləşir. Bu prosesin əsas təkanverici faktoru regionçuluqdur. Onun fonunda isə köhnə sistemlə (yəni Rusiyaya sadiq olanlarla) yeni sistem (yəni Qərbin diktəsi ilə oturub-duranların sistemi) arasında ziddiyyət daha da dərinləşir. Real siyasi məzmunu olmayan bu iki istiqamət bütövlükdə ölkədəki mühiti sağlamlaşdırmağa xidmət edə bilməz. Onun yeganə nəticəsi yeni-yeni ziddiyyətlər və parçalanmalar ola bilər. Bu da onu göstərir ki, ermənilər, hətta monocəmiyyətdə belə sivil mübarizə apara bilmirlər. Politoloq Manvel Sarkisyan bu barədə maraqlı fikir söyləyib. O deyib ki, “...Ermənistanda hüquq və məsuliyyət haqqında ifrat yayğın təsəvvürlər mövcuddur. Biz o dərəcədə hər şeyə şübhə etməyə və dəyərsizləşdirməyə vərdiş etmişik ki, istənilən sağlam düşüncə xəncər-bıçaqla qarşılanır və şübhə altına alınır” (bax: Из-за чего ссорятся “две Армении” / “Росбалт”, 21 may 2019). Bizcə, bu, artıq ermənilərin tarixi-psixoloji problemlərindəndir.

***Newtimes.az***

# Mərkəzi Seçki Komissiyası 2019-cu il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub

Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 2019-cu il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının dəqiqləşdirilməsinə başlanılıb. Mərkəzi Seçki Komissiyasının (MSK) birbaşa rəhbərliyi altında mayın axırınadək ardıcıl və intensiv şəkildə gerçəkləşdirilən əhatəli proses nəticəsində siyahılar yüksək dəqiqliklə və keyfiyyətlə hazırlanıb.



Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin mərhələdə seçici siyahıları hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdirilərək fevralın 5-dək dairə seçki komissiyalarına verilib. Dairə seçki komissiyaları isə öz növbəsində seçki dairələri üzrə seçici siyahılarını dəqiqləşdirdikdən sonra əlaqədar qurumlardan daxil olan məlumatlarla bir daha təhlil edərək siyahıları aprelin 5-dək MSK-ya təqdim ediblər. Bundan sonra isə MSK seçicilərin daxil olduğu məlumat bazasını toplayıb, orada olan mümkün təkrar və qeyri-dəqiqlikləri seçicilərin məlumatlarının keyfiyyət və say təhlili üçün xüsusi proqram təminatı vasitəsi ilə bir daha dürüstləşdirərək prosesə yekun vurub.

Seçici siyahılarının dəqiqləşdirilməsi Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, o cümlədən yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində aparılıb, bu irimiqyaslı işə aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub. Həyata keçirilən müxtəlif layihələr, habelə MSK-nın qaynar xətləri və internet səhifəsindəki onlayn xidmət dəqiqləşdirmə prosesi ərzində vətəndaşlarımızın ixtiyarında olaraq, görülən işlərin effektivliyinin daha da yüksəldilməsinə mühüm töhfə verib.

Əvvəlki illərdə olduğu kimi, cari il də siyahıların dəqiqləşdirilməsi zamanı informasiya-kommunikasiya texnologiyalarının müasir yeniliklərindən və texniki imkanları daha da təkmilləşdirilən xüsusi proqram təminatlarından geniş istifadə edilməsi prosesin səmərəli həyata keçirilməsində və seçici siyahılarının yüksək standartlara uyğun tərtib və çap olunmasında əhəmiyyətli rol oynayıb.

MSK üzvləri və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mayın 29-da vahid seçici siyahılarının 2019-cu il üzrə yenidən tərtib edilən variantı ilə tanışlıq olub. Komissiyanın İnformasiya mərkəzinin zalında əyani şəkildə keçirilən təqdimat mərasimində diqqətə çatdırılıb ki, seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsi prosesi fasiləsiz onlayn rejimdə işləyən Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi vasitəsilə həyata keçirilib. Sözügedən sistemin yaratdığı yüksək texnoloji və interaktiv məlumat mübadiləsi imkanı siyahıların dəqiqləşdirilməsi və ümumiləşdirilməsi prosesini daha da sürətləndirərək, seçicilər barədə məlumatların toplanması, onların orfoqrafik və qrammatik testdən keçirilməsi, təkrar ehtimalına qarşı oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilməsi, eləcə də seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap edilməsini təmin edib.

Komissiya üzvləri seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanış olduqdan sonra MSK-nın iclası keçirilib. Məzahir Pənahovun sədrlik etdiyi iclasda 2019-cu il üzrə seçicilərin daimi siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin yekunları müzakirə olunub. Komissiya sədri M.Pənahov ilin əvvəlindən mayın sonunadək həyata keçirilən irimiqyaslı və əhatəli proses barədə geniş məlumat verib və bütün dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər aidiyyəti qurumlara öz təşəkkürünü bildirib.

İclasda seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı fəaliyyətin yekunları müzakirə edilib və MSK üzvləri ən son texnoloji nailiyyətlərdən də istifadə olunmaqla ilbəil həyata keçirilən dəqiqləşdirmə prosesindəki təkmilləşdirmələri və inkişaf dinamikasını xüsusi vurğulayıblar. Sonra komissiya 2019-cu il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi prosesini başa çatmış hesab edərək respublika üzrə seçicilərin daimi siyahısının rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verib.

Qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 5212902 seçici daxil edilib ki, onların da 49,17 faizi kişi, 50,83 faizi isə qadınlardır.

İclasda, həmçinin MSK-nın 2019-cu il 9 aprel tarixli iclasının protokolu təsdiq olunub, bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

Qərar №3/8

### Mərkəzi Seçki Komissiyasının 9 aprel 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 9 aprel 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

Sədr Məzahir Pənahov
Katib Arifə Muxtarova
Katib Mikayıl Rəhimov

*29.05.2019*

Qərar №3/10

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. İmamyar Bilman oğlu İsmayılov 39 saylı Kəpəz birinci (Gəncə), Asif Niftalı oğlu Hüseynov 94 saylı Bərdə kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Məntiq Bahadur oğlu Cəfərov 38 saylı Nizami ikinci (Gəncə), Namiq İnqilab oğlu Quliyev 94 saylı Bərdə kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

Sədr Məzahir Pənahov
Katib Arifə Muxtarova
Katib Mikayıl Rəhimov

*29.05.2019*

Qərar №3/9

### Azərbaycan Respublikasında 2019-cu ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq hər ilin əvvəlindən başlayaraq məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib edildikdən sonra daimi seçici siyahıları (onların dürüstlüyünün təmin edilməsi məqsədilə) Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim edilməli, bununla əlaqədar müvafiq iş aparıldıqdan sonra həmin siyahılar may ayının 30-dan gec olmayaraq müvafiq məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunmalı və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir.

Cari ilin seçici siyahılarının tərtib edilməsi işi yuxarıda göstərilən qaydada aparılaraq yekunlaşmış və onların aşağı seçki komissiyaları tərəfindən təsdiq edilməsi və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilməklə ictimailəşmə mərhələsi başlanmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 46.1-ci və 46.12-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikasında 2019-cu ilin daimi seçici siyahılarının dəqiqləşdirilməsi və tərtib edilməsi işi başa çatmış hesab edilərək siyahılar məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilməsi üçün müvafiq dairə seçki komissiyalarına göndərilsin.
2. Tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə təsdiq edilməsi işinin təşkili aidiyyəti üzrə müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.
3. Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısı dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin.
4. Qərarın icrası Mərkəzi Seçki Komissiyasının Katibliyinə və müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.
5. Bu qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov
Katib Arifə Muxtarova
Katib Mikayıl Rəhimov

*29.05.2019*

# Qazaxıstan hökuməti Transxəzər magistralı sazişini təsdiq edib

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi "AzerTelecom" şirkətinin iştirakı ilə icra edilən və Transxəzər magistralı layihəsi üzrə Azərbaycanla Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik magistral kabel xəttinin çəkilməsini nəzərdə tutan dövlətlərarası saziş Qazaxıstan hökuməti tərəfindən təsdiq edilib.



Martın 19-da imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" dövlətlərarası saziş bu ilin aprel ayında Azərbaycan parlamenti tərəfindən ratifikasiya edilib və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilib. Mayın 17-də isə sözügedən saziş Qazaxıstan hökuməti tərəfindən də təsdiq olunub.

Sənədə əsasən, Transxəzər magistralının çəkilişi Azərbaycan tərəfdən "Bakcell" şirkətinin törəmə müəssisəsi olan "AzerTelecom" şirkəti, Qazaxıstan tərəfdən isə bu ölkənin telekommunikasiya operatorları olan "Transtelecom" və "KazTransCom" şirkətləri tərəfindən icra ediləcək. Bu məqsədlə iki ölkəni təmsil edən şirkətlər arasında ümumi uzunluğu 380-400 kilometr olacaq Transxəzər magistralının çəkilməsi ilə bağlı artıq konsorsium təsis edilib, birgə İşçi qrupu yaradılıb və tikinti üzrə müştərək müqavilə də imzalanıb.

"AzerTelecom" şirkətinin "Azerbaijan Digital HUB" proqramı çərçivəsində icra edilən Transxəzər magistralı layihəsi Avropa ilə Asiya arasında rəqəmsal telekommunikasiya dəhlizinin (Rəqəmsal İpək Yolu) yaradılmasını nəzərdə tutur. Layihənin məqsədi Azərbaycan-Qazaxıstan marşrutu üzrə Avropadan Çinə qədər Azərbaycan və Qazaxıstandan keçəcək rəqəmsal dəhlizin yaradılması və beləliklə də, Orta Asiya və Çinə internet trafikinin ötürülməsidir.

"Digital HUB" proqramı çərçivəsində icra edilən Transxəzər fiber-optik magistralı layihəsinin ümumilikdə böyük bir regionun fiber-optik kabel infrastrukturunun inkişafında, Qafqaz, Orta Asiya və Cənubi Asiya, eləcə də digər ətraf regionların yüksək sürətli internet bağlantısı və qabaqcıl rəqəmsal xidmətlərlə təmin edilməsində müstəsna rolu olacaq. Layihənin icrası, həmçinin Çinin təşəbbüskarı olduğu "Belt and Road Initiative" (BRI) layihəsinə də öz töhfəsini verəcək və Azərbaycanı "Belt and Road Initiative" (BRI) layihəsinin telekommunikasiya dəhlizinə çevirəcək.

Xatırladaq ki, "AzerTelecom" Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edir. "Digital HUB" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir.

# Döyüş məntəqələrinə səfər təşkil edilmişdir





Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) arasında əməkdaşlıq münasibətləri çərçivəsində 28 may tarixdə Dövlət Sərhəd Xidmətinin "Qazax" sərhəd dəstəsinin sərhəd döyüş məntəqələrinə səfər təşkil edilmişdir.

Səfər zamanı Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli şəxsi heyətin qidalanma şəraiti, qidaların emal olunması və qida məhsullarının saxlanılması vəziyyəti ilə tanış olmuş, hərbi hissənin yeməkxanasında əsgərlərlə birlikdə nahar etmişdir.

*"Azərbaycan"*

# DSX-nin hərbi hospitalının rəisi Beynəlxalq Hərbi Tibb Komitəsinin 43-cü Konqresində Azərbaycanı təmsil edib





Beynəlxalq Hərbi Tibb Komitəsinin İsveçrənin Bazel şəhərində keçirilmiş 43-cü Konqresində ölkəmizi Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi hospitalının rəisi, əməkdar həkim, tibb xidməti polkovniki Kənan Yusifzadə təmsil edib.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, altı gün davam edən konqresin "Hərbi tibb və cərrahiyyə döyüş meydanında" bölməsində professor Kənan Yusifzadə "Bir tibb müəssisəsinin idarə olunmasında hərbi və mülki təşkilatların optimal inteqrasiyası: Azərbaycan modeli" mövzusunda çıxış edib. Çıxışda DSX hərbi hospitalının nümunəsində respublikada hərbi və mülki tibbi təşkilatların qarşılıqlı fəaliyyəti, hərbi və mülki tibbi doktrinanın resurslarından səmərəli istifadə edilməsi, tibbi xidmətlərin göstərilməsi və idarə olunması təcrübəsi haqqında ətraflı məlumat verilib.

Konqres çərçivəsində Fransa, Almaniya, İsveçrə, ABŞ və digər ölkələrdən olan tibb mütəxəssisləri ilə maraqlı fikir mübadiləsi aparılıb. Həmçinin İsveçrənin kimyəvi və bioloji müdafiə üzrə Federal İnstitutuna və İsveçrə Silahlı Qüvvələrinin əczaçılıq mərkəzinə tanışlıq səfərləri edilib.

*"Azərbaycan"*



# Avropa Parlamentinə seçkilərdə inqilab baş vermədi

## Gündəmdə əsas məsələ Aİ orqanlarında rəhbər vəzifələri bölüşdürməkdir

Ötən bazar günü Avropa Parlamentinə (AP) keçirilmiş seçkilər hələ də köhnə dünyanın siyasi həyatında əsas müzakirə mövzusu olaraq qalır. Səsvermənin exit-polla əsaslanan ilkin nəticələri məlum olsa da, Avropa İttifaqında (Aİ) mübarizə başa çatmamışdır. Seçkilərdə bəzilərinin gözlədiyi kimi, inqilab baş vermədi. AP-da hakimiyyətin sağ populistlərə (ifrat millətçilər) keçməsi arzu olaraq qaldı. Avropalı seçicilərin dörddə üçü Aİ-nin qorunub saxlanmasının tərəfdarı olan siyasi partiyaları dəstəklədi.

Bununla belə, bəzi ölkələrdə populistlərin uğuru narahatlıq doğurmaya bilməz. Fransada Marin Le Penin liderlik etdiyi "Milli birlik" partiyası AP-a seçkilərdə qələbə qazanmış, Prezident Emmanuel Makronun "İrəli, respublika"sı isə ikinci olmuşdur. Yeri gəlmişkən, siyasi icmalçılar hesab edirlər ki, səsvermənin nəticələri Makronun nüfuzuna sarsıdıcı zərbədir. İtaliyada daxili işlər naziri Matteo Salvininin liderlik etdiyi "Şimal Liqası" partiyası seçkilərdən qalib çıxmışdır. Macarıstanda populistlər çoxdandır ən güclü partiyadır. Polşada isə populistlər elə də çox səs toplamasalar da, hələ də ən güclü siyasi qüvvədir.

Aİ-nin aparıcı siyasi qüvvələri - xristian-demokratları təmsil edən Avropa Xalq Partiyası (AXP) və "Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı"dan (SDMA) olan sosial-demokratlar xeyli seçici itirmişdir. Bu iki fraksiya ilk dəfə olaraq AP-da əksəriyyətə nail ola bilməmiş və ona görə də azı bir partiya ilə koalisiya qurmağa məhkumdur. Öz növbəsində populistlər xeyli irəliləyiş əldə etməyə baxmayaraq, AP-da nüfuzlu qüvvə kimi özünü göstərə bilməyəcək. Onlar, sadəcə olaraq, AP-ın işinə maneçilik törədəcəklər.

İndi əsas məsələ növbəti beş il müddətinə Aİ-də mühüm orqanlara hansı şəxslərin rəhbərlik etməsidir. Xatırlatmaq yerinə düşər ki, bu il oktyabrın 31-də Avropa Komissiyasının (AK) sədri Jan-Klod Yunkerin və AK-ın qalan 27 üzvünün, eləcə də Aİ Şurasının sədri Donald Tuskun və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerininin səlahiyyət müddəti bitir. Bu şəxslərin heç biri yenidən namizədliyini irəli sürməyəcək. AP səlahiyyətlərinə uyğun olaraq Aİ-nin sözügedən orqanlarının rəhbərlərini təsdiqləyəcək. Üstəlik, AP-ın yeni spikeri seçilməlidir. Bu məqsədlə srağagün Brüsseldə Aİ-nin şam yeməyi şəklində qeyri-rəsmi sammiti keçirilmişdir.

Lakin qeyri-rəsmi sammit Aİ-nin aparıcı orqanlarının rəhbərliyinə namizədləri müəyyənləşdirməkdən vaz keçmişdir. Zirvə görüşündə konkret adlar müzakirə olunmasa da, köhnə fransız-alman rəqabətinin ruhu özünü göstərmişdir. Mübahisə doğuran əsas məsələ AK-ın sədrini seçməkdir. AP-a beş il əvvəl keçirilmiş seçkilər ərəfəsində Aİ liderləri belə bir prosedur tətbiq etmişdilər ki, hər bir Avropa partiyası AK-ın sədri vəzifəsinə öz namizədini seçəcək, seçkilərdə birinci yeri tutmuş siyasi qüvvənin nümayəndəsi əsas namizəd olacaq. 2014-cü ildə belə də oldu: AXP-nin namizədi Jan-Klod Yunker AK-ın sədri vəzifəsini tutdu.

Bu dəfə isə AK-ın sədrini müəyyənləşdirmək proseduru işləməyəcək, çünki Fransa Prezidenti Emmanuel Makronun başçılıq etdiyi bir qrup Aİ lideri qalib partiyanın təmsilçisinin avtomatik olaraq sözügedən vəzifəyə namizəd göstərilməsinə qarşı çıxmışdır. Qeyri-rəsmi sammitdə həmin mövqe bir daha təsdiqlənmişdir. Başqa sözlə, prezidentlər və baş nazirlər AK-ın sədri vəzifəsinə namizədi müəyyənləşdirmək hüququndan imtina etmək niyyətində deyillər. AK-ın sədri kreslosunda əyləşmək üçün namizəd ikili əksəriyyət əldə etməlidir: Aİ əhalisinin minimum 65 faizini təşkil edən 28 üzv-ölkədən 21-nin dəstəyini qazanmalı, həm də AP-da sadə səs çoxluğuna nail olmalıdır.

AP-a son seçkilərdə birinci yeri tutmuş AXP-nin namizədi - alman Manfred Veberdir. Almaniya Kansleri Angela Merkel AK-ın sədri vəzifəsində məhz Veberi görmək istəyir. Əldə olan məlumata görə, Makron alman namizədin əleyhinədir və öz həmyerlisinin - Brexit üzrə danışıqlarda Aİ-nin nümayəndə heyətinin rəhbəri Mişel Barnyenin namizədliyini irəli sürmək fikrindədir. Makron qeyri-rəsmi sammitdən sonra bildirmişdir ki, Aİ orqanlarında rəhbər vəzifələri xarizmatik, yaradıcı və məsuliyyətli şəxslər tutmalıdırlar. O, AK-ın rəhbəri vəzifəsinə mümkün namizədlər barədə sualı cavablandırarkən Barnye ilə yanaşı, rəqabət üzrə Avropa komissarı Marqret Vestagerin və AK sədrinin birinci müavini Frans Timmermansın adlarını çəkmişdir. Makronun namizəd kimi Veberi qeyd etməməsi, görünür, təsadüfi deyil: AXP-nin təmsilçisinin nə hökumətdə, nə də AK-da iş təcrübəsi var.

Öz növbəsində Kansler Merkel Brüsseldə bütün tərəfləri dözümlü və kompromisə hazır olmağa çağırmışdır. Onun fikrincə, elə qərarlar qəbul etmək lazımdır ki, sonradan işi mürəkkəbləşdirməsin. Merkel həm də etiraf etmişdir ki, AK-ın sədri vəzifəsində Yunkerin xələfinin müəyyənləşdirilməsi məsələsində fikir ayrılığı mövcuddur.

Görünür, Aİ orqanlarına rəhbər şəxslərin seçilməsi məsələsində kompromis əldə etmək üçün xeyli vaxt tələb olunacaq. Ona görə də Aİ liderləri Brüsseldə uzun-uzadı mübahisəyə girməyib Aİ Şurasının sədri Tuska üzv-dövlətlər arasında sazişə nail olmaq üçün danışıqlar aparmağı və Birliyin gələn ayın 20-21-də keçiriləcək növbəti sammitində namizədləri təqdim etməyi tapşırmışlar.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

## İstiqlal mücahidi

# Ən ağır dərd - qürbətdə ölmək...



"Yelizavetpol quberniyasının Şuşa, Zəngəzur və Nuxa qəzaları ilə ali silkə mənsub olmaq hüquqlarını müəyyən etmək üçün yaradılmış Şuşa bəy komissiyasının 21 dekabr 1827-ci il 374 saylı protokoluna əsasən Əli Paşa bəy Xan Murad bəy oğlu Sultanovun, onun arvadı Bəyim xanımın, oğlu Sultan bəyin, qızı Aftab xanımın bəy nəslinə mənsub olması təsdiq edilir". Şuşa bəy komissiyasının bu qərarı 16 avqust 1877-ci ildə Qafqaz canişini tərəfindən təsdiq edildi. Əli Paşa bəy Sultanov və onun ailə üzvləri Yelizavetpol quberniyasının Zəngəzur qəzasının bəyləri siyahısına daxil edildi.

Bu şəhadətnamə veriləndən iki il sonra - 1879-cu il mayın 10-da Əli Paşa bəy Sultanovun ailəsində bir uşaq da dünyaya gəldi. Onu Xosrov bəy adlandırdılar. Qafan mis mədənləri, Bərgüşad çayının axarı boyu əkin, Çalbayır otlaq sahələri bu ailəyə - Sultanbəylərə məxsusdu. Evin böyüyü - Əli Paşa bəy mahalın sayılıb-seçilən, sözünün üstünə söz deyilməyən ağsaqqallarından idi. Əsilzadəliyi, mərdanəliyi ilə övladları da ona bənzəyirdilər. Dünyaya göz açdıqları yurd da igidlər məkanıydı. Zəngəzur qəzasının Hacısamlı nahiyəsinin Kürdhacı kəndi, Qasımuşağı obası (indiki Laçın rayonu) yalnız Azərbaycanın deyil, bütövlükdə dünyanın ilk insan məskənlərindən biri idi.

Əli Paşa bəy övladlarının tərbiyəsi ilə ciddi məşğul oldu. Sultan bəy hərb sənətinin sirlərinə yiyələndi. Xosrov bəy isə Gəncə gimnaziyasını bitirdikdən sonra Odessa Tibb Universitetinə daxil oldu. Sonralar ictimai-siyasi hadisələrin tez-tez qarşılaşdıracağı Nəriman Nərimanovu da tələbəlik illərində tanıdı, dostlaşdı.

### İstiqlal Bəyannaməsini imzalayan 26 nəfərdən biri

Xosrov bəyin cəsarəti, qətiyyəti o zamanlar da bəlliydi. Tələbəlik günlərinin birində o, rus zabitin yoldan keçən qıza sataşdığını gördü. Xosrov bəyin qızı müdafiə etməsi duellə nəticələndi. Birinci gülləni atmaq haqqından istifadə edən zabit Xosrov bəyi gözündən yaraladı. Ancaq sağ qalan Xosrov bəy oldu. O, Odessa Universitetinin rektorunun qızının yolunda duelə çıxdığını sonradan öyrəndi. Qızla evləndi. Murad adlı oğlu dünyaya gəldi. Ancaq uşağın ömrü qısa oldu.

1903-cü ildə Xosrov bəy universiteti bitirib vətənə döndü. Zəngəzurda, Qarabağda topladığı zəngin bitkilərdən hazırladığı dərmanlarla kəndlərə gedir, xəstələri təmənnasız müalicə edirdi. Gənc həkim həm də xalqının tarixi, ədəbiyyatı, mədəniyyəti ilə maraqlanır, araşdırır, öyrənirdi.

Xosrov bəy Bakı müsəlman Xeyriyyə Cəmiyyətinin Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkil də oldu. "Qafqaz cəbhəsində qaçqınların yerləşdirilməsi üzrə baş müvəkkillik" adlı bu təşkilatın baş müvəkkili general-mayor Tamamşev 1916-cı il iyunun 4-də Xosrov bəy Sultanova göndərdiyi teleqramda bildirirdi: "Rəhbərlik etdiyiniz cəmiyyətin nəzdində neçə yetimxananın mövcudluğu və onlara nə qədər kimsəsizin yerləşməsi, habelə onların hökumət tərəfindən tam təmin olunması və ya cəmiyyətinizin də köməyinə ehtiyac olması haqqında mənə məlumat verməyinizi xahiş edirəm".

İctimai-siyasi hadisələr getdikcə daha da mürəkkəbləşirdi. Belə gərgin, xalqı, vətəni üçün məsuliyyətli zamanda Xosrov bəy də siyasət meydanına atıldı. "Müsavat" partiyasına 1917-ci ildə daxil oldu, Rusiya Müəssislər Məclisinə deputat, Zaqafqaziya seyminə üzv seçildi. 1918-ci ildə "İttihad" partiyasına keçdi. Xosrov bəy Sultanov 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsini imzalayan 26 nəfərdən biri oldu. Tiflisdə Azərbaycan Milli Şurası tərəfindən təsdiq olunan Birinci hökumət kabinetində hərbi nazir vəzifəsini tutdu. Azərbaycan Milli Şurasının və hökumətinin qurulduğunu, məqsəd və vəzifələrini bəyan etmək, qayda-qanun yaratmaq məqsədilə Nəsib bəy Yusifbəyli və Şəfi bəy Rüstəmbəyli ilə birgə ilk nümayəndə heyətinin tərkibində Gəncəyə gəldi. Xosrov bəy 1918-ci il iyunun 17-də təşkil edilən İkinci hökumət kabinəsində əkinçilik naziri oldu.

### Qarabağın general-qubernatoru

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin yayında Ermənistan daşnak hökumətinin Zəngəzur bölgəsində azərbaycanlılara qarşı dövlət səviyyəsində həyata keçirdiyi soyqırımı siyasətinin, Andronikin, Njdenin, Dronun quldur dəstələrinin Cavanşir, Cəbrayıl, Şuşa qəzalarında törətdiyi kütləvi qətllərin, qarətlərin qarşısını almaq məqsədilə Müvəqqəti Qarabağ general-qubernatorluğu yaratdı. Xosrov bəy Sultanov 1919-cu ilin 29 yanvarında Qarabağın general-qubernatoru təyin olundu. Azərbaycan hökumətinin öz tarixi torpaqlarında general-qubernatorluq yaratması, üstəlik bu vəzifəyə Xosrov bəyi təyin etməsi daşnakları təşvişə saldı. Ermənilər Sultanbəyləri yaxşı tanıyırdılar. Xosrov bəyin atası Zəngəzurda ədaləti, düzgünlüyü sevən, qorxmaz adam kimi ad-san qazanmışdı. Hələ 1905-ci il erməni-müsəlman hadisələrində müsəlman dəstələrdən birinə başçılıq edirdi. Böyük qardaşı Sultan bəy atasının ən yaxın köməkçisi, silahdaşı idi. Elə o vaxtlar - 1905-ci il erməni-müsəlman hadisələrində göstərdiyi şücaətlə Sultan bəy xalq qəhrəmanına çevrildi...

Ermənistan Xarici İşlər Nazirliyi Rusiya hökumətinə və digər aparıcı dövlətlərə, beynəlxalq təşkilatlara şər, böhtan dolu müraciətlər etdi. Qarabağın erməni milli yığıncağı isə Xosrov bəy Sultanovun təyinatına etiraz məktubunda yazırdı: "Qarabağın erməni milli yığıncağı Azərbaycan hökuməti tərəfindən təyin olunan general-qubernatorla bağlı bildirir ki, onlar heç vaxt bu faktla barışmayacaqlar".

Xosrov bəy Sultanov Şuşaya gələn kimi daşnak Andronik başda olmaqla erməni quldur dəstələriylə amansız mübarizəyə başladı, təhlükəli yerlərdə Milli Ordunun əsgərlərindən ibarət mühafizə dəstəsi yaratdı. 1919-cu ilin 21 martında erməni daşnakları Qarabağa yeganə keçid olan Əsgəran keçidini tutdular. Dronun hərbi dəstələri Xosrov bəyin başçılıq etdiyi Azərbaycan əsgərləri tərəfindən mayın 30-da darmadağın edildi, Xankəndi və Şuşa geri alındı. Qarabağın general-qubernatoru erməni milli yığıncağından nəzarətində olan silahlı dəstələri buraxmağı, Qarabağda əmin-amanlığın təmin olunmasına maneçilik törətməməyi tələb edirdi. Bu dəfə daşnaklar cümhuriyyətin hərbiyyə nazirinin Xosrov bəyi general-qubernatorluqdan geri çağırdığı barədə şayiə yaydılar. Üzeyir bəy Hacıbəyli "Azərbaycan" qəzetinin 1919-cu il 24 iyun tarixli sayında bu barədə yazırdı: "Həqiqətən, o, Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşina olan bu zat sağlam bir vücudə malik olan kimi, sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan yerin ümumi mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni camaatı tərəfindən dəxi möhtərəm sayılan bu zat Qarabağın hökuməti başında olmasa idi, burası - Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital olmuşdu".

Xosrov bəy 1918-1920-ci illərdə daşnakların Qarabağ və Zəngəzurdan təmizlənməsində qardaşı Sultan bəylə birgə misilsiz xidmət göstərdi. Onlar ümumi işin xeyrinə aralarında illərdir ədavət olan bəylərin ayağına gedir, bütün gücləri birləşdirməyə, birgə mübarizəyə çağırırdılar. Sultanovlar öz var-dövlətlərini Türkiyə və İrandan silah-sursat almağa sərf edir, Azərbaycan Xalq Cümhuriyyətinin qorunmasında böyük işlər görürdülər.

### Düşmən hiyləsi... həbsxana divarları...

1919-cu ilin yayında ermənilərin ərazi iddiası irəli sürdükləri Qarabağ, Zəngəzur və digər yerlərdə Azərbaycanın müstəqilliyinin bərqərar olmasında Xosrov bəy Sultanov müstəsna xidmət göstərdi. Onun mübarizliyi, hərbi şücaəti sayəsində Şuşadakı gizli daşnak komitəsi üzvlərinin qaçmaqdan başqa yolları qalmadı. Buna cavab olaraq erməni yaraqlıları Şuşada silahlı toqquşma törətsələr də, ertəsi gün - iyunun 6-da sülh əldə edildi, şəhərdəki dinc ermənilər üzrxahlıq məktubu yazıb, daşnakların fitnəkarlığına görə Xosrov bəyin şəxsində Şuşanın müsəlman əhalisindən üzr istədilər. 1919-cu ilin avqustunda Xosrov bəy Qarabağda yaşayan ermənilərə yığıncaq keçirərək Azərbaycan hökumətinə tabe olmaq qərarını qəbul etdirə bildi. Həmin ilin sentyabrında Azərbaycan hökuməti burada məskunlaşmış ermənilərə mədəni muxtariyyət verdi.

Cümhuriyyət hökuməti 1919-cu ilin oktyabr-noyabr aylarında asayişin bərpası üçün Qarabağa Cavad bəy Şıxlınskinin rəhbərliyi ilə 1-ci piyada diviziyasını göndərdi. Xosrov bəyin göstərişi ilə Sultan bəy də bu döyüşlərə qoşuldu.

Erməni-müsəlman münaqişəsinə son qoyulması məqsədilə 1919-cu il noyabrın 23-də ABŞ-ın köməyi və vasitəçiliyilə Azərbaycan hökuməti və Ermənistan arasında müqavilə bağlandı. Ancaq bu müqavilədən çox keçməmiş ermənilər Zəngəzurda və Qarabağda azərbaycanlılar yaşayan kəndlərə yenidən hücumlar etdilər. Əli hər yerdən üzülən Andronik bolşevik Rusiyası ilə danışıqlar apardı, aldığı dəstək sayəsində yeni silahlı dəstə yaratdı. Onun Zəngəzuru, Qarabağı və Gəncəni tutaraq yenidən Stepan Şaumyanın bolşevik-daşnak hərbi hissələri ilə birləşmək, Şimali Azərbaycanda erməni hakimiyyətini genişləndirmək niyyətini bu dəfə də Sultan bəy və Xosrov bəy qardaşları puça çıxardılar.

1920-ci ildə bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirə bildilər. Təhlükələrə baxmayaraq, Xosrov bəy vətənini tərk etmədi. Bolşeviklər cümhuriyyət hökumətinin seçilən nümayəndələrindən biri kimi ona da aman verməyəcəkdilər... Xosrov bəy Nəriman Nərimanov, Çingiz İldırım kimi nüfuzlu söz sahibləri sayəsində Şuşada İnqilab Komitəsinin rəhbərliyində saxlandı. Amma hakimiyyət strukturlarında, XI ordunun rəhbərliyində, NKVD-də özlərinə yer tapmış daşnaklar Xosrov bəy və Sultan bəy qardaşlarının qanına susamışdılar. Bakıdan onun həbsinə razılıq ala bilməyib Moskvaya donoslar göndərirdilər. Nəhayət, Serqo Orconikidze və Mikoyanın razılığı ilə Xosrov bəy rus ordusunun xüsusi idarəsinin zabitləri tərəfindən həbs edilərək Bayıl türməsinə aparıldı. Bu xəbərə çox sevinən ermənilər yenidən Ermənistana birləşmək tələbi ilə Şuşada, Vərənddə Azərbaycan hökumətinə qarşı üsyan qaldırdılar. Qəza İnqilab Komitəsinin rəhbəri Şamil Mahmudbəyov 1920-ci ilin dekabrında Nəriman Nərimanova, Həmid Sultanova, Əliheydər Qarayevə məktub yazaraq Xosrov bəyin bölgədə böyük nüfuzunu, sülhpərvərliyini, dinc azərbaycanlı ailələrin erməni silahlılarından qorunmasında misilsiz xidmətlərini əsas gətirərək onun azad edilməsini xahiş etdi. O, Xosrov bəyi zaminə, loyallığı, bütün hərəkətləri üçün şəxsən məsuliyyəti öz üzərinə götürməyə hazır olduğunu bildirdi. 1921-ci il fevralın 15-də Şamil Mahmudbəyov göndərdiyi məlumatda daşnakların daha da azğınlaşdığını yazaraq Bakıdan yardım istədi. O, Qarabağ və Zəngəzurda böyük nüfuzu olan Sultan bəyin imkanlarından istifadə olunmasını, bunun üçün əvvəlcə Xosrov bəyin azadlığa çıxarılmasını təklif etdi. Ancaq Xosrov bəyi zindana salanların məqsədi onu aradan götürmək idi... Eyni aqibət Sultan bəyi də gözləyirdi. 1920-ci il mayın 31-də XI ordu hissələri Zəngəzura yenidən hücuma keçdi, 1921-ci il iyulun 23-də Sultan bəyin hərbi dəstələri tərksilah edildi. O, sovet hakimiyyətindən qaçaq düşdü, Kürdhacı kəndində Gorgahatın meşəsində, yarğanda gizləndi. Ermənilərin hiylələri ilə bolşeviklər ona sui-qəsd hazırlayırdılar.

Erməni daşnakları arzularına çata bilmədilər. Xosrov bəy Sultanov Bayıl türməsindən qaçırıldı. Bəzi araşdırmaçılar bolşevik hökumətində hərbi və dəniz işləri üzrə xalq komissarı olan Çingiz İldırımın əmisi oğlunun - Xosrov bəyin həbsinə və onu gözləyən ölümə laqeyd qalmayaraq xüsusi əməliyyat planı qurduğunu, bəziləri isə Nərimanovun öz tələbəlik dostunu həbsxanadan qurtardığını yazırlar.

### Gerçək olmayan ümid...

Laçına yetişən Xosrov bəy qardaşları Sultan bəy və İsgəndər bəylə İrana yollandı. Gedəndə tezliklə geri dönəcəklərinə, Azərbaycan Xalq Cümhuriyyətinin yenidən bərqərar olacağına ümidliydilər. İranda nə erməni daşnakları, nə də bolşeviklər onlardan əl çəkdilər. İsgəndər bəy mühacirətdə sovet hökumətinin xüsusi təyinatlı dəstələri tərəfindən qətlə yetirildi. Xosrov bəylə Sultan bəy Türkiyəyə getmək məcburiyyətində qaldılar.

General Xosrov bəy Sultanovun 1923-cü ildən başlanan mühacirət həyatı uzanırdı. O, yenə vətənin azadlığı uğrunda mübarizəsini davam etdirirdi. Qürbətdə sədri seçildiyi "İttihad" partiyasının xarici ölkələr bürosunu formalaşdırmağa və ittihadçıları bir təşkilat ətrafında birləşdirməyə çalışırdı. Azərbaycan istiqlalı ilə bağlı məqalələr yazırdı.

Xosrov bəy İranda, Türkiyə, Fransa və Almaniyada yaşadı. Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışdı. İkinci Dünya müharibəsi illərində yüzlərlə azərbaycanlı əsirin müalicəsi, xilası, onlardan ibarət xüsusi dəstələrin yaranmasında səy göstərdi. O zaman bütün siyasi mühacirlər kimi, almanların hücumundan ümidlənən Xosrov bəy fəaliyyətini daha da genişləndirdi. Ancaq vətənə qovuşmaq yenə ümiddən, arzudan gerçəkliyə dönmədi. Müharibədən sonra da o, siyasi fəaliyyətini davam etdirdi.

Qardaşı Sultan bəy 1942-ci ildə Qars ətrafında, Köçkoy kəndində vətən həsrəti ilə dünyadan köçdü. Xosrov bəyin isə 1947-ci ildə Trabzonda vəfat etdiyi söyləndi. 2016-cı ilin fevralında məzarının yeri dəqiqləşdirildikdən sonra onun 1943-cü il yanvarın 7-də dünyasını dəyişdiyi, məzarının İstanbulun Feriköy qəbiristanlığında olduğu məlum oldu.

Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparmış, məmləkətinin düşmənləri tərəfindən sonunda ən ağır cəzaya - ömrünü qürbətdə başa vurmağa məhkum edilmiş bütün mücahidlərimiz kimi, Xosrov bəy Sultanov da bu dünyadan arxayın getmədi. Azərbaycan Xalq Cümhuriyyətinin uzaqgörən ilk hərbi naziri, millətinin düşmənlərini yaxşı tanıyan vətənpərvər sanki uzun illər sonra - XX əsrin sonlarında baş verə biləcəklərdən narahat, Zəngəzurdan, Zəngilandan, Qubadlıdan, Laçından, Şuşadan, Xankəndidən... bütöv vətənindən nigaran idi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Azərbaycan əcnəbilərin gözü ilə

# "Mənə ömrümün ən gözəl anlarını bəxş etdiyiniz üçün sizə də, Azərbaycana da minnətdaram"

Səyyah haqqında nə bilirik? Nə üçün insanlar ev-eşiyindən qopub dünyanın o biri başına yola düşür, dincliklərini pozur, həyatlarının adi axarına xılt qatırlar? Onların axtardıqları nədir və gözləntilərinin əvəzini ödəyən nəsə tapa bilirlərmi? Bu səyahət onlara nə bağışlayır, ruhlarında, düşüncələrində nəyi dəyişir, hansı yeni mənəvi qidanı verir? Bütün bu suallara cavab tapmaq üşün İtaliyanın Toronto şəhərindəki fotostudiyanın əməkdaşı Aleksey Pivovarovla birlikdə italiyalı xanım Liziya Dell Olionun dağlara səfərini birlikdə izləməyə qərar verdik.













*Fotolar Aleksey Pivovarovundur (İtaliya)*



Bircə onu deyək ki, Liziya Alekseylə birlikdə Azərbaycana gəlib, həm onun rəfiqəsi, həm də köməkçisidir. Bu səfərdə biz Liziyanı irəli buraxıb, özümüz sadəcə müşahidəçilərə çevrildik və ölkənin şimalına, zirvələrə sarı yola düşdük. Gözlənilməz səhnələrlə qarşılaşdıq, heç ağlımıza da gəlməzdi ki, adi bir əcnəbinin səfərinə kənardan baxmağımız bu qədər ecazkar və romantik olacaq.

"Yolçu yolda gərəkdir" dedik və dan yeri söküləndə Bakıdan çıxdıq. Qubaya da tez çatdıq, şəhəri gəzib-dolaşdıq, Qusara baş çəkdik. Liziyanı Bakıdan Qubayadək kim gördüsə, "azərbaycanlıdır" dedi. Qusarda bazarlıq edəndə isə onun italyan olduğuna and içsək də, ləzgi qadınları inanmadılar, "bizim rayonun Mucuq kəndinin qızlarına bənzəyir" dedilər. Qızı ləzgicə danışdırdılar, o da italyan dilində cavab verəndə könülsüz inandılar ki, doğrudan da italiyalı imiş. Hətta bir az kefləri də pozuldu. Qırmızı qəsəbədə yəhudilər də onu özününkü saydılar. Liziya Azərbaycanda müxtəlif millətlərin onu özününkü saymasını hədsiz sevinclə qarşıladı: - Məni İtaliyada kiməsə oxşadıblar, hansısa bir qohumuna, ya da tanışına bənzədiblər. Amma buradakı kimi yox, heyrətamizdir, inanılası deyil! Mən qürur duyuram, qürbətdə deyiləm, sanki İtaliyanın cənubunda, öz evimdəyəm. Mənəvi cəhətdən çox xoşbəxtəm. Bilirsinizmi, İtaliyanın cənubunda qadının elə sizdəki kimi öz yeri var. Biz hətta süfrə arxasına əyləşəndə belə masanın bir tərəfinə kişilər, digər tərəfinə də qadınlar əyləşir.

Liziyanı hamının özününkü və doğma saymasının başqa bir izahı da var. Bu, dünyanın heç yerində rast gəlinməyən unikal Azərbaycan tolerantlığı ilə bağlıdır. Bu tolerantlıq əslində Azərbaycanda yaşayan bütün xalqların və milli azlıqların ümumi sərvətidir. Biz xalq kimi həmişə digər millətlərə böyük dəyər vermişik, rəğbətlə yanaşmışıq, ən başlıcası, özümüzdən ayırmamışıq, qaynayıb-qarışmışıq.

Bizim üçün Quba Rayon İcra Hakimiyyətinin ayırdığı "Niva"ya minib dağlara yola düşürük. Əlik İƏD icra nümayəndəsinin müavini Mübariz Rüstəmovla Əlik kəndində görüşüb maşınımızı dəyişirik və ən çətin yolları ram edə bilən "Uaz"la Haput kəndinə üz tuturuq.

Qubanın bənzərsiz özəlliklərindən biri də rayonda azərbaycanlılarla birlikdə digər millətlərin əsrlər boyu dinc və mehriban yaşamalarıdır. Burada dağlarda elə kəndlər var ki, hərəsi bir zirvədə qərar tutub, hərəsinin öz dili, adət-ənənələri var. Xınalıq, Qrız belə kəndlərdəndir. Mübariz müəllim bizə Əlik bələdiyyəsinə daxil olan 5 kəndin də etnik qruplara daxil olduğunu deyir, onların hərəsinin öz dili olsa da, bir-birlərini rahat başa düşürlər. Sadəcə, ləhcələrində fərq var. Adam ağzını açan kimi bilirik ki, hansı kənddəndir - çeklidir, yoxsa əlikli. Amma fərqi nədir, hamımız azərbaycanlıyıq, hamımızın bir dili, bir vətəni, bir torpağı var.

Dağların qanunu belədir: zirvələr nə qədər uca, yollar nə qədər enişli-yoxuşlu olsa, insanlar da bir o qədər çox bir-birinə yaxındır, bağlıdır. Mübariz müəllim bizi qardaşının evində qonaq saxladı. Gecə yarıdan keçənədək söhbət etdik, Liziya da bekar oturmadı, kitabçasını çıxarıb Azərbaycan dilində öyrəndiyi sözləri qeyd etdi: "Çox sağ olun", "dadlıdı", "uca dağlar", "gözəldir" və sair. Söhbətə samovar çayı ilə yekun vurduq.

Səhər oyananda Aleksey bizə Liziyanın təəssüratlarını tərcümə edib dedi ki, ev sahibəsi Mehparə onun dilini bilmədiyindən əllə başa salıb ki, bura sənin yerindir, yat, amma mənim hələ işim var, qab-qacağı yumalıyam. "Mən yata bilmədim, mətbəxə keçib Mehparə ilə birlikdə qab-qacağu yuduq, işarələrlə danışdıq, yalnız işimizi bitirdikdən sonra yataq otağına keçdik. Mən bizə görə dincliyini pozan, bizə süfrə açan qadının əməyinə hörmətsizlik edə bilməzdim. Elə əvvəldən də ona kömək etmək istəyirdim, amma utandım, dağ insanlarının vərdişlərini pozmağa ürək etmədim. Bəzən insana ünsiyyət qurmaq üçün dil yox, ürək lazımdır. Ən gözəl sözləri jestlərlə də demək mümkündür. Biz baxışlarımızla, jestlərlə danışdıq, ünsiyyət problemini yaşamadıq. Hər şey olduqca gözəl və təəccübləndiricidir".

Səhər tezdən hər kəsin öz işi var idi. Aleksey fotokameralarını götürüb mənzərələri çəkirdi, biz qeydlərimizi edirdik. Bir də gördük ki, Liziya yəhərsiz-yüyənsiz atın belindədir. İtaliyadan gələn şəhər qızının dağlarda ürək edib at belinə minməsi bizə qədərindən artıq cəsarətli gəldi. Qorxmursanmı? - deyib soruşduq. Aleksey həm də tərcüməçimiz idi. Liziya izah etdi ki, bilirsinizmi, bağlı yerdə yaşayan at olsaydı, mən, təbii ki, qorxardım. Bu atlar bu dağların, bu yerlərin sahibi kimi hər şeyi bilir, dərk edir. Mən ona inandım və etibar etdim. Burada kosmik bir əhvali-ruhiyyə var, ucalıqlarda, zirvələrin başında olduğumu hiss edirəm. Atın belində isə adama elə gəlir ki, əllərini göyə qaldırsan, buludlara toxunacaqsan! Mən ömrümdə ağlıma gəlməyən ən gözəl hissləri yaşadım. Dağlar nə qədər ucadırsa, insanlarınız da bir o qədər qürurludur!..

Günortaya yaxın məktəbdən çıxan uşaqlar çəmənlikdə iki dəstəyə bölündülər - qızlar ayrı, oğlanlar ayrı. Balaca kişilər güclərini sınadılar. Kişik xanımlar da Liziyanı çəkib apardılar, onu da oyunlarına qatdılar. Uzaqdan baxanda deməzdin ki, onlar bir-birinin dilini bilmirlər. Uşaq mahnıları oxuyurdular, sözləri də aramla, astadan elə deyirdilər ki, Liziya da onların ardınca təkrar edə bilirdi. Onu otuzdurur, yenidən ayağa qaldırır, saçlarını toxuyur, başına şal bağlayır, ən əziz qonaqları kimi qucaqlayıb öpürdülər.

Bir sözlə, əylənirdilər. Liziya artıq azərbaycanca 20-30 söz öyrənə bilmişdi. Qalanlarını da balaca qızlar ona öyrətdilər.

İtalyan qızının uşaqlarla, ümumiyyətlə, ətrafındakı insanların hamısı ilə ünsiyyət qurmasının başqa bir səbəbi də var idi. Liziya ali təhsillidir, İtaliyadakı işi sosial qayğı ilə bağlıdır. Vəzifəsi əlillərə, tək analara, çətin həyat şəraitinə düşən insanlara psixoloji yardım etməkdir. Bizə danışdı ki, işi o qədər də asan deyil və öhdəsindən gəlmək üçün bir qədər də psixoloq olmaq lazımdır, ona görə ki, yardım etdiyi insanların çətin anları olur. Adi köməkdən başqa onların mənəvi dəstəyə də ehtiyacı olur.

Haput kəndinin uşaqları Liziya üçün tapıntı kimi idi:

- Çox gözəl uşaqlardır, onlar ağıllıdır, tərbiyələrinin yüksək olması o saat hiss olunur. Bu uşaqlar dağ yerində çətin şəraitdə yaşasalar da, kobud və cod deyillər, hiss olunur ki, yüksək əxlaq və tərbiyənin sahibidirlər. Onlar həm də təbiidirlər, olduqları kimi qala bilirlər, özündən böyüklə rəftarda inanılmaz dərəcədə mehriban və nəzakətlidirlər. Bilirsinizmi, onlar mənə tədricən yaxınlaşdılar, isinişdilər. Hətta öz dillərində mahnını elə oxuyurdular, sözləri elə deyirdilər ki, ardlarınca təkrar edə bilim. Məni qucaqlayırdılar, üzümü ovuclarına alırdılar, mənə alışırdılar və mənimlə birlikdə əylənirdilər. Ola bilər ki, o uşaqlar böyüyəndən sonra məni unutsunlar, yaddan çıxarsınlar, lakin mən onların heç birini heç zaman unudan deyiləm. Onlarla keçirdiyim anlar da yaddaşıma qızıl hərflərlə həkk olundu.

Liziya danışdıqca Aleksey tərcümə edirdi ki, bu uşaqlar dünyanın ən ucqar və ən qeyri-adi guşələrindən birində yaşayırlar. Burada həyat gözəl olduğu qədər də çətin və keşməkeşlidir. İnsanlar da mətin olduqları qədər qonaqpərvər və mehribandırlar. Bir-birinin əlindən tutmağı bacarırlar. Görünür, zirvələrin əhatəsində ayrı cür yaşamaq qeyri-mümkündür.

Liziya Qusardan corab almaq istəyirdi, nəsə onu qane etmədi deyə almadı. Amma Haput kəndində ev sahibəsi Mehparə ona öz cəhrəsində əyirib boyadığı saplardan toxuduğu bir cüt corab bağışlayanda sevincinin həddi-hüdudu yox idi. Aleksey də aşılanmış bir qoyun dərisi almaq istədi, axtarıb tapdılar. Qiymətini öyrənmək istəyəndə güldülər, sidq ürəkdən "hədiyyədir" dedilər. Və əlavə də etdilər ki, bu dağlarda hər şey satılmır.

Axşamtərəfi Haput kəndində adamlarla sağollaşıb geri, Bakıya dönürük. Aleksey yenə Liziyanın dediklərini səbirlə tərcümə edir: "Dağlarla insanlar arasında ecazkar bir harmoniya var. Hər insan sanki ayrı bir planet idi, günəş kimi nur saçırdı. Həmçinin dağların da insanlarla harmonik uzlaşan bir aurası var idi. Elə bil, hamısı eyni dərəcədə canlı idi, mühit və insanların harmonik simfoniyasını dinlədim, rəqsini gördüm. Təmənnasız insanlarla tanış oldum. Buna sevinirəm və çox xoşbəxtəm. Mənə ömrümün ən gözəl anlarını bəxş etdiyiniz üçün sizə də, Azərbaycana da minnətdaram".

***Bahadur İMANQULİYEV,***
***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC müxtəlif növ kabellərin satın alınması üzrə
## *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Müxtəlif növ kabellərin satın alınması**
**İştirak haqqı - 2000 manat**

**Hesabın adı: "BAKI METROPOLİTENİ" QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: "AZƏR TÜRK BANK" ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 iyun 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 04 iyul 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 iyul 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 19.03.2019-cu il və 09.04.2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin Dövlət büdcəsi vəsaiti hesabına LOT 1 - Nəqliyyat vasitələrinin və xüsusi texnikanın satın alınması və LOT 2 - Qəza bərpa maşınlarına quraşdırılacaq avadanlıqların satın alınması məqsədilə dərc edilmiş açıq tenderdə iştirakçıların rəsmi müraciətlərinə əsasən, təkliflərin qəbulu vaxtı uzadılaraq 03 iyun 2019-cu il, zərflərin açılışı isə 04 iyun 2019-cu il saat 16:00-a təyin edilmişdir.

Əlaqələndirici şəxs: İlqar Tağıyev, tel: 431-47-67/1033 və İntizam Novruzov, tel: 431-47- 67/3019.

***Tender komissiyası***

Azercell

## abunəçilərinin nəzərinə

11.05.2019-cu il tarixdə bəzi tarif paketlərində hesablama intervalında dəyişiklik ilə əlaqədar dərc edilmiş elanın nəzərə alınmamasını xahiş edirik. "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində mövcud olan tarif paketlərində hesablama intervalı müvafiq tarif paketinin şərtlərinə uyğun tətbiq ediləcək. Bu istiqamətdə hər hansı dəyişiklik olduqda Abunə Müqaviləsinin şərtlərinə uyğun olaraq abunəçilər məlumatlandırılacaq.

## BİLDİRİŞ

İqtisadiyyat Nazirliyi tərəfindən 3 LOT üzrə: dəftərxana ləvazimatlarının (LOT 1), təsərrüfat mallarının (LOT 2) və işlək materialların (LOT 3) satın alınması ilə əlaqədar elan olunmuş açıq tenderdə iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Tender komissiyasının qərarına əsasən, LOT 1 və LOT 3 üzrə "KLAS-M" MMC, LOT 2 üzrə "NIKA-R.M" MMC qalib elan edilmiş, müəssisələrlə satınalma müqavilələri bağlanılmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərsu" ASC-nin "Azərbaycan" qəzetinin 30 aprel 2019-cu il tarixli nömrəsində dərc edilmiş İslam İnkişaf Bankı (İİB) ilə birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" layihəsi çərçivəsində "İstismar və Texniki Xidmət Dəstək məqsədilə "Gədəbəy, Daşkəsən, Tərtər və Qazax rayonlarında texniki xidmət avadanlığı və mexanizmlərin satın alınması" və "Daşkəsən, Tərtər və Qazax rayonlarında inzibati binaların tikintisi" işlərinin satın alınması üzrə açıq tenderdə iddiaçıların müraciətləri nəzərə alınaraq təkliflərin qəbulu və açılışı tarixi 14 iyun 2019-cu il saat 16:00-a təyin edilmişdir.

**Əlaqələndirici şəxs: İlqar Tağıyev, tel: 431-47-67/1033 və İntizam Novruzov, tel: 431-47-67/3019.**

***Tender komissiyası***

## NOTIFICATION

Within framework of the Project "National Water Supply and Sewerage Program in 6 regions of Azerbaijan" co-financed by the Islamic Development Bank (IDB), published in "Azerbaijan" newspaper dated on April 30, 2019, open tender for supply of project maintenance equipment and machinery in 4 regions (Gadabey, Tartar, Dashkesen and Gazakh) and construction of office buildings in 3 regions (Dashkesen, Tartar and Gazakh), taking into consideration the bidders' requests, it has been appointed the deadline for submission and opening of the bids is June 14, 2019, at 16:00.

**Contact persons: Mr. Ilgar Taghiyev, 431-47-67/1033 and Mr. Intizam Novruzov, 431- 47-67/3019.**

***Tender committee***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**"Bakı Telefon Rabitəsi" MMC-nin EATS-lərində istismar olunan sənaye və salon tipli kondisionerlərə profilaktiki baxış və texniki qulluq xidmətinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı şəkildə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **300 (üç yüz) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011, bankın**
**VÖENi: 9900037711,**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **27 iyun 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender təklifini və bank təminatını **05 iyul 2019-cu il saat 17:00-a qədər** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklif zərfləri **08 iyul 2019-cu il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq, tel.: (+994 12) 498-39-29.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 11 mart 2019-cu il tarixdə elan edilmiş "5 km TSV-100x2x0,5 kabelinin, 1500 km PKSV-1x2x0,5 naqilinin satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Bakinity Distribution" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Bakinity Distribution" MMC arasında "5 km TSV-100x2x0,5 kabelinin, 1500 km PKSV-1x2x0,5 naqilinin satın alınması" üzrə 17 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 11 mart 2019-cu il tarixdə elan edilmiş "3000 ədəd daxili qurğu ilə xarici antena tipli LTE modemlərinin satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "Elcazen Business Development CO" LTD müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "Elcazen Business Development CO" LTD arasında "3000 ədəd daxili qurğu ilə xarici antena tipli LTE modemlərinin satın alınması" üzrə 27 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası rəsmi internet səhifəsinin yenidən hazırlanması xidmətinin satın alınması ilə bağlı
## *kotirovka sorğusu elan edir*

Rəsmi internet səhifəsinin yenidən hazırlanması xidməti 2 (iki) ay, şərtlər toplusunda göstərilən qrafikə uyğun yerinə yetirilməlidir. Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Palatanın inzibati binasına - Bakı şəhəri, Bülbül pr. 27 ünvanına müraciət edə bilərlər. **Əlaqələndirici şəxs: Ələmqulu Quliyev, Alamgulu.Guliyev@fimsa.az telefon: (+99412) 493-50-58/346; Faks: (+99412) 498-12-14.**

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) 03 iyun 2019-cu il saat 17:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Tender proseduru Bakı şəhəri, Bülbül pr. 27 ünvanında Palatanın inzibati binasının 3-cü mərtəbəsində 04 iyun 2019-cu il saat 11:00-da başlanacaqdır. Kotirovka sorğusunda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bütün meyarlara cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim etmiş malgöndərən qalib hesab olunacaqdır. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

*Elgün Fərman oğlu Məmmədova məxsus Goranboy rayonu Nizami kəndində 1,17 hektar torpaq sahəsinə verilmiş MA 0314327 saylı və 1,35 hektar torpaq sahəsinə verilmiş MA 0314324 saylı çıxarışlar itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyası İcra Katibliyinin kollektivi iş yoldaşları

**AFƏT HÜSEYNOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi prokurorluğun veteranı

**AĞAMMƏD İBİŞOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**HAFİZ RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi maliyyə naziri Samir Şərifova əzizi

**ELÇİN ŞƏRİFOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Ədliyyə Akademiyasının baş müəllimi, fəxri ədliyyə işçisi

**AĞAMMƏD İBİŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının kollektivi Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1777
Qiyməti 40 qəpik